www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 avqust 2015-ci il Cümə № 183 (6211) Qiymәti 40 qәpik

**Xəbər**

## Vergidən yayınan məşhur müğənnilər kimlərdir?

yazısı səh.13-də

**Gündəm**

### Prokuror bu gün Xədicə İsmayıla iş istəyəcək



Jurnalist son söz deyəcək,

yazısı səh.3-də

### Müsavata qeydiyyat problemi: nazirlikdən nə deyilib?

yazısı səh.7-də

### Elşad Abdullayevin köməkçisinə Bakıya qayıtmaq izni verildi

yazısı səh.6-da

### Qarabağ iki prinsipin və ikili standartın girovluğunda

yazısı səh.12-də

### Hacı İbrahim "nə yaxtam, nə təyyarəm var" dedi

yazısı səh.11-də

### Azərbaycanın ATƏT-dəki daimi nümayəndəliyi bəyanat yaydı

yazısı səh.6-da

### Gülər Əhmədova özünü öldürmək istəyib

yazısı səh.11-də

### Jurnalistlər cəbhə xəttinə xüsusi icazə ilə gedəcək

yazısı səh.9-da

### Leyla Yunus tibb məntəqəsindən kameraya qaytarılıb

yazısı səh.3-də

### Partiya sədri Türkiyə siyasətçilərini ittiham etdi

yazısı səh.8-də

### Ukraynada daha bir azərbaycanlı iş adamı itkin düşdü

yazısı səh.11-də

### Hərbi ekspert ordudakı kadr islahatlarından danışdı

yazısı səh.9-da

## Qərb demokratik düşərgəni seçkiyə, yoxsa boykota hazırlayır?

# SƏFİRLƏRİN MÜXALİFƏTLƏ GÖRÜŞÜNÜN SENSASİON TƏFƏRRÜATI

ABŞ və Avropa Birliyi Bakıdakı səfirlikləri vasitəsilə seçki ərəfəsi yaranmış durumu təhlil edirlər; Qərbin siyasi texnoloqları boykot taktikasını çoxdan köhnəlmiş və effektsiz sayır, amma bu dəfə...; iqtidar seçki ərəfəsi "narıncı inqilab" və "5-ci kolon" mövzusunu niyə yenidən aktuallaşdırıb?




yazısı səh.5-də

# Səfir oğlu yanan binaya görə istintaqa cəlb olundu

Tacikistandakı diplomatımızın oğlu Anar Həsənov istintaqda dindirildikdən qısa müddət sonra Azərbaycanı tərk edib və həmin vaxtdan ölkəyə qayıtmayıb

yazısı səh.4-də



Aynur Məmmədov

*Deputat Elton Məmmədovun oğlu:*

### "İçki içmirəm, əyləncə mərkəzlərinə getmirəm"

yazısı səh.5-də



### Hadı Rəcəbli düşmənlərini ABŞ-da axtarır

yazısı səh.2-də



### Razi Nurullayev AXCP sədrinin iqtidarla anlaşdığını dedi: "Pasport məsələsi..."

yazısı səh.6-da



## Müdafiə naziri qoşunların döyüşə hazırolma səviyyəsini yoxlayıb

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhəboyu zonada yerləşən birlik və birləşmələrin döyüşə hazırolma səviyyəsini yoxlayıb. APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, qəfil həyəcan siqnalı ilə qaldırılan qoşunların hərtərəfli döyüş hazırlığı, qarşıya qoyulan vəzifələri qısa müddətdə yerinə yetirmək üzrə bacarıqları və manevr imkanları yoxlanılmaqla praktiki döyüş atışları icra olunub.**

Müdafiə naziri yoxlanılan hərbi hissələrin döyüş və əməliyyat imkanlarını, hərbi əməliyyatları aparmaq qabiliyyətini yüksək qiymətləndirib.

## AŞ PA məruzəçisi Azərbaycana səfər edəcək

**AŞ PA-nın məruzəçisi Milisa Markoviç Azərbaycana səfər edəcək. APA-nın qurumun saytına istinadən verdiyi xəbərə görə, səfər 24-27 avqust tarixlərində həyata keçiriləcək. Səfərdə məqsəd "Azərbaycanın sərhəd rayonlarının sakinlərinin qəsdən içməli sudan məhrum edilməsi" mövzusunda hesabat hazırlamaqdır. Səfər müddətində məruzəçi xarici işlər, ekologiya və təbii sərvətlər və kənd təsərrüfatı nazirləri ilə görüş planlaşdırır.**

Həmçin Azərbaycanın AŞ PA-dakı nümayəndə heyəti, Dövlət Su Resursları Agentliyinin, Dünya Bankı və vətəndaş cəmiyyəti üzvləri ilə görüşlər də nəzərdə tutulur. Milisa Markoviç Ağdam, Ağcabədi, Bərdə, Goranboy, Tərtər və Yevlax rayonların yerli icra hakimiyyəti rəhbərləri ilə də görüşəcək. O, sonuncu dəfə Azərbaycana 2014-cü ilin dekabrında belə faktaraşdırıcı səfər edib.

## Qurban bayramında Azərbaycanda 4 gün qeyri-iş günü olacaq

**Qurban bayramında Azərbaycanda 4 gün qeyri-iş günü olacaq. APA-nın məlumatına görə, Nazirlər Kabinetinin qərarına əsasən bu il sentyabrın 24-25-də Qurban bayramı qeyd ediləcək. Təqvimə əsasən 24 sentyabr cümə axşamına, 25 sentyabr cümə gününə, 26 və 27 sentyabr isə şənbə-bazar günlərinə təsadüf etdiyi üçün ölkədə üst-üstə 4 gün qeyri-iş günü olacaq.**

### Başsağlığı

**Milli Strateji və Düşüncə Mərkəzinin sədri İsa Qəmbər Şöhrət Ismayılova oğlu Raminin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Arif Hacılı və Müsavat Partiyasının Divanı Şöhrət İsmayılova oğlu Raminin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyası Ağdam rayon təşkilatı Arif Qurbanova atası Möhübbət Qurbanovun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05


# Hadı Rəcəbli düşmənlərini ABŞ-da axtarır

"Mənim müraciətim əsasında Rabitə və İnformasiya Nazirliyi ABŞ-a rəsmi sorğu göndərib"

**Seçkilər yaxınlaşdıqca mediada, eyni zamanda sosial şəbəkələrdə ayrı-ayrı deputatların ötən illərdəki fəaliyyətinin təftişinə daha çox yer ayrılır. Bu mənada vaxtaşırı gündəmə gətirilən və tənqid edilən deputatlardan biri də Sosial siyasət komitəsinin sədri Hadı Rəcəblidir. Facebook-da yaradılmış səhifələrdən birində ("Lənkəran 2015") komitə sədri sərt şəkildə tənqid olunur.**



Hadı Rəcəbli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, onunla bağlı kampaniya aparanların üzə çıxarılması üçün ciddi hərəkətə keçib: "Belə şey olar? Götürüb ağzına gələni yazırlar. Sovet hökuməti anonim məktub yazmağı qadağan eləmişdi. İndi necə olur anonim sayt açılır, insanları təhqir edir, heç kim də ona heç nə edə bilmir?" Deputatın sözlərinə görə, artıq məsələ ilə bağlı müvafiq araşdırmalara başlanılıb: "Mənim müraciətim əsasında Rabitə və İnformasiya Nazirliyi ABŞ-a, facebook mərkəzinə rəsmi sorğu göndərib. Bunlar məxfi məsələlərdir, ancaq Amerika nəsə edə bilər. Bizim günümüzə baxın ki, Amerika hər şeyimizə müdaxilə edib. Ola bilər ki, facebook səhifəsi açanlar elə burdadır, ancaq hələ ki konkret ünvan bəlli deyil. Buna baxmayaraq, məsələ ilə ciddi məşğuluq. Eyni zamanda Amerikadan cavab gözləyirik. Bütün hallarda bu, dəhşətli bir şeydir". H.Rəcəbli istisna etmir ki, bu səhifəni onun dairəsindən deputat seçilmək istəyən, yaxud onun imicinə zərbə vurmaq istəyən qüvvələr hazırlasın.

**ELŞAD**

## Bakıda 27000 manata mobil telefon nömrəsi satılır

**Azərbaycanda 27 000 manata (050) 966 66 66 bahalı, "zerkalnı", yəni ardıcıl, qoşa, yaxud eyni rəqəmlərin düzüldüyü olan nömrə satılır.**

Bu barədə elan disput.az saytında yerləşdirilib. Elanı yerləşdirən Fexri_94 adlı istifadəçi qeyd edir ki, nömrəni ayda 300 manata icarəyə də verir.

Qeyd edək ki, Azərbaycan cəmiyyətində nömrələrin "zerkalnı" olması bir çoxlarının sevimli müzakirə mövzularından biridir. Daha yaxşı yadda qaldığına görə belə nömrələrə maraq böyük olur.

Lakin belə SİM kartların qiyməti daha baha olur. Adətən belə nömrələri iş adamları, siyasətçilər, yüksək səviyyəli rəsmilər, digər fəaliyyət sahələrinin nümayəndələri imicini qorumaq üçün alırlar.

Xatırladaq ki, bir müddət öncə ölkəmizdə hətta 90 min manata (050) 555-55-55 nömrəsi satışa çıxarılmışdı.



## Bakıda 42 yaşlı kişi özünü yandırdı

**Bakıda intihara cəhd olub. Səbayel Rayon Polis İdarəsindən verilən məlumata görə, hadisə dünən baş verib.**

Bakı şəhər sakini, 1973-cü il təvəllüdlü Hüseynov Ayaz Fikrət oğlu üzərinə benzin tökərək özünə od vurub. O, hadisə yerində olan şəxslərin köməkliyi ilə dərhal xəstəxanaya çatdırılıb.

Faktla bağlı Səbayel Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

## Polis iki övladı ilə birgə itkin düşən ananı axtarır

**Bakının Binəqədi rayonunda ana və iki övladı itkin düşüb. Bu barədə vesti.az-a Binəqədi Rayon Polis İdarəsindən bildiriblər.**

Avqust ayının 15-də saat 15 radələrində 1971-ci il təvəllüdlü Esmira Əmirxan qızı Abbasova, qızı Nərmin (1993-cü il təvəllüdlü) və oğlu İbrahim (2004-cü il təvəllüdlü) ilə evdən gedib və bir daha geri dönməyib.

Üç gün sonra polisə onların itkin düşmələri haqda ərizə daxil olub. Hazırda əməliyyatçılar onların axtarışı ilə məşğuldur.

## AZAL Naxçıvana uçuşları dayandırdı

**AZAL avqustun 18-dən etibarən Naxçıvana reysləri dayandırıb. Bu səbəbdən Heydər Əliyev adına Bakı Beynəlxalq Hava Limanında sərnişin sıxlığı yaranıb.**



Bu barədə virtualaz.org saytına muxtar respublikaya uça bilməyən sərnişinlər xəbər verib.

Uçuşların təxirə salınmasının və gecikdirilməsinin səbəbləri sərnişinlərə izah olunmayıb. Sərnişinlər aviaşirkət rəhbərliyi ilə görüş tələb edirlər. Aeroportda basırıq var.

Bu vəziyyəti virtualaz.org saytına şərh edən AZAL mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski bildirib ki, Naxçıvan reyslərinin gecikməsi təyyarədəki texniki problemlərlə bağlıdır. Həmin təyyarə anqardadır və təmir olunur.

## Gəncə sakini saxta sənədlə 3 xarici maşın satdı

**Gəncə şəhər sakininin sənədləri saxtalaşdıraraq avtomobil satdığı üzə çıxıb. Lent.az Daxili İşlər Nazirliyinə istinadən xəbər verir ki, Seymur Rzayev adlı şəxs saxta etibarnamə tərtib edərək Sumqayıt şəhər sakinləri Nurəddin Vəliyevə məxsus "Mercedes", Şahin Ələkbərova məxsus "Mercedes" və Gəncə şəhər sakini Şamil Abbaslıya məxsus "Ford" markalı avtomobilləri satıb.**

Onun bu əməlləri Baş Dövlət Yol Polisi İdarəsi əməkdaşları tərəfindən müəyyən edilib. Araşdırmalar davam etdirilir.

## Rusiyadan Gürcüstan ərazisinə hərbi müdaxilə

**Gürcüstan XİN iddia edir ki, Rusiya vertolyotu ölkənin hava məkanını pozub. Avropa.info xəbər verir ki, Mi-8 vertolyotu Cənubi Osetiyadan çıxaraq Gürcüstanın Qori rayonunun Zardiantkari kəndi üzərində uçub. Gürcüstan tərəfi AB-nin müşahidə missiyasını hadisəyə qiymət verməyə çağırıb:**

"Rusiyanın bu cür addımları milli təhlükəsizliyə və stabilliyə təhlükə yaradan təxribatdır".

## Razi Nurullayev qəzet və sayt yaradır

**"Yeni Demokratiya" hərəkatının sədri, politoloq Razi Nurullayev yeni media holdinq qurur. Bu barədə məlumatı aznews.az-a politoloq özü verib. Razi Nurullayevin sözlərinə görə, holdinqdə iki media qurumu fəaliyyət göstərəcək:**

"İlk öncə "Cümhuriyyət" qəzeti bərpa olunacaq. Sentyabrdan etibarən qəzet işıq üzü görəcək. İkinci isə "Cebhe.info" adlı portal yaradırıq".

R.Nurullayev nəzarətində olacaq media holdinqin rəhbərinin adını da açıqlayıb: "Baş redaktor Rəfael Becanov olacaq. Ayrıca ofis götürəcəyik. Maliyyəmizdən isə jurnalistlər razı qalacaqlar".

## Boş qalan yerlərə müsabiqənin nəticələri elan olunub

**Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam orta təhsil bazasında (11 illik) orta ixtisas təhsili müəssisələrinə müsabiqənin nəticələri elan olunub.**

APA-nın məlumatına görə, abituriyentlər müsabiqənin nəticələri barədə məlumatı TQDK-nın internet saytından və iş nömrələrini bütün mobil operatorlardan 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər.

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinin və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək üçün 16808 abituriyent ixtisas seçimi edib.

Müsabiqə nəticəsində ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə 572 nəfər, tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 5969 nəfər qəbul olub.

Ali təhsil müəssisələrinin boş qalan (vakant) yerlərinə qəbul olanların siyahısı "Abituriyent" jurnalının 9-cu sayında, tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olanların siyahısı isə Abituriyent" jurnalının 10-cu sayında dərc olunacaq.

Ali təhsil müəssisələrinin boş qalan (vakant) yerlərinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlər avqustun 21-dən 27-dək sənədlərini daxil olduqları təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər.

Həmin müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilməsindən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri tədris müəssisəsinə göndərilməyəcək.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Prokuror bu gün Xədicə İsmayıla iş istəyəcək

## Jurnalist son söz deyəcək, hökm də bu gün oxuna bilər

**Avqustun 20-də Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə araşdırmaçı jurnalist Xədicə İsmayılın növbəti məhkəmə prosesi keçirildi. Ramella Allahverdiyevanın sədrliyi ilə keçən prosesdə əlavə şahid qismində dəvət olunan şəxslər ifadə verdilər.**

Prosesdə ilk olaraq, çıxış edən X.İsmayıl bir daha həbs olunma səbəblərinə toxundu: “AzadlıqRadiosunda aparılan yoxlamaların səbəbi məni tutmaq idi. Araşdırmalarımın qarşısını almaq istəyirdilər”.

Təqsirləndirilən şəxsin çıxışının ardından əvvəlki prosesdə ifadəsi yarımçıq dayandırılan Bakı Vergilər Departamentinin müfəttişi İmran Nurməmmədovun dindirilməsi davam etdirildi. Daha sonra digər şahid Elçin Əliyevin ifadəsi alındı. Onun dindirilməsi qısa çəkdi.

Ardınca müdafiə tərəfinin vəsatətləri oldu. İlk vəsatət, aralıq aktı və onun əsasında tərtib olunmuş məhkəmə mühasibatlıq ekspertizasının rəyinin yolverilməz sübutlar kimi siyahıdan çıxarılması barədə oldu. Müdafiə tərəfinin vəkilləri bildirdilər ki, səyyar vergi yoxlamaları başa çatmadan X.İsmayılla bağlı rəy vermək doğru deyil. Qeyd olundu ki, qanunda, ümumiyyətlə, aralıq aktı deyilən anlayış yoxdur. Verilən vəsatət təmin olunmadı.

Digər vəsatət təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş “radioda işçilərin bir qismini əmək yox, xidmət müqaviləsi ilə işə götürməsi” ittihamı ilə bağlı oldu. İttihamda göstərilir ki, X.İsmayıl bununla işçilərin büdcəyə 14% yox, 4% vergi ödəməsinə nail olub. Təqsirləndirilən şəxs vəsatətə münasibət bildirərkən qeyd etdi ki, ANS-də məlum yoxlamalar aparılarkən eyni ittihamlar verilmiş, kanal məhkəmədə məsələni mübahisələndirmiş, nəticədə sanksiyalar tətbiq olunmuş, sonda kanal məhkəməni udmuşdu. Cərimənin qanunsuz olması ilə bağlı qətnamənin qəbul olunduğu da qeyd olundu. Lakin yenə də vəsatət təmin olunmadı.

Daha sonra tərəflərin məhkəmə istintaqının yekunlaşması ilə bağlı fikirləri alındı. Müdafiə və ittiham tərəfi etirazlarının olmadığını qeyd etdilər. X.İsmayıl bildirdi ki, o da məhkəmə istintaqının bitməsinə etiraz etmir, lakin protokolların məhkəmədə oxunması vacibdir. Məhkəmə bu tələbi də rədd etdi. Əsas olaraq, hökmdən üç gün sonra verilməsi göstərildi.

Sonda prokuror çıxış üçün avqustun 21-i saat 11:00-a qədər vaxt istədi. Proses dövlət ittihamçısının təqsirləndirilən şəxsə həbs cəzası istəməsi ilə davam edəcək. X.İsmayıl bu gün son söz də deyəcək.

**Prosesdən sonra vəkil Fariz Namazlı məhkəmə istintaqının yekunlaşması ilə bağlı mətbuata açıqlama verdi:** “Bu prosesdə vergi əməkdaşları dindirildi. Məlum oldu ki, qanunda aralıq aktı deyilən bir termin yoxdur. Aktın Vergi Məcəlləsinin tələblərinə zidd olduğu üzə çıxdı. Bütün bunlar onu göstərir ki, aralıq aktı və ekspertiza rəyi qanunvericiliyə zidd olaraq hazırlanıb. Həmin sənədlərin sübutlar siyahısından çıxarılmasını məhkəmədən xahiş etdik. Lakin məhkəmə vəsatəti təmin etmədi. Bununla məhkəmə istintaqı yekunlaşdı. Dövlət ittihamçısı çıxış üçün bir gün vaxt istədi. İndiyə qədər gedən proseslərdə heç bir vəsatətimiz təmin olunmadı. 30-40 arası vəsatət verdik. Yalnız aralıq aktı əsasında əlavə şahidlərin dindirilməsi vəsatətindən başqa. Bütünlükdə təqdim etdiyimiz sübutlar X.İsmayılın təqsirsiz olduğunu təsdiq edirdi. Təəssüf ki, məhkəmə sübutları qəbul etmədi. Yekun nəticəni gözləyək. Ondan sonra çox şey aydın olacaq”.



❑ **Cavanşir ABBASLI**



# Leyla Yunus tibb məntəqəsindən kameraya qaytarılıb

## Həbsdəki digər siyasi fəalların səhhətindən şikayəti yoxdur

**Son günlər mətbuatda həbsdə olan siyasi məhbusların səhhətinin pisləşməsi ilə bağlı məlumatlar yayılıb. Hazırda həbsdə olan Sülh və Demokratiya İnstitutunun (SDİ) həbsdə olan direktoru Leyla Yunus və həyat yoldaşı Arif Yunusun, Müsavat Partiyası başqanının müavinləri Tofiq Yaqublu və Yadigar Sadıqovun, Müsavat başqanının müşaviri Fərəc Kərimovun, qardaşı Sirac Kərimovun, REAL hərəkatının sədri İlqar Məmmədovun səhhəti ilə maraqlandıq.**

**T.Yaqublunun vəkili Nemət Kərimli** musavat.com-a bildirdi ki, ötən həftə müvəkkili ilə görüşüb və onun səhhəti qənaətbəxşdir: “Tofiq Yaqublunun böyrəyində daş var idi. Daş düşdükdən sonra bir az ağrıları oldu. Tibbi müayinədən sonra səhhəti yaxşılaşıb. İndi heç bir problem yoxdur”.

N.Kərimli Fərəc Kərimov və qardaşı ilə də görüşdüyünü, onların səhhətində problem olmadığını və hər ikisini saxlama rejimindən şikayətlərinin olmadığını qeyd etdi.

REAL hərəkatının sədri İlqar Məmmədovun da səhhəti yaxşıdır. Bu barədə məlumatı musavat.com-a hərəkatın icraçı katibi Natiq Cəfərli verib.

**N.Cəfərli İlqar Məmmədovun səhhətinin yaxşılaşdığını və son zamanlar həbsxanada baş verən hadisələrin səngidiyini qeyd etdi. N.Cəfərli İlqar Məmmədovun ailəsi ilə danışa bilmədiyini də əlavə etdi:** “İlqar Məmmədova digər məhbuslardan fərqli qaydalar tətbiq edirlər. Ailəsi ilə telefonla danışmağa icazə vermirlər”.

**İlqar Məmmədovun əfv ərizəsi ilə bağlı səsləndirilən fikirlərə yenidən münasibət bildirən N.Cəfərli bəzi mətbuat orqanlarında yazılanların həqiqəti əks etdirmədiyini bildirdi:** “Əfvlə bağlı aparılan işlər ictimaiyyətin gözü qarşısında olub. Deyirlər ki, İlqar Məmmədovun razılığı olsa biz onu yaya bilərik. Bu günədək belə bir praktika da olmayıb. Əgər kimsə əfv yazıbsa, onu çap ediblər. Belə bir müraciət yoxdur. Absurd fikir səsləndirdilər. Belə bir əfv ərizəsi, müraciət varsa, yaysınlar. İlqar bəyin ərizə ilə müraciət etmək fikri yoxdur. Heç bir günahı olmadığı halda niyə belə bir müraciət etsin? İlqar Məmmədov siyasi motivlərə görə həbsdədir”.

**Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah başqan müavininin vəziyyətinin yaxşı olduğunu və avqustun 21-də ailəsi ilə görüşəcəyini bildirdi:** “Yadigar bəydə ürək çatışmazlığı problemi var. Ancaq vəziyyətində hələ ki ciddi problem yoxdur. Səhhəti yaxşıdır. Sabah ailəsi ilə uzunmüddətli görüş olacaq. Uzun zaman sonra oğlu və xanımı ilə 3 günlük görüş baş tutacaq”.

**Yunusların vəkili Elçin Qəmbərov Leyla Yunusun səhhətində problem olduğunu və müalicəsini davam etdirdiyini dedi. E.Qəmbərov bir neçə gün əvvəl səhhətinin pisləşməsinə görə təcridxananın tibb məntəqəsinə köçürülən L.Yunusun yenidən kameraya qaytarıldığını bildirdi:** “Təcridxananın həkimləri müayinə ediblər. Səhhətinin normallaşdığını deyib, kameraya köçürüblər. Ancaq səhhətində yaxşılığa doğru irəliləyiş yoxdur. Müalicəsi isə davam edir”.

❑ **İlkin MURADOV**

MINCHENKO CONSULTING

# Azərbaycanın regionun ən stabil ölkəsi olması fikrinə iki fərqli baxış

## “Cənubi Qafqazda hələ uzun onilliklər sabitlik olmayacaq...”

**Ermənistan region ölkələri arasında daha böyük siyasi risklərlə qarşılaşdığı bir zamanda Azərbaycan Güney Qafqazın ən stabil dövlətidir. Belə bir qənaət “Minchenko Consulting” media qurumunun hazırladığı “Zaqafqaziya regionunda siyasi risklərin qiymətləndirilməsi” adlı hesabatda yer alır.**

Sənəddə Azərbaycanın regionun ən güclü iqtisadiyyatı, xarici investorlar üçün cəlbedici ölkə olduğu vurğulanıb. “Qaz yataqlarının işlənməsi tədricən neft ehtiyatlarının azalması nəticəsində gəlirlərin azalmasını qismən kompensasiya edir. Bakının çoxəsrlik xarici siyasəti, ABŞ, Avropa İttifaqı, Rusiya, Türkiyə, İran, İsrail və ərəb dünyası ölkələrinin maraqları arasında balans yaratmaq qabiliyyəti mövcuddur” - hesabatda qeyd olunur.

Hesabata əsasən, ən böyük risk Ermənistanda mövcuddur. “Bu ölkə 2015-ci ildə kütləvi etiraz aksiyaları ilə üzləşib. Nümayişlər və iğtişaşlar ölkədə elektrik enerjisi tariflərinin qaldırılması səbəbi ilə baş verib. Bununla belə, tarif problemi böyük risklərlə dolub-daşan ümumi daxili və xarici siyasət kontekstlərinin yalnız bir hissəsidir”- sənəddə qeyd edilib.

“Ermənistanın 4 dövlətlə sərhədlərindən ikisi bağlıdır *(Türkiyə və Azərbaycan)*. Digər iki ölkə ilə sərhədləri *(Gürcüstan və İran)* Rusiya-Gürcüstan münasibətlərinin münaqişə kontekstləri ilə, o cümlədən Rusiya-Qərb, İran-ABŞ arasındakı münasibətlərə görə sıx bağlıdır. Bütün bunlar miqyaslı investisiyalar yolunda nəzərəçarpacaq maneələr, yoxsulluq yaradır”,- deyə hesabatda qeyd edilir.

**Siyasi analitik Mehman Əliyevə görə, əslində hesabatda Azərbaycanla bağlı əksini tapan məqamlar vəziyyətə adekvatdır:** “Sadəcə olaraq, bu sabitliyin nəyin üstündə qurulması əsas məsələdir. Deyək ki, Gürcüstandakı stabillik bizdən bir az zəif olsa da, demokratiya və parlament idarəetmə üsulu üstündə qurulub. Azərbaycanda isə sistem tam nəzarət və gücün üstündə bərqərardır. Yəni cəmiyyətə dövlət tərəfindən güclü nəzarət var. Bunun da təhlükəli tərəfi mövcuddur. Siyasi baxımdan sabitlik var, amma iqtisadi cəhətdən bunu demək olmaz. Məsələn, necə ki, Azərbaycanda devalvasiya oldu, sabah davamı da olacaq. Çünki iqtisadi nöqteyi-nəzərdən Azərbaycan o qədər də stabil deyil”.

**Ekspert bildirdi ki, Gürcüstanda iqtisadiyyat qeyri-neft sektoru üzərində qurulub. Ancaq siyasi nöqteyi-nəzərdən orda qeyri-sabitlik var:** “Bu isə normal demokratik sistemdir, hər hansı təhlükələr olsa da, tərəflər kompromisə gedir. Çünki orda mexanizmlər qurulub, necə ki, Saakaşvili uduzdu və nəticələri tanıyıb hakimiyyətdən çəkildi. Ermənistanda isə ciddi problem var, qarışıq bir vəziyyətdə olan dövlətdir, sanki Gürcüstan və Azərbaycanın hibrididir”.

**Politoloq Elxan Şahinoğlu isə fərqli düşünür:** “Cənubi Qafqazda hələ uzun onilliklər sabitlik olmayacaq. Bunun səbəbləri elə yayılan şərhdə də var”. Ekspertin sözlərinə görə, hesabatda obyektiv məqamlar az deyil: “Hesabatı Rusiyanın liberal ekspertləri də hazırlaya bilərdilər”.

**Siyasi şərhçi, NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov da hesabatla tanışdır:** “Düzünü desəm, həmin hesabatı hazırlayan media qurumu haqda hər hansı məlumatım yoxdur. Bu hesabatın hazırlanması hansı peşəkar səviyyədə aparılıb, demək çətindir. Hesabatda bəzi məqamlar var ki, onlarla razılaşmaq mümkündür. Lakin bəzi məqamların tamamilə sifariş əsasında yazıldığını dərhal hiss etmək mümkündür. Məsələn, razılaşdığım məqam Ermənistanda mövcud vəziyyət və sabahkı durumla bağlıdır. Əslində Ermənistan Rusiyanın əli ilə ayaqda durur və öz siyasi, iqtisadi xətti olmayan bir dövlətdir. Digər razılaşdığım məqam Azərbaycanın təbii sərvətləri haqda gedən araşdırma ilə bağlıdır. Bu, heç kəsə sirr deyil. Bəli, biz zəngin coğrafiyada yerləşirik və ölkəmiz çox zəngindir. Stabilliyə gəldikdə isə, bu stabilliyin hansı əsaslarla qorunduğu haqda həmin araşdırmada bir cümlə belə görmək mümkün deyil. Ölkədə mövcud olan ağır iqtisadi və siyasi durum haqda hər hansı məlumat olmadığı üçün bu hesabatı obyektiv saymıram. Digər tərəfdən isə hesabatı məhz ”Kommersant" saytı verib. Bu isə ondan xəbər verir ki, yazı öncədən hazırlanmış və sifarişlə “Hesabat” adı altında verilən sadəcə bir məlumatdır. Odur ki, bu hesabatı ciddi media qurumları və beynəlxalq təşkilatlar qəbul etməz".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 183 (6211) 21 avqust 2015



# Rəşad Məcid

**Aysel Əlizadə**

**Hamımızın qarşısına eyni cür adamlar çıxır.**

Sadəcə, hamımız eyni adam deyilik.

Həyatımın böyük bir üzüntüsünü yaşayırdım.

Bilmirəm nə idim.

Adını bilmədiyim haldaydım, ağlım ağrıyırdı.

Dünya mənə həmişəkindən daha nəhəng və yırtıcı görünürdü.

Zərbə dalınca zərbə enirdi göydən.

Olur, hə, sizdə də olub, əminəm, bilmirsən, dünyanın harasından yapışasan.

İş həyatım yarıda kəsildi, özəl həyatım...nəsə keçmişə qayıtmayaq.

Kabinetinin qapısını döydüm. Səs gəlmədi, qapı öz-özünə açıldı. O idi, "gəlin" demədən durub qapını açmışdı.

Sizsiz? Gülümsədi, - gəlin, gəlin, buyurun.

Dinmədən oturdum göstərdiyi yerdə. Əlində yazılar vardı, oxuyurdu. Həvəslə müəlliflərdən danışdı. Hamısı gənc idi. Gördüm ki, maqqaşla istedadlı gənc yığır. Aralarında lap çox dəyər verdikləri də vardı. Bir şeir oxudu, bir hekayədən parça...Yaxşı mətnlər idi. Sərvət tapmış kimi sevinirdi. Bir neçə gənci təriflədi. Müzakirə etdik mətnləri. Mənim yazılarımdan da danışdı. "Bir gün də yazmaqdan vaz keçməyin. Özünüz də bilmirsiz yazıya necə can verirsiz" dedi. "Bir dəfə şeirlərinizi gətirmişdiz. Otaqda mən də var idim. Verin bizim qəzetdə də çap edək - dedim. Heç fikir verməditz" Ara verib gülümsəyərək giley etdi: Burnunuz göylərdəydi. Bu haçan olub - incələməyə çalışmadım. İstədim düzəliş edim: "burnum yox, fikrim göylərdə olub". Etmədim.

Birdən soruşdu:

- Yaxşısız?

- Hə, yaxşıyam -dedim.

Qayğılı-qayğılı baxdı və elə bil səsli düşündü:

- Yox, yaxşı deyilsiz...

Karyera həyatımı soruşdu - neçə yaşında işləməyə başladım, hansı TV də çalışdım, necə oldu, nə vaxtdan yazıram filan. Danışdım. Artıq təqaüdə çıxmalısız ki - dedi. Güldük.

Beləcə dostlaşdıq.

Əslində, hamımızın qarşısına yaxşı dost ola bilən adamlar çıxır. Sadəcə, hamımız onu öz dostumuza çevirə bilmirik. Zamanla gördüm ki, o, düşmənlərinin də dostudu. Bir dəfə kiminsə haqqında pis danışdığını eşitmədim. Ancaq güvəndiyi adamlardan namərdlik görəndə günlərlə özünə gəlmədiyini də görmüşəm.

"Bunu necə edə bildi? Niyə etdi?" üzüntü içində bu sualı səsləndirər. O, məsələn, hansısa bir istedadlı oğlanı tanıtmağa çalışırdı. Adamlar deyirdilər ki, bir məqsədi var, özünü AYB sədrinin gözünə soxmaq istəyir. O, bir istedadlı qızı tanıtmağa çalışırdı. Adamlar deyirdilər ki... bildiz nə deyirdilər. Və bunu bezdirici, əlçəkməz şəkildə deyirdilər. Həm də elə adamlar ki, özləri içlərində paxıllıq qumbarası gəzdirirlər. Həyatları boyu bir insanı həqiqətən sevə bilməyənlər.

Mənsə onun heç bir addımında alt qat, qara niyyət axtarmamışam. Ona görə də heç vaxt tapmamışam.

Başqa cür dost ola bilməzdik.

Dostlar bir-birinə nədəsə bənzəməlidi. Kimisə tanımaq istəyirsənsə başqalarının onun haqda yox, onun başqaları haqda dediklərinə bax. Başqalarının "yaxşı" dedikləri adamların insanlardan necə nifrətlə danışdığını az görmədik. Mən onun insanlara sevgisini sevdim. Ən ağır dönəmimdə yanımda olmasını heç vaxt unutmaram. Təkcə mənim yox. Çox adama əl uzadıb, kömək edib. Qəzetində tribuna verib, kitabını çap etdirib, tədbirlərə çağırıb, tanıtmağa çalışıb. Ancaq bunların içində ən çalışqanları, doğrudan da imza olmaq istəyənlər, gecə-gündüz külüng döyənlər üzə çıxıb, parlayıb. Türkiyəyə hər gedişində oxuduğum yazarların kitablarını alıb gətirərdi. Onun mənim kimi başqalarına da kitab hədiyyə etməsini, bu arxaikləşən ənənəni sakitcə davam etdirməsini izləyirdim. İstədiyimiz kitabı tapanda sevinirdi. İstedadlı adam haqda özünə qarşı nə edir etsin, "istedadlıdı" deyə bilməsi də bir ayrı aləmdi. "Gündəlik yaz!" tələbi bəzən məni cana doydururdu. Ta o çağacan ki, artıq onun "yaz" deməsinə ehtiyac yox idi.

Atam deyərdi ki, yaxşı dost əsl qazancdı. Başqa qazanca güvən yoxdu.

Sevgili də bir gün tərk edə bilər, ata-ana da anlamaya bilər. Ancaq əsl dost...

Bütün ilişkilərin açarıdı dostluq. Dostluq yoxdusa, heç nə yoxdu.

İnsanların dostu olanların ölkəsində insanlıq hökm sürər.

Mənim dostum sevməyi bacarır. Ancaq onun sevgisiz vaxtları da olur. Özü yazdığı kimi bu zaman üzü kimsəsiz evin eyvanına bənzəyir. Onun şeirilə yazımı yarımçıq qoyub doğum gününü kutlayıram!

Bu şeirlər, bu yazılar canımdan,  
Səni hiss-hiss, duyğu-duyğu qoparır.  
Əllərini, tellərini astaca,  
Gözlərini qorxa-qorxa qoparır.  
Hələ çoxdur səndən məndə qalanlar  
Hələ nələr yazmalıyam mən, nələr...  
Ağrı dolu, əzab dolu romanlar,  
İnildəyən, sızıldayan şeirlər.  
Gərək hələ səni gün-gün itirib,  
Görüşləri bir-bir sayıb çıxarım.  
Hüceyrəmdən pinset ilə götürüb,  
Ürəyimdən qaşıqlayıb çıxarım.  
Son şeirimi yazdığım gün son səhər,  
Yaddaşımdan uzaqlaşıb itərsən.  
Son baxışın bədənimi titrədər,  
Gözümdəki son damlayla bitərsən.

# Səfir oğlu yanan binaya görə istintaqa cəlb olundu

## Tacikistandakı diplomatımızın oğlu Anar Həsənov istintaqda dindirildikdən qısa müddət sonra Azərbaycanı tərk edib və həmin vaxtdan ölkəyə qayıtmayıb

**Azərbaycanın Tacikistandakı səfiri Abbasəli Həsənovun oğlu Bakıda hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən dindirilib. "Report" saytının xəbərinə görə, Anar Həsənovun dindirilməsi sahibi olduğu şirkətin fəaliyyəti ilə bağlı olub. Belə ki, A.Həsənov bu il mayın 19-da Bakının Binəqədi rayonunda insan tələfatı ilə nəticələnən yanğından sonra bina üzləyən şirkətlərdən birinin sahibi kimi istintaqa cəlb edilib.**

A.Həsənov istintaqda dindirildikdən qısa müddət sonra Azərbaycanı tərk edib və həmin vaxtdan ölkəyə qayıtmayıb. Qeyd edək ki, iş üzrə aparılan araşdırmalar çərçivəsində həbs edilən "GLOBAL" Şirkətlər Qrupunun rəhbəri Miryusif Mahmudov Anar Həsənovun qayınatası, yəni səfir Abbasəli Həsənovun qudasıdır.

A.Həsənov 2012-ci ilin fevralında prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib. Bundan əvvəl o, Azərbaycanın İranda fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışıb.



Abbasəli Həsənov

Qeyd edək ki, mayın 19-da Binəqədi rayonunda 15 nəfərin ölümünə, 56 nəfərin isə xəsarət almasına səbəb olan dəhşətli yanğına görə poliuretan məmulatını istehsal edən "Qlobal Stone" MMC-nin baş direktoru Uğur Beşirov, "Global Construction" MMC-nin sədr müavini Ələkbər Əsgərov, 2012-2013-cü illərdə Binəqədi rayon mənzil-kommunal təsərrüfat birliyinin rəisi işləmiş rayon icra hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Ədalət Rəcəbov, Binəqədi rayonu, 72 saylı mənzil-kommunal istismar sahəsinin rəisi Nizami Orucov və 2012-2013-cü illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzov tutulub. Onlar Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə 4 ay müddətinə həbs- qətimkan tədbiri seçilib. Binəqədinin icra başçısı Xaləddin İsgəndərovun da istintaqda dindirildiyi barədə xəbərlər var.

Yanğınla bağlı yaradılmış Dövlət Komissiyasının sədri Abid Şərifov hələ iyulun 26-da istintaqın yaxın 10 gündə bitəcəyini desə də, deyilən vaxtdan üç həftə ötməsinə baxmayaraq, bu barədə rəsmi məlumat hələ də yoxdur.

Respublika Prokurorluğunun rəsmisi Eldar Sultanov bir müddət əvvəl bildirib ki, hadisənin baş verməsində təqsiri olan digər vəzifəli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək onların məsuliyyətə cəlb olunması istiqamətində istintaq-əməliyyat tədbirləri aparılır.

❑ **"Yeni Müsavat"**

# "AXCP Əli Kərimlidən dərhal alınmalıdır"

## Ağaşirin Tanrıverdioğlu: "O, Azərbaycan siyasətinin xərclənib qurtaran qara qəpiyidir"

**AXCP daxilində son aylarda yaranan böhran dərinləşir. Əli Kərimlinin keçmiş müavini Razi Nurullayevin avqustun 19-da keçirdiyi mətbuat konfransında yeni hərəkat elan etməsi və AXCP adına iddiaçı olduğunu bildirməsi partiya daxilində yeni mərhələnin başlanmasına səbəb olub.**

AXCP-dən xaric olunan şəxslərdən **Ağaşirin Tanrıverdioğlu** "Yeni Müsavat"a açıqlamasında partiyadan istefaların olacağını dedi: "Razi Nurullayev başda olmaqla, AXCP-dən haqsız yerə çıxarılan, haqsızlıqlara tab gətirməyərək istefa verən şəxslər iddia edirlər ki, əsl AXCP onlardır. Onların dediklərinə tam haqq qazandırıram. Çünki insanlar ömürlərini o partiyaya veriblər. Əli Kərimlinin diktator siyasətinə tab gətirməyən gənclər, yaşlılar nə vaxt haqlarını tələb ediblərsə, partiyadan qovulublar. Artıq iş o yerə çatıb ki, qarşıdakı günlərdən başlayaraq, "yaz yağışı kimi" AXCP-dən istefalar olacaq. Rayon şöbələrində insanlar bu partiyanı tərk etməyə başlayıblar. Hesab edirəm ki, Razi Nurullayevin ətrafında birləşənlər ikinci cəbhəni yox, əsl AXCP-ni yaradırlar. AXCP Əli Kərimlidən dərhal alınmalıdır. Zaman-zaman o partiyadan gedənlər olub. Bir dəfə də olsun ki, Əli Kərimli özündə güc tapıb, günahını boynuna almayıb. Bu gün 20-25 il bir yol gələn insanları üz-üzə qoymaq olmaz. Bunun yeganə yolu Əlinin özündə güc tapması, regionçuluq, tayfabazlıqdan əl çəkməsidir. Hazırda Kərimlinin ətrafında kiçik bir qrup qalıb. Onlar da tezliklə ayılacaqlar. Əli qurultaya qonaq otağının tutacağı qədər adamla gedəcək".

**A.Tanrıverdioğlu AXCP ilə gələn ay məhkəmə çəkişməsinə başlayacağını dedi:** "AXCP-dən məhkəməyə şikayət etmişdim. Bugünlərdə iş icraata götürüləcək. Məhkəmə işində israrlıyam. Əli Kərimli insanların hesabına London və digər yerlərdə özünə dəbdəbəli həyat qurub. Onlardan tələb etdiyim 156 min manat ödənməlidir.



Ağaşirin Tanrıverdioğlu

O zaman Kərimlini bağışlayaram ki, özündə güc tapıb, üzr istəyib, partiyadan getsin. O, xalqdan üzr istəməlidir. Bu partiya nəyin bahasına olursa-olsun, Əli Kərimlinin monopoliyasından çıxmalıdır. Sosial şəbəkələrdə görürəm ki, Əlinin "zombi"ləri Ehtiram Mehdiyev, Cavid Musazadə və Teymur Kərimin üzərinə hücuma keçiblər. Kərimli, sən bir gecədə Seymur Həzinin partiya rəhbərliyinə gəlməməsi üçün bu şəxsləri qovdurdun. Hamısı da Seymur bəyə yaxın olan, bir regionun üzvləri idilər. Bir qrup haqlı olaraq, AXCP-ni mövcud durumdan çıxarmaq üçün partiyanı sənin əlindən almaq istəyir. Sən isə "zombi"lərini onların üzərinə tökmüsən. Hər kəs Əli Kərimli adlı siyasətçini tarixin səhifəsindən silməlidir. O, Azərbaycan siyasətinin xərclənib qurtaran bir qara qəpiyidir. Heç kəsə onun yanında olmağı arzulamıram. AXCP xalqın partiyasıdır. Hər kəs orada ola bilər. Amma Əli Kərimlinin yanında yox. Onun siyasəti xain və xəbislikdən ibarətdir".

**Sabiq şöbə müdiri Mirzə Sakitin AXCP-dən çıxarılmasından da danışdı:** "Yəqin ki, hər kəsin yadındadır. Mirzə Sakit həbs olunanda, cəbhəçilərin hamısı onun canına and içirdilər. Elə ki o, həbsxanadan çıxdı, onu bəy azyaşlı övladı ilə "Azadlıq" qəzetindən uzaqlaşdırdılar. Bunu Allah Əli Kərimliyə bağışlamaz. O vaxt Rauf Arifoğlu Mirzə Sakitin bir qızını işə götürüb, bu yolla ona yardımçı oldu. Əlinin xisləti budur. İnsanı işlədir, sonra tutdurur, azadlığa çıxandan sonra isə tanımır. Bu gün Kərimli hakimiyyətlə istənilən razılaşmaya gedər ki, təki qurultayda növbəti dəfə sədr seçilsin. Amma buradan deyirəm, Əli bəy, nə qurultaya gedəsisən, nə də seçiləsisən. Artıq cəbhəçilər ayılıblar. Razi bəyin bu gün bütün narazıları öz ətrafında cəm etməkdə məqsədi vahid şəkildə mübarizə aparmaqdır. Orada təmsil olunan hər bir şəxsə uğurlar arzulayıram. Hər kəsi Əli Kərimlinin yox, Razi bəyin yanında olmağa çağırıram".

❑ **Cavanşir ABBASLI**

Yeni Müsavat
N 183 (6211) avqust 2015

# Qərb demokratik düşərgəni seçkiyə, yoxsa boykota hazırlayır?




# Səfirlərin müxalifətlə görüşünün sensasion təfərrüatı

## ABŞ və Avropa Birliyi Bakıdakı səfirlikləri vasitəsilə seçki ərəfəsi yaranmış durumu təhlil edir; Qərbin siyasi texnoloqları boykot taktikasını çoxdan köhnəlmiş və effektsiz sayır, amma bu dəfə...; iqtidar seçki ərəfəsi "narıncı inqilab" və "5-ci kolon" mövzusunu niyə yenidən aktuallaşdırıb?

**10 gündən sonra-sentyabrın 1-də parlament seçkilərinə rəsmi start veriləcək. Hakimiyyətin Qərblə və beynəlxalq təşkilatlarla münasibətlərinin kəskinləşməsi dövrünə təsadüf edən 1 noyabr parlament seçkilərinin legitimlik məsələsi indidən ciddi suallar doğurur.**

Məlumdur ki, Avropa Parlamenti seçkiyə müşahidəçi göndərməməyə qərar verib. Eyni zamanda parlamentarilərin də müstəqil şəkildə müşahidə missiyasını yerinə yetirməsini qadağan etməsi iqtidar üçün arzuolunmaz vəziyyət yaradıb.

Elə bu səbəbdəndir ki, hakimiyyət müşahidə missiyası göndərilməsi üçün ATƏT-ə müraciət edib. Halbuki ATƏT-lə də hakimiyyət arasında münasibətlər kəskindir. Hətta o səviyyədədir ki, iqtidar ATƏT-in Bakı ofisinin fəaliyyətinə qadağa qoyub. Seçkilərə müşahidə missiyası göndərəcəyi barədə hələ bir neçə ay əvvəldən qərar verən Avropa Şurası ilə də münasibətlər gərgindir. Rəsmi Bakı hətta AŞ və AŞ PA üzvlüyündən çıxmaq haqqında ultimatum xarakterli bəyanatlar da verib. Belə bir əlverişsiz beynəlxalq siyasi şəraitdə MDB-nin müşahidə missiyası və üçüncü dərəcəli ölkələrdən göndərilən müşahidəçilərlə seçkiləri keçirmək və parlamentin legitimliyin tanıtmaq qeyri-mümkündür.

Son günlər Bakıdakı Qərb ölkələri səfirləri müxalifət partiyaları ilə təmaslarını nəzərəçarpacaq səviyyədə artırıb. ABŞ, Böyük Britaniya səfiri və Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri müxalifət liderləri görüşüb. Postsovet məkanında ən uzunömürlü siyasi güc olan Azərbaycan müxalifəti indi çox dağınıq və zəif olsa da, Qərbin diqqətindədir. Diplomatik mənbələrdən aldığımız xəbərlərə görə, ABŞ və Avropa Birliyi Bakıdakı səfirlikləri vasitəsilə seçki ərəfəsi yaranmış durumu təhlil edirlər. İddialara görə, bu təmaslar daha çox müxalifəti noyabr seçkilərində iştirak etməyə razı salmağa hesablanıb. Qərbin siyasi texnoloqları boykot taktikasını çoxdan köhnəlmiş və effektsiz sayır. Bu baxımdan müxalifətlə təmaslarda seçkidə iştirak ritorikasının üstünlük təşkil etdiyi aydındır. Amma görüşlərlə bağlı sensasion məlumat budur ki, ABŞ və Avropa Birliyi müxalifətlə təmaslarda seçkidə iştirakı bu dəfə əvvəlki kimi israrla istəmir, onların yaranmış siyasi vəziyyətdə boykot taktikasına üstünlük verə biləcəyini anlaşıqlı qarşılayır. İddialara görə, buna səbəb Qərbin iqtidarla seçkilərlə bağlı anlaşa bilməsidir. Yəni hakimiyyət əsas müxalifətin parlamentdə təmsilçiliyinə razılıq verməyib.

Xatırladaq ki, 2005-ci il parlament seçkilərində elə bir situasiya yaranmışdı ki, beynəlxalq təşkilatlar işə qarışmalı oldu. Hətta bəzi partiya sədrləri dəfələrlə açıqlama verdilər ki, Avropa Şurasının və ATƏT-in nümayəndələri müxalifətə (o zaman Müsavat, AXCP və ADP-nin yaratdığı "Azadlıq" blokuna) hakimiyyətin parlamentdə fraksiya yaradacaq sayda-25 deputat yeri verməsinə razı olduğu təklifini çatdırıblar. Müxalifət partiyalarının rəhbərləri isə təklifi qəbul etməyiblər və parlamentin ən azı 70 faizini götürəcək sayda namizədlərinin deputat seçiləcəyini deyiblər. Son nəticədə isə iqtidar "Azadlıq" blokundan cəmi 5 nəfərin qələbəsini tanıdı...

2015-ci il parlament seçkiləri ərəfəsi müxalifət 10 il əvvəlki gücündən 10 dəfə itirib. İndi müxalifət daha bərbad durumdadır və boykota meyllənməsi həm də daxili resursların, o cümlədən insan faktorunun tükənməsi ilə izah edilə bilər. Qərb bu halda müxalifəti yalnız reanimasiya edə bilər ki, hətta indi bu da iqtidarda qıcıq və narazılıq doğurur.

Bəzi iqtidar mediasında Qərbin bu seçkilərdən Azərbaycan hakimiyyətinə təzyiq vasitəsi kimi istifadə edəcəyi və ölkədə qarışıqlıq yaratmaq istəyi barədə iddialar da güman ki, bu səbəbdən artıb. Hətta hakimiyyət "narıncı inqilab" və "5-ci kolon" mövzusunu yenidən ən yüksək səviyyədə gündəmə gətirib. İş o yerə çatıb ki, Qərb ölkələri səfirləri müxalifətlə təmas qurduqdan sonra balans yaratmaq üçün hakimiyyətə loyal partiyalarla da görüşmək zorunda qalır. Bəzi ekspertlər hesab edir ki, rəsmi Bakı seçki ərəfəsi "narıncı inqilab" və "5-ci kolon" mövzusunu yenidən aktuallaşdırması Qərb ölkələri səfirlərinin müxalifətlə təmaslarına bir növ reaksiyasıdır.

Bununla belə, hakimiyyət fərqindədir ki, seçkilər ənənəvi qaydada keçiriləcəksə, nəticələri beynəlxalq aləmdə qəbul etmək asan olmayacaq. Bu baxımdan hakimiyyət parlamentin legitimlik problemini həll etmək üçün yollar axtarır.

Xəbərlərə görə, YAP-ın bu seçkilərdə ilk dəfə 125 dairədən namizəd irəli sürməsi, hər rayon təşkilatında seçki qərargahları yaratması Qərbin diqqətini cəlb etmək, hakim partiyanın cəmiyyətdə ən fəal və Mili Məclisdə real güc olduğunu göstərməyə hesablanıb. Hakimiyyət bütün seçki məntəqələrində tam müşahidə kameraları quraşdırıb ki, bunu da seçkilərin obyektiv keçirilməsinə sübut kimi qəbul etdirmək niyyətindədir. Belə xəbərlər də var ki, Prezident Administrasiyasından bütün şəhər və rayonlar rəhbərlərinə xüsusi tapşırıq verilib ki, seçkilərə qatılmaq istəyən bir müxalifətçinin burnu qanamamalı, təbliğat kampaniyalarına maneə yaradılmamalıdır.

Böyük ehtimalla iqtidar bəzi konstruktiv müxalifətçilər qrupunun (məsələn, iqtidarla danışıqlarda iştirak edən partiya sədrlərinin) parlamentə düşməsinə şərait yaratmaqla Milli Məclisin legitimlik məsələsini həll etməyə ümid edir. Belə bir əməkdaşlığın təsirini artırmaq üçün məhkəmələri sürətlə yekunlaşan bir sıra siyasi məhbusların azadlığa buraxılacağı da gündəmdədir.

❑ "Yenì Müsavat"

# "İçki içmirəm, əyləncə mərkəzlərinə getmirəm"

## Deputat Elton Məmmədovun oğlu: "Ziya əmimi daha çox istəyirəm, çünki..."

**Deputat Elton Məmmədovun oğlu, adı qalmaqallarla gündəmə gələn Aynar Məmmədov (nəqliyyat nazir Ziya Məmmədovun qardaşı oğlu) axar.az-a müsahibəsində ilginc açıqlamalar verib.**





O, öncə yaxınlaşmaqda olan parlament seçkilərindən danışıb: "Bu il yox, amma gələcəkdə deputatlığa namizədliyimi verməyi düşünürəm. Məncə, bu uğurlu bir addım olar".

Deputat oğlu avtoşluq etməsi barədə bir müddət əvvəl yayılan videolara aydınlıq gətirib: "Sürəti sevən adamam. Sükan arxasına oturan şəxs hər şeydən əvvəl öz həyatını, təhlükəsizliyini gözünün önünə gətirməlidir. "Avtoşluq" kəlməsi mənə aid deyil. Bu anlayışdan çox uzaq bir insanam. Həm də yaşımın elə dövrü deyil ki, avtoşluq edim. Amma avtomobillərə qarşı xüsusi sevgim var".

**A.Məmmədov barəsində yayılan bəzi xəbərlərin ona təsir etdiyini deyib:** "Haqqımda yazılan gərəksiz, lazımsız xəbərləri oxumaq heç də xoş olmadı. Mənə avtoş damğası vurdular. Amma ortada faktı əks etdirən və mənim avtomobilimin dövlət nömrə nişanı olan videoçarx yox idi".

**O, jurnalist Rasim Əliyevin döyülüb ölməsi faktını pisləyib:** "Bu işdə əli olan günahkarlar cəzasız qalmazlar. Bəzi jurnalistlərə isə xüsusi hörmətim var. Onlardan da özümə qarşı hörmət görürəm".

**A.Məmmədov əmisi, nəqliyyat naziri Ziya Məmmədovdan da danışıb:** "Əmilərimin hamısı ilə əla münasibətim var, onları çox istəyirəm. Ziya əmimi daha çox istəyirəm. Çünki onun yeri başqadır". **O, əmisi oğlu Anar Məmmədovla münasibətlərinə də toxunub:** "Onunla çox yaxşı və mehriban münasibətimiz var. O, dövlətimizin inkişafı istiqamətində müəyyən uğurlu fəaliyyətlər həyata keçirir. Tez-tez görüşürük. Məndən yaşca böyükdür. Böyük kimi də məndən məsləhətlərini əsirgəmir".

**O, çox az mütaliə etdiyini, amma dini kitablara marağı olduğunu vurğulayıb:** "Anlayışım olsun deyə dini kitabları oxumağa üstünlük verirəm. Hər kəs kimi gündəlik işlərimlə məşğul oluram. İçki içmirəm. Əyləncə mərkəzlərinə getmirəm".

**A.Məmmədov incəsənətə meyilli olduğunu deyərək gələcəkdə özünü aktyor kimi sınamağı da düşünür:**

"Muğam və aşıq musiqilərini sevmirəm. Bəzi xalq mahnılarına isə qulaq asıram. Ritmik musiqilərə daha çox üstünlük verirəm. Romantik deyiləm. Lirikanı isə sevmirəm. Musiqidən professional dərəcədə anlayışım var. Pianoda ifa edirəm, notları bilirəm. Bəstəkarlıq barəsində isə heç vaxt düşünməmişəm".



## Ziya Məmmədovdan yeni təyinat

**Nəqliyyat Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinə (NİİM) yeni baş direktor təyin olunub. Bu barədə mərkəzin mətbuat xidmətindən məlumat verilib.**

"NİİM-ə yeni təyin olunan baş direktor Rüfət İmanovdur. Onun təyinatı ilə bağlı Nəqliyyat naziri Ziya Məmmədov avqustun 17-də əmr imzalayıb. Rüfət İmanov əmr imzalanan gündən işə çıxır", - məlumatda bildirilir. Qeyd edək ki, daha öncə Z.Məmmədov NİİM-in keçmiş baş direktoru Elnur Abdullayevi Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi vəzifəsinə təyin etmişdi.

## AXCP üzvü Razi Nurullayevə tərəf keçdi



**Qubadlı rayon şöbəsindən AXCP Ali Məclisinin üzvü Kamil Babayev Razi Nurullayevin təşkilatçılığı ilə təsis edilən alternativ AXCP-yə keçdiyini bəyan edib.**

Onun bəyanatında deyilir:

"1990-cı ildən bu günə kimi AXC və AXCP-də fədakarlıqla mübarizə həyatı keçmişəm. Hakimiyyətin bizə yaratdığı iztirabları və məşəqqətləri yaşamışam. 1990-cı ildən gələn yolumda heç bir zaman dəyişiklik olmayıb və olmayacaq da. Lakin səmərəsiz mübarizə və daxili intriqalar hər kəs kimi, məni də yorub. Mən də o düşüncədəyəm ki, hakimiyyət dəyişməlidir və mütləq dəyişməlidir. Lakin onu dəyişdirmək üçün gizli oyunlara və hakimiyyətlə bir-birinə pas ötürməyə son qoyulmalıdır. Əli Kərimli artıq uzun müddətdir ki, sədrdir, lakin onun tutduğu yolun uğurlu olmasına inamımı itirmişəm. Əminəm ki, partiya rəhbərliyi dəyişsə, ciddi nəticələrə səbəb olar. Bunun üçün də çağırış edirəm ki, AXCP-də gəncliyə yol açılsın. Çünki partiya içində gedən oyunlar, Əli Kərimlinin tənqidə dözümsüzlüyü, cəbhəçilərlə müqayisədə kifayət qədər normal yaşayışı və apardığı siyasətin də şəxsi maraqlar və şəxsi istəkləri üzərində qurulması mənə digər yol qoymur. Bunun üçün də mən bu gündən Razi Nurullayevin rəhbərliyi ilə elan olunan və alternativ fəaliyyət göstərən AXCP-yə qoşulduğumu bəyan edir və fəal siyasətdə sözümü deyəcəyimi bəyan edirəm. Bütün cəbhçiləri də ayıq-sayıq olmağa və nəticəsiz mübarizədən çəkilməyə, bizimlə bərabər bu polis rejimini yaradan hakimiyyətlə mübarizəyə səsləyirəm".

## Tağı Əhmədov seçki toplantısı keçirdi



**Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Seçki Qərargahının Yasamal rayon şöbəsi partiya fəallarının və imza toplayanların iştirakı ilə tədbir keçirib. Azvision.az-ın xəbərinə görə, tədbiri YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov açaraq seçki hazırlığının ilkin mərhələsi üzrə görülən işlərdən danışıb.**

Toplantıda seçki qərargahının iş bölgüsü aparılıb, qərargah üzvlərinə, deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanmasına cəlb edilmiş şəxslərə YAP Mərkəzi Seçki Qərargahının təlimat qaydaları haqqında kitabçaları paylanılıb.

Qeyd edək ki, tədbirdə ləğv olunan Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri, hazırda YAP Yasamal rayon təşkilatının sədr müavini Qərib Məmmədov da iştirak edib.

## Elşad Abdullayevin köməkçisinə Bakıya qayıtmaq izni verildi




**Fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin keçmiş rektoru Elşad Abdullayevin köməkçisi Elnur Məcidli ölkəyə qayıdır. Musavat.com-un məlumatına görə, bu barədə E. Məcidli özünün facebook səhifəsində məlumat verib. E. Məcidli yazıb: "Sizinlə bir şad xəbəri artıq paylaşmaq qərarına gəldim.**

Bir müddətdir Azərbaycana qayıtmaq *(gedib gələ bilmək)*, öz vətənimə xidmət edə bilmək və həmçinin ölkə prezidenti ilə görüş üçün həm hörmətli Əli Həsənova, həm də cənab prezidentə müraciət ünvanlamışdım. Keçən həftənin cümə günü Prezident Administrasiyasından edilən telefon zəngində müraciətimin qısa zamanda reallaşa biləcəyi söyləndi. Buna görə başda cənab prezident İlham Əliyev, prezidentin köməkçisi Əli Həsənov olmaqla, əməyi keçən hər kəsə təşəkkür edirəm! İnşallah, çox qısa zamanda vətəndəyəm!

Beş il aradan sonra doğma Azərbaycana qayıdacağım üçün həyəcanlıyam".

# Razi Nurullayev AXCP sədrinin iqtidarla anlaşdığını bəyan etdi: "Pasport məsələsi..."

### "Əli Kərimli razılaşıb ki, ona pasport verilsin və əvəzində hakimiyyətin dediyini yerinə yetirsin"

**AXCP sədrinin keçmiş müavini Razi Nurullayev və bir sıra keçmiş cəbhəçilər AXCP-yə qarşı iddialarını ortaya qoyandan, Əli Kərimlini sədrlikdən uzaqlaşdırmaq üçün qurultay keçirəcəklərini bəyan edəndən sonra "Azadlıq" qəzeti onlara qarşı kəskin ittihamlarla dolu yazılar verib.**

Qəzet və AXCP-nin rəhbərliyinə daxil olan şəxslər R.Nurullayevi hakimiyyətin AXCP ilə bağlı projesi adlandıraraq iddia edir ki, bunun üçün böyük pul ayrılıb, ancaq cəbhəçilər əqidələrinə sahib qalıb bu projeyə qoşulmayıblar. Qəzet yazıb ki, R.Nurullayevin AXCP adına iddia etməsi Hafiz Hacıyevin Müsavat adına iddia etməsi kimi gülüncdür.

**Razi Nurullayev isə "Yeni Müsavat"a açıqlama verərək bu iddia və ittihamların əsassız olduğunu bildirib. Onun sözlərinə görə, özləri zaman-zaman hakimiyyətin projesində olanlar hər kəsi özlərinə bənzədirlər:** "Azərbaycanda qəddar hakimiyyətin formalaşmasında həm də günahkar Əli Kərimlidir. Hakimiyyəti qəsb etmiş, xalqın səsini boğan bu rejimlə işbirliyini Əli Kərimli qurub və bu xalqı zülmə salıb. Biz bu hakimiyyəti bütün qanuni vasitələrdən istifadə edərək çökdürmək niyyətindəyik. İkincisi, hakimiyyətlə ənənəvi müxalifətin, Əli Kərimlinin hakimiyyətlə anlaşmaq, pul almaq, bir-birinə pas ötürmək oyunlarını da pozuruq. O, ona görə narahatdır ki, oyunlarını şumlayıb, yerlə-yeksan edirik. Bizi ləkələməyə çalışır. Amma ləkəli əllərlə götürülən istənilən şey elə ləkəli olur, birinci öz əlinə bulaşır. Bu hakimiyyət onun kimi adamlardan istifadə edir. Niyə onun özü və yaxın ətrafı hər zaman sudan quru çıxır. Çünki onların əli ilə hakimiyyətlə oynayır. Niyə onlar radikal mövqe tutur və ad çəkərək az qala təhqir edirlər, amma onları həbs etmirlər? Amma digər onlardan da zəif və radikal olmayan fəallar belə həbs edilir?"



**R.Nurullayev onu da dedi ki, ona məlumat verilib ki, Əli Kərimli hakimiyyətlə sövdələşməyə gedib:** "Plan belədir ki, insanları narazı salıb partiyadan uzaqlaşdırsın. Amma elə etsin ki, bunun xəncərinin qaşı düşməsin. Sual olunur: Necə ola bilər bir sədr bilsin ki, ona qarşı çıxan adamlar var və narazı saldığı adamlar da gedib o narazılara qoşulacaqlar, amma yenə də onları döyəcləsin, uzaqlaşdırmaq üçün damarlarından və beynindən kanalizasiya axan adını çəkib şərəf vermək istəmədiyim bir şər dağarcığından istifadə etsin? Əli Kərimli razılaşıb ki, ona pasport verilsin və əvəzində hakimiyyətin dediyini yerinə yetirsin. Sonra da gedib otursun Londonda. Amma o bilsin ki, onun hakimiyyətlə bu iyrənc oyununu pozacağıq. Hakimiyyətlə Əli Kərimli pis oyun içindədirlər. Bu xalqı ilk öncə hakimiyyət və Əli Kərimli tandemindən xilas etmək lazımdır".

❑ **E.SEYİDAĞA**

# Azərbaycanın ATƏT-dəki daimi nümayəndəliyi bəyanat yaydı

### "Nümayəndə heyətimiz ABŞ, Avropa İttifaqı, Kanada və Norveçin Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı iddialarını inkar edir"

**Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyi ATƏT Daimi Şurasının 19 avqustda keçirilən iclası ilə bağlı bəyanat yayıb. APA-nın xəbərinə görə, bəyanatda ABŞ, Avropa İttifaqı, Kanada və Norveç nümayəndələrinin iclasda Azərbaycanda insan haqlarının vəziyyətinə dair məsələ qaldırmasına etiraz bildirilir.**




**Bəyanatda deyilir:** "ABŞ tərəfindən Daimi Şuranın xüsusi iclasında qaldırılan məsələnin gündəliyə nə qədər uyğun olduğunu anlamırıq. Biz Avropa İttifaqı, Kanada və Norveç nümayəndəlikləri tərəfindən irəli sürülən arqumentlərin əsaslandırılmış olmasını gözləyirdik. Lakin eşitdiyimiz şərhlər əvvəlkilərlə eynilik təşkil edir və nümayəndəliyimiz bunlarla bağlı cavabını verib. Nümayəndə heyətimiz ABŞ, Avropa İttifaqı, Kanada və Norveçin Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı iddialarını inkar edir və bu cür cəhdlərin ölkələrimiz arasında ikitərəfli münasibətləri zəiflətdiyini düşünür. Azərbaycan ölkədə ayrı-ayrı fərdlərə qarşı aparılan cinayət işlərinin bilərəkdən siyasiləşdirilməsi və məhkəmə proseslərini təhrif etmək cəhdlərini qınayır. Azərbaycan ABŞ, Avropa İttifaqı və ona üzv olan dövlətləri, Kanada və Norveçi Azərbaycandakı məhkəmə sisteminin qərarlarına hörmət etməyə və cari hüquqi proseslərə müdaxilə etməməyə çağırır.

Hesab edirik ki, bəzi anonim beynəlxalq missiyalar tərəfindən məhkəmələr barəsində irəli sürülən iddialar qüsurludur və məhkəmə sisteminə təzyiq xarakteri daşıyır. Azərbaycanda bütün vətəndaşlar qanun qarşısında bərabərdir və fəaliyyətlərinə görə bərabər məsuliyyət daşıyırlar. İnsan hüquqları müdafiəçisi və ya jurnalist olmaq heç kəsi qanun qarşısında məsuliyyətdən azad etmir. Bunun əksi isə qanunsuzluq olardı ki, bu da Azərbaycan üçün qəbuledilməzdir. Təəssüf doğuran məqam odur ki, insan hüquqlarının müdafiəsi məsələsindən "5-ci kolon"un yaradılması və cəmiyyətdəki stabilliyin pozulması üçün sui-istifadə olunur. İnsan hüquqlarının müdafiəsinin biznesə çevrilməsi və ondan əldə olunan gəlirlərin şəxsi bank hesablarına köçürülməsi narahatlıq doğurur. Azərbaycana çirkli pulların yuyulması və digər qeyri-qanuni maliyyə tranzaksiyalarının qarşısını almaq üçün effektiv sistem qurmağa yardım etmiş bu dövlətlərin indi hökumətin şübhəli maliyyə köçürmələri, o cümlədən vergidən yayınma cinayətləri üzrə apardığı işləri qınaması anlaşılmazdır.

Ona görə də biz bu qərəzli yanaşmanı rədd edirik. Son olaraq biz ABŞ, Avropa İttifaqı, Kanada və Norveçi 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünlərin taleyinə, onların doğma torpaqlarına qayıtması və əmlakları üzərində hüquqlarının bərpa edilməsi məsələsində eyni həssaslığı göstərməyə çağırırıq. Biz bu hökumətləri Kəlbəcər rayonunda əsir götürülmüş, işgəncə və qeyri-insani rəftara məruz qalmış, üzərlərində qeyri-qanuni məhkəmə prosesləri keçirilərək barələrində müvafiq olaraq ömürlük və 22 illik həbs cəzası çıxarılan iki azərbaycanlı - Dilqəm Əsgərov və Şahbaz Quliyevin taleyinə də prinsipial yanaşmağa çağırırıq.

Təəssüf ki, ABŞ, Avropa İttifaqı, Kanada, Norveç biz bu məsələni Daimi Şurada qaldıranda həmişə səssiz qalıblar. Azərbaycan cəmiyyəti üçün bu nümayəndə heyətlərinin yanaşması ikili standartların bariz nümunəsidir".

YENİ MÜSAVAT
N 183 (6211) 21 avqust 2015




# Müsavata qeydiyyat problemi: başqan müavininə nazirlikdə nə deyilib?

**Xəbər verdiyimiz kimi, Müsavat Partiyası başqanının müavini Elman Fəttah avqustun 20-də Ədliyyə Nazirliyinə çağırılıb. Ədliyyə Nazirliyi Müsavat Partiyasının VIII qurultayının nəticələrinin ləğv olunması ilə əlaqədar Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının bir qrup üzvünün-keçmiş müsavatçıların şikayətinin araşdırılması üçün Elman Fəttahı dəvət edib.**

Elman Fəttahla əlaqə saxlayıb Ədliyyə Nazirliyində ona nə deyildiyini, partiya üçün problem olub-olmadığını öyrəndik.

**Elman Fəttah** dedi ki, Ədliyyə Nazirliyinə edilən şikayət xarakterli müraciətdə təxminən 12-13 nəfərin imzası var. Müraciət Azərbaycan Demokratiya və Rifah Hərəkatının sədr müavini, departament rəhbəri, Məclis üzvlərinin səviyyəsində hazırlanıb: "Məni nazirliyə dəvət etdilər, müəyyən suallar verdilər. Mən də bunun şifahi deyil, yazılı şəkildə aparılmasını dedim. Bildirdim ki, hansısa sualları varsa, Müsavat Partiyasına yazılı şəkildə müraciət etsinlər, o şəkildə də cavablandırılsın. Hələ ki belə müraciət olmayıb. Ötən il Müsavat Partiyasının qurultayının nəticələrinə dair sənədlər Ədliyyə Nazirliyinə təqdim olunub. Nazirlik də partiya ilə bağlı reyester qeydiyyatını başa çatdırmışdı. İndi nazirliyə müraciət edən insanların bundan əvvəl də mətbuatda şikayət xarakterli açıqlamaları dərc olunmuşdu. Bizə əvvəlcədən bəlli idi ki, ADR Müsavata qarşı yaradılan hərəkatdır. Qənaətim ondan ibarətdir ki, bu, təşkil olunmuş məsələdir. Görünür ki, hakimiyyət real müxalifət partiyalarının fəaliyyətinə əngəl yaradılması ilə bağlı qərar verib. Ədliyyə Nazirliyinin Müsavat Partiyasına qarşı kampaniya aparanların, fəaliyyətlərini partiyaya qarşı yönəldən şəxslərin müraciəti ilə bağlı qurultayın nəticələrini mübahisələndirməsi, eyni gündə Razi Nurullayevin rəhbərliyi ilə AXCP-yə qarşı legitimlik məsələsinin qaldırılması hakimiyyətin real müxalifətə təzyiqindən xəbər verir".



**Elman Fəttah:**
"Hakimiyyət real müxalifət partiyalarının fəaliyyətinə əngəl yaradılması ilə bağlı qərar verib"



**Ellada Məmmədli:**
"Bizə başqa yol buraxmadılar"

**ADR sədri Qubad İbadoğlunun müavini Ellada Məmmədli isə bildirdi ki, Ədliyyə Nazirliyinə müraciət edənlər illərini Müsavat Partiyasına vermiş əqidəli insanlardır, müsavatçılardır.**

**"Siz hesab edirsiniz ki, partiyanın qeydiyyatı ləğv olunmalıdır" sualına E.Məmmədli belə cavab verdi:** "Niyə məhz müsavatçılar tərəfindən Ədliyyə Nazirliyinə şikayət edilib sualı qoysanız, cavabım budur: 27 sentyabr 2014-cü il tarixində başlamış Müsavatın VIII qurultayı başa çatmamışdır. Qurultayın 2-ci günü kvorum olmadığından, qurultay tamamlanmadı".

**"Ədliyyə Nazirliyi qurultaydan sonra partiyanı yenidən qeydiyyata alıb. Sizcə, məsələnin indi ortaya atılması Müsavata qarşı hakimiyyətin təzyiq vasitəsi deyil? Keçmiş müsavatçılar da burada vasitə kimi istifadə olunmur" sualları isə E.Məmmədli belə cavablandırdı:** "Qurultayın tamamlanmadığını uzun müddət rəhbərliyə çatdırmağımıza baxmayaraq, əllərinin arxasıyla dala çevirdilər. Nəticədə nizamnamədən kənar partiyadan çıxarılmalar və haqsızlığa duruş gətirməyənlərin istefası oldu. Partiyadan çıxarılanlar rəsmi sənəd istədikdə, qapı arxasında qaldılar. Bütün qanunsuzluqlara yeni başqan belə don geyindirdi ki, bizi Ədliyyə Nazirliyi təsdiq edib, nə şikayətiniz varsa ora edin. Bizə başqa yol buraxmadıqları üçün Ədliyyə Nazirliyinə konkret faktlar əsasında müraciət olundu. Bu məsələnin 11 aylıq tarixi var. 11 aydır ki, rəhbərliklə mübarizə aparırlar".

Xatırladaq ki, Müsavat Partiyasının ötən il sentyabrın 27-də keçirilən VIII qurultayında Arif Hacılı 228 səslə başqan seçilib. Qubad İbadoğlu 200 səslə ikinci, Tural Abbaslı 19 səslə üçüncü olub. Qurultayın nəticələrindən narazı qalanlar növbədənkənar qurultay keçirilməsi tələbini irəli sürüblər. Bundan sonra Q.İbadoğlu Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatını yaradıb. Partiya rəhbərliyi isə Q.İbadoğlunun bu addımını bölücülük kimi qiymətləndirib və onu partiyadan xaric edib. Tural Abbaslı isə Müsavat üzvü olaraq qalsa da tərəfdarları ilə birlikdə bu yaxınlarda "Ağ Blok" yaratdığını elan edib.

❑ **Etibar SEYİDAĞA**

## Apelyasiya Məhkəməsi Müsavatın şikayətini qəbul etmədi

MÜSAVAT

**Bakı Apelyasiya Məhkəməsi Müsavat Partiyasının müraciətini qəbul etməyib. Bu barədə məlumatı musavat.com-a vəkil Nemət Kərimli verib. Vəkilin sözlərinə görə, Bakı Apelyasiya Məhkəməsi 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin Müsavat Partiyasının müraciəti ilə bağlı qərarını qüvvədə saxlayıb və müraciəti qəbul etməyib.**

Xatırladaq ki, Bakı Şəhər İcra Hakimiyyəti Müsavat Partiyasının aprelin 19-na planlaşdırdığı yürüşün keçirilməsinə razılıq verməmişdi. İcra hakimiyyəti partiyaya aprelin 19-da saat 15.00-dan 17.00-dək Yasamal rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul") mitinq keçirməyi təklif etmişdi. Müsavat rəhbərliyi isə bu təklifdən imtina etmişdi.

1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə təqdim olunan ərizədə İcra Hakimiyyətinin yürüşə icazə verməməsinin qanunvericiliyə zidd olduğu qeyd edilmişdi. 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi müraciəti rədd etdikdən sonra Müsavat Partiyası Apelyasiya Məhkəməsinə müraciət etmişdi.

# Ölkə seçkilərə və sosial gərginliyə doğru...

**Neftin qiymətinin 50 faizdən çox ucuzlaşması dövlət büdcəsinin gəlirlərini azaldıb. Manatın devalvasiyasından sonra bir sıra böyük tikinti şirkətləri ixtisarlara başlayıb. Bir neçə gün əvvəl Azərbaycanda böyük layihələrin icrası ilə gündəmə gələn iş adamı Hacı İbrahim maddi vəziyyəti pisləşdiyi üçün şirkətlərində çalışan 4900 nəfəri ixtisara saldığını açıqladı. Özəl sektorla yanaşı, neft sektorunda da ixtisarlar var və bu ixtisarların davam edəcəyi gözlənilir. Son bir neçə gündür Azərbaycanda ərzaq məhsullarının qiymətinin qalxması da müşahidə olunur.**

Ekspertlərin fikrincə, parlament seçkiləri ərəfəsi ölkədə yaşanan vəziyyət sosial gərginliyi artıra bilər.

**YAP-çı deputat Aydın Mirzəzadənin** fikrincə, Azərbaycanda sosial gərginliyin artması mümkünsüzdür: "Ərzaq məhsullarının qiymətinin müəyyən qədər qalxması hər bir ailənin büdcəsinə təsir edə bilər. Amma Azərbaycanda əmək haqqı yüksəkdir. Əhalinin sosial müdafiəsi dövlət tərəfindən hərtərəfli təmin edilib. Qiymətlərin müəyyən qədər qalxmasının hər hansı bir gərginliyə səbəb olmayacağını düşünürəm".

**Sosial partlayışın insanların yaşaya bilmədiyi, sabahlarını təmin etmək imkanlarının olmadığı zaman baş verdiyini deyən deputat bunları əlavə etdi:** "Mən deməzdim ki, Azərbaycanda hamının sabahı təmin edilib. Amma bununla belə, Azərbaycanda orta yaşayış səviyyəsi bir çox ölkələrdən yüksəkdir. Qiymət artımı dövlət tərəfindən nəzarətdə saxlanılır.



**Aydın Mirzəzadə:**
"Qiymətlərin müəyyən qədər qalxmasının hər hansı gərginliyə səbəb olmayacağını düşünürəm"

Əhalinin bu məsələdə ziyan çəkməməsi üçün müəyyən addımların atılacağını düşünürəm".



**Natiq Cəfərli:**
"Bank və tikinti sektorunda böhranlı vəziyyətdir, ixtisarlar var, insanların yaşayış səviyyəsi aşağı düşür"

**İqtisadçı ekspert Natiq Cəfərli isə qiymət artımının gözlənilən olduğunu və bunun səbəblərini izah edir:** "Devalvasiyadan sonra dövlət qiymət artımının qarşısını inzibati yollarla aldı. Bunun heç bir iqtisadi əsası yox idi. Dövlət söz vermişdi ki, Avropa Oyunlarından sonra vergidə və gömrükdə müəyyən yumşalmalar ola bilər. Biznesin fəaliyyəti üçün güzəştlər yaradılacaq. Amma bunların heç biri olmadı. Belə olan halda qiymətlərin qalxması labüddür. Azərbaycanda ərzaq məhsullarının 55 faizə yaxını xaricdən gətirilir. Bir yanlış fikir də ondan ibarətdir ki, insanlar ölkədə istehsal olunan malların Azərbaycan reallıqlarına uyğunlaşdırıldığını düşünürlər. Amma bu belə deyil. Bazarda olan çay, süd və meyvə şirələri Azərbaycan məhsulu adı altında satılır. Amma bu məhsullar xaricdən gətirilən xammal hesabına hazırlanır. Devalvasiya da xaricdən gətirilən xammalın qiymətinə təsir edir. Hazırda ölkə bazarında yerli məhsul adı altında satılan malların əksəriyyətinin maya dəyərində xaricdən gətirilən komponentlərin təsiri var".

**Sosial gərginliyin artıb-artmayacağına gəlincə isə Natiq Cəfərli qeyd etdi ki, ötən ilin sonlarından bu məsələlərlə bağlı fikirlər bildirsələr də, hökumət bununla bağlı böhran masası qurmadı:** "Ölkədə belə problemin yaşanacağı əvvəlcədən deyilsə də, hökumətin bununla bağlı heç bir planı yoxdur, hesablamalar aparılmayıb. Qiymətlərin qalxacağı, vəziyyətin bu həddə çatacağı gözlənilən idi. Lakin hökumət ümid edirdi ki, neftin qiyməti yenidən qalxacaq və bu problemlər öz həllini tapacaq. Amma görünən budur ki, neftin qiymətinin bundan sonra da aşağı düşmək ehtimalı var və bu problemlər dərinləşə bilər. Bank, tikinti sektorunda böhranlı vəziyyətdir, ixtisarlar var, insanların yaşayış səviyyəsi aşağı düşür, bu da sosial gərginliyin artmasına zəmin yaradır. Parlament seçkiləri də bu siyasi aktivliyin artması baxımdan çox vacib prosesdir. Amma Azərbaycanda seçki mühiti yox səviyyəsindədir. Azərbaycanda azad rəqabətin olmaması, müxalif fikirlərin televiziyaya, mətbuata çıxarılmaması da ciddi problemdir. Seçkilərə az vaxt qalsa da, ölkədə seçki mühiti hiss olunmur. Bütün bunlara baxmayaraq, seçkilərdə siyasi aktivliyin artırılması çox vacibdir və seçki ərəfəsində maraqlı proseslərin şahidi ola bilərik".

❑ **İlkin Muradov**



# Mikayıl Cabbarova açıq məktub

**Zamin HACI**
zaminhaci@gmail.com

"Aşağıdakılardan hansı çömçəquyruqda yoxdur?
A) yan xətt orqanı B) qəlsəmələr
C) 2 kameralı ürək D) 2 qan dövranı
E) quyruq"

**(Ali məktəbə qəbulda biologiyadan test sualı)**

**İlk növbədə üzümü təzə təhsil nazirimiz Mikayıl müəllimə tutub bir xırda iradımı bildirmək istəyirəm. Ümid edirəm hələ dərs başlamayıb, uşaqlara "Lenin baba yolunda" şeiri əzbərlətmir, şikayətimizə baxacaqdır.**

Şikayətimin məzmunu 1-ci siniflərə şagirdlərin qəbulu prosesi ilə bağlıdır. Mənim öz uşağım da bu il 1-ci sinifə gedəcək, amma yaşı çatmırdı, o üzdən Təhsil Nazirliyinin "xüsusi istedadlı uşaqlar üçün vaxtından qabaq məktəbə qəbul imtahanı" prosesindən keçməli olubdur. O imtahan haqda xoş sözlərimi artıq "Yeni Müsavat"da, 28 iyul sayında "Birinci imtahan" adıyla yazmışam, istəsəniz tapıb oxuya bilərsiniz.

Yoldaş Cabbarov, deyə bilərsiniz bəs sənə ayrı nə lazımdır, uşaq imtahan verib, 1-ci sinifə girib, get "Sədərək"dən paltar-palazını al, şəllə belinə, getsin haqqın yolunu öyrənsin də bə. Deyin. Amma şikayətim elə bu imtahandan sonrakı prosedura aiddir.

Uşaqların qəbul olunması haqda sənədi Bakı Şəhər Təhsil İdarəsinin saytından çıxarıb məktəb seçdik, lazım olan sənədləri *(tibbi arayış, şəkil-məkil)* toplayıb üz qoydum yaxınlıqdakı məktəbə. Mikayıl müəllim, Allahdan gizli deyil, sizdən nə gizli olsun, biz məktəbi ancaq evə yaxınlığına görə seçirik, çünki bir-iki babat məktəbə pulumuz çatmır, qalanları da hamısı eyni kökdədir. Onsuz da hamısında dovğa qazanı bulayan zənənlər laqqırtı vurub gün keçirirlər, evdə repetitor tutmalı olursan, bir də məktəblərimiz potensial cinayətkarlıq yuvasıdır - seçkiləri orda saxtalaşdırırlar. Ancaq bu, ayrı mövzudur, sizə dəxli yoxdur.

Uzun sözün qısası, sənədləri məktəbə təqdim edəndə direktor dedi ki, gərək uşaq da gəlsin, imtahan versin. Təəccübləndim, dedim bəs o biri imtahan nə üçün idi. Hətta imtahan otağını da mənə göstərdilər, burda masanın üstünə beş-altı oyuncaq da tökmüşdülər, guya uşaqlar tülkü ilə dovşanın fərqini tapıb məktəbə girirdilər. Nəsə, uzun çək-çevirdən sonra direktor sağ olsun, anlayışlı adam çıxdı, sənədləri qəbul elədi.

Amma məsələ ondadır ki, istəsə qəbul eləməyə bilərdi! Çünki sizin o Bakı təhsil idarəsi adlı karikatur obyektin valideynlərə verdiyi buraxılış vərəqəsinin altında belə bir əcaib cümlə var: "Məktəbdə yaradılan işçi qrup səbəbini göstərməklə uşağı məktəbə qəbul eləməkdən imtina edə bilər. Qəbulundan imtina edilmiş uşaqların valideynləri filan məktəbdəki şikayət qrupuna müraciət etsin". Bu ona bənzəyir ki, misal üçün, sən imtahan verib BDU-ya girirsən, sentyabr ayında gələndə Abel müəllim səni girişdə saxlayır, deyir ki, təzədən işçi qrupa imtahan verməlisən. "Səbəbini göstərmək" nə deməkdir? Burada hansı səbəb ola bilər? Təhsil Nazirliyinin keçirdiyi qəbul imtahanı o xəyali səbəbləri də yoxlaya bilməzdimi?

Fikrimcə, bunlar hamısı rüşvətxorluq üçün şərait yaratmaq, valideynləri, uşaqları incitmək üçün mənasız bir şeydir. Mən bir az direşdim, direktor da anlayışlı çıxdı, amma hamı belə deyil axı. Sizi inandırım ki, TN-in qəbul imtahanından keçmiş uşaqların çoxunu məktəblərdə bu cür incidirlər. Əgər mümkündürsə, bu biabırçı prosedura son qoyun.

Sonda bir daha sizə hörmətimi bildirirəm və imkan düşəndə Türk Hava Yollarının Tiflisdən Barselonaya uçan reysi ilə gedib ordan zati-alilərinizə soyuducu maqniti gətirməyə söz verirəm. Bütün hallarda siz biz jurnalistlər, valideynlər və sairə burnufırtıqlı şagirdlər üçün Misir Mərdanov deyilsiniz, daha müsbət xarakterə maliksiniz. Misir müəllimin vaxtında məktəblərə heç sənəd vermək olmurdu, daha doğrusu, ancaq üstündə Bencamin müəllimin şəkli olan sənədləri qəbul edirdilər. Yeri gəlmişkən, mən yüz minlərlə valideynlər adından Mərkəzi Banka da təşəkkür etmək istəyirəm, çünki 50 manatlığın üzərini məktəb mövzusuna həsr ediblər: iki uşaq bir dənə kişi müəllimin *(axırıncı kişi müəllim olub, onu da pula çəkiblər, o vaxtdan ancaq qadınlar dərs deyir)* dalıyca düşüb məktəbə gedirlər. Əgər bu şəkli 100 manatlığa çəksəydilər biz lap lüt-üryan qalardıq. Belədə 50 manatla yola vermək olur. Sağ olun, Elman müəllim.

Mikayıl müəllim, bir də mümkün olsa epiqraf verdiyim test sualının düzgün cavabını tapardınız. Öncədən minnətdaram.

# Partiya sədri Türkiyə siyasətçilərini ittiham etdi

## "Türkiyədə çox həssas bir məqamda bir sıra siyasətçilər o qədər məsuliyyətsiz davrandılar ki..."

**Türkiyə İŞİD və PKK ilə mübarizədə gərgin günlərini yaşayır. Qardaş ölkənin müxtəlif şəhər və bölgələrində hər gün terror aktları törədilir, terrorla mübarizədə hər gün türk əsgərləri şəhid olur. Türkiyə terror təşkilatlarına qarşı təkcə təhlükəsizlik xidmətlərinin imkanlarından istifadə etmir. Türk ordusu hazırda ciddi hərbi əməliyyatlar aparmaqdadır. Türkiyənin istər hərbi, istərsə də iqtisadi potensialı genişdir. Qardaş ölkə üzləşdiyi problemlərlə təkbaşına da bacara bilər.**

Amma o da nəzərə alınmalıdır ki, Türkiyə ilə Azərbaycan 2011-ci ildə hərbi sahədə əməkdaşlığa dair çox mühüm sənəd imzalayıb. Həmin sənədə görə, tərəflər bir-birinə yardım etməyi öhdəliyi götürür. Amma baş verənlərin fonunda nəzərə çarpan mühüm bir məqam odur ki, Azərbaycan Türkiyəyə terrora qarşı mübarizədə nəinki hərbi dəstək vermir, hətta rəsmi şəkildə siyasi dəstək verdiyini də bəyan etmir. Azərbaycanın müvafiq hakimiyyət orqanları, rəsmi şəxsləri tərəfindən adi bir bəyanata belə rast gəlinmir. Türkiyədən həmişə qardaş ölkə olaraq dəstək uman və həlledici məqamlarda dəstək görən Azərbaycanın indi çətin günlər yaşayan qardaşına ən azından siyasi dəstəyi açıq şəkildə ortaya qoymaması, heç olmasa Türkiyə səfirliyinin önündə dəstək mitinqi təşkil edilməməsi təəccüb doğurmaqla yanaşı, ortaya suallar çıxarır.

Azərbaycan nə üçün PKK və İŞİD məsələsində Türkiyəyə açıq siyasi dəstək ifadə etmir?


Fazil Mustafa

**BQP sədri, deputat Fazil Mustafa hesab edir ki, müşahidə olunan susqunluğun səbəbi başqadır. Azərbaycan hakimiyyəti Türkiyə hökumətinin istəyi ilə addımlar atılmasına daha çox önəm verir. Faktiki olaraq Azərbaycan Türkiyənin terrorizmə qarşı mübarizəsində və başqa məsələlərdə Ankaraya dəstək verir. Türkiyə hüquq-mühafizə orqanları ilə koordinasiyalı şəkildə iş aparılır:** "İstər İŞİD terrorçularına, istər PKK terrorçularına qarşı mübarizədə hüquq-mühafizə orqanları birlikdə fəaliyyət göstərirlər. Təbii ki, bunun bir az deklorativ olaraq cəmiyyətə çatdırılması daha uyğun olardı. Hazırda Milli Məclis tətildə olduğu üçün bu məsələləri orada qaldırmaq imkanımız yoxdur. Amma siyasi partiya olaraq bizim və bir sıra partiyaların Türkiyəni dəstəkləmək barədə bəyanatları var".

**Deputat qeyd etdi ki, əsas problemlərdən biri Azərbaycanla bağlı deyil, bu gün Türkiyənin siyasi elitasında məsuliyyətsiz siyasətçilərin sayı ilə bağlıdır:** "Bu qədər gərgin, ağır situasiyada şəxsən mən bütün siyasi ambisiyalarımdan geri çəkilərdim və hökumətin formalaşması üçün bütün addımları atardım. Elə məqamlar yaranır ki, həmin vaxt dövlətin maraqlarını qurban vermək olmaz. Türkiyədə çox həssas bir məqamda bir sıra siyasətçilər o qədər məsuliyyətsiz davrandılar ki, dövlətin maraqları təhlükə altına girdi, koalision hökumət qurulmadı. Hökumət qurulmayanda da işin koordinasiya olunması, onlara çağırışlar edilməsi və başqa mühüm məsələlərdə ciddi problemlər ortaya çıxır. Bizim umacağımız o idi ki, Türkiyədə koalisiya hökumətin qurulması ilə PKK-ya qarşı daha sərt və vahid hökumət modeli hücuma keçmək imkanları yaranardı. İndi bu baxımdan, məncə, Türkiyənin tələbi varsa, daha çox Azərbaycan ona öz mövqeyini indeksləşdirir və məmnuniyyətlə dəstək verər. Təbii ki, hamının məsələyə yanaşması eyni deyil. Müxalifətdə olan partiyaların yanaşması hakimiyyətin yanaşması ilə fərqli ola bilər. Belə görünür ki, hakimiyyət terror təşkilatları ilə bağlı mövqeyini Türkiyə ilə koordinasiya olunmuş şəkildə ifadə edir".

**❑ E.SEYİDAĞA**

# İran İŞİD-ə qarşı savaşmaq üçün Suriyaya ordu göndərir

## Britaniya mətbuatı Tehranın bölgə ölkələri ilə fəal iş apardığını və Suriyada antiterror savaşına qatılacağını iddia edir

**İran İŞİD-ə qarşı mübarizə koalisiyasına qoşulmağa hazırlaşır. Belə bir iddia ilə Britaniyanın "İndependent" qəzeti çıxış edib. Qəzet hazırda İran diplomatiyasının Yaxın Şərqdə ciddi diplomatik fəallıq nümayiş etdirərək koalisiyaya qoşulmaq üçün danışıqlar apardığını iddia edir. Bildirilir ki, İran İŞİD-ə qarşı əməliyyatların Suriyaya keçirilməsini və İnqilab Keşikçiləri Korpusunun (SEPAH) əməliyyat qüvvələrinin birbaşa döyüş əməliyyatlarına qoşulmasını istəyir.**



İranlı bir diplomat qəzetə açıqlamasında deyib ki, İŞİD-in mərkəzi Suriyada olduğu üçün quru əməliyyatlarının bu ölkədə keçirilməsini təklif edir. O da məlumdur ki, artıq bir neçə ildir ki, İran İŞİD-ə qarşı mübarizə məqsədi ilə silahlı birliklərini, hərbi təlimatçı və əməliyyatçılarını Suriya və İraqa göndərir. İndi isə rəsmi Tehran bu fəaliyyətlərini leqallaşdırmaq və İŞİD-ə qarşı birbaşa savaşa qatılmaq istəyir.

"İndependent" qəzeti "altılıq" ölkələri ilə nüvə anlaşmasından sonra İran diplomatiyasının fəallaşdığını və faktiki olaraq diplomatiya hücumu həyata keçirdiyini yazıb. Hazırda İranın xarici siyasətində ciddi dəyişiklik olduğu və Qərb ölkələri ilə yanaşı, bölgədəki ərəb ölkələri ilə yenidən əlaqələr qurmağa çalışdığı qeyd olunur. Yazıda bildirilir ki, İran xarici işlər naziri Cavad Zərifin Moskva səfəri zamanı İŞİD-ə qarşı mübarizə məsələsi gündəmə gətirilib. Məhz bu səfərdən dərhal sonra İran XİN rəhbəri Livan, Küveyt və Qətəri ziyarət edib. Zərifin səfərindən sonra Qətər xarici işlər naziri Xalid Atiyə İranla ciddi dialoqun başlanmasına ehtiyac olduğunu bəyan edib.

Görünən odur ki, İran nüvə anlaşması ilə yaranmış yeni situasiyadan faydalanaraq bölgədəki siyasi fəaliyyətini gücləndirməyə, İŞİD-ə qarşı mübarizəyə açıq şəkildə qatılmağa çalışır.

Təbii ki, hazırda İraq və Suriyadakı böhranın aradan qaldırılması, İŞİD kimi radikal təkfirçi terror qruplarının məhv edilməsi İran üçün regional siyasətin prioritetinə çevrilib. Tehran bu məsələdə Qərbin dəstəyini almaqla yanaşı, region ölkələrindən də dəstək almağa çalışır. Təbii ki, bu məsələdə Qərb də İrana "yaşıl işıq" yandırıb. Çünki ABŞ və Avropa ölkələri İŞİD-ə qarşı mübarizədə hava zərbələrinin yetərli olmadığını etiraf edirlər. Quru əməliyyatlarına ordu göndərilməsi isə xeyli risklidir. Çünki bu halda ABŞ və Avropa savaşın ortasına düşmüş olur və bu zaman nifrətin Qərbə yönəlməsi, eləcə də terror savaşının gözlənilən ağır itkilərinə Qərb ölkələri hazır deyil. Bu mənada savaşa könüllü qatılmaq istəyən İran Qərb üçün də maraqlıdır. Çünki bu halda savaş Yaxın Şərq ölkələri tərəfindən aparılacaq. Yaxşı halda İran İŞİD-i sıradan çıxaracaq, ən pis halda İran terror müharibəsi bataqlığına düşəcək.

İran isə terrora qarşı savaşmaqla İraq və Suriya kimi müttəfiqini xilas etməklə yanaşı, bölgədə rolunu artırmağa çalışır. Üstəlik, İranın bu məsələdə geniş təcrübəsi var, uzun illər bu istiqamətdə müxtəlif region ölkələrində silahlı qruplaşmalar yaradıb və hazırlanmasında iştirak edib. Bu mənada İranın antiterror koalisiyasına daxil olaraq Suriyaya qoşun göndərməsi Qərbi də, rəsmi Tehranı da qane edir. Yalnız qalır bölgə ölkələrini razı salmaq. Təbii ki, əsasən Amerikanın təsiri altında olan körfəz ərəb ölkələrinin Vaşinqtonun yaşıl işıq yandırdığı məsələyə ciddi etiraz etməsi real deyil. Üstəlik, İranın İŞİD-lə savaşması ərəblərin işini asanlaşdırır.

Bu mövzuda yeganə etiraz edəcək tərəf Türkiyə və Şimali İraq kürd administrasiyası ola bilər. Çünki Bərzaninin rəhbərlik etdiyi kürd administrasiyası İŞİD kartından istifadə edərək Kərkük də daxil olmaqla, İraqın bir sıra ərazilərini faktiki olaraq ələ keçirib. İraqda şiə türkmənlərin yaşadığı Kərkük bölgəsi isə İraq hökuməti ilə yanaşı, İran üçün də mühüm əhəmiyyət daşıyır. İranın bölgədə möhkəmlənməsi kürdlərin mövqeyini zəiflədir və paralel olaraq kürdlərin Suriyada müstəqil güc olmasına mane olacaq. Üstəlik, kürdləri özü üçün potensial təhlükə görən Tehranın Suriyada və İraqda olması kürdlər üçün əlverişli deyil. Bu səbəbdən də kürdlərin bu qərarla razılaşması mümkün görünmür.

Ankara isə İranın Suriyada İŞİD-ə qarşı savaşmasını regional siyasət və Bəşər Əsədin qorunması planı olaraq gördüyü üçün razılaşmayacaq. Doğrudur, Türkiyə faktiki olaraq İŞİD-ə savaş açıb və İranın bölgəyə gəlməsi Ankaranın da işini yüngülləşdirir. Lakin İranın "səhnəyə enməsi" həm də Əsədin yaşaması anlamına gəlir ki, bu da Ankara üçün uyğun deyil.

Hər nə qədər kənar görünsə də, İsrail də Tehranın Suriyaya açıq şəkildə ordu yeritməsinə qarşı çıxacaq. Ancaq hazırda Vaşinqtonla Təl-Əviv arasında münasibətlər soyuq olduğu üçün İsrailin bu plana ciddi təsir edəcəyi gözənilmir.

**❑ Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 183 (6211) 21 avqust 2015

**Müdafiə Nazirliyində qəfil kadr dəyişiklikləri diqqəti bu quruma yönəldib. Mətbuatda Zakir Həsənovun vəzifəyə gətirdiyi zabitlərin "vurulması" haqda yazılar yayılır. Əslində nə baş verir? Müdafiə Nazirliyində gözlənilməz kadr dəyişiklikləri, yüksək rütbəli zabitlərin işdən azad edilməsi nəyə xidmət edir?**

# Hərbi ekspert ordudakı kadr islahatlarından danışdı

## Üzeyir Cəfərov: "Təyinatların böyük əksəriyyəti təqdim olunduğu kimi, "vurulma" deyil"

**Hərbi ekspert Üzeyir Cəfərov** deyir ki, Müdafiə Nazirliyindəki kadr dəyişiklikləri əslində təqdim olunan kimi deyil. "Müdafiə Nazirliyində qeyri-adi heç nə baş vermir. Prezident nazir müavini Qorxmaz Qarayevi mühüm posta göndərib. Birləşmə komandirinin müavini elə də adi post deyil. Vaxtilə Kəlbəcər briqadasının müavini olub, döyüşlərdə iştirak etmiş, böyük hörməti olan şəxsdir. Deyirlər ki, nazir müavini vəzifəsindən komandir müavini vəzifəsinə təyinatı "vurulma"dır. Amma faktiki belə deyil. Hər 2 vəzifə general-mayor vəzifəsidir" - deyə, Ü.Cəfərov bildirib.

**Onun sözlərinə görə, kadr yerdəyişmələri ordunun güclənməsinə və cavan kadrların irəli çəkilməsinə xidmət edir:** "Məsələn, Fuad Məmmədova şans verilib ki, özünü təsdiq etsin. Yazırlar ki, Qəhrəman Ağayev tikinti işlərinə cavabdehlik daşıyıb. Onu 1995-ci ildən tanıyıram. Müdafiə Nazirliyi Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki Mənzil İstismar Sahəsinin, sonradan isə Müdafiə Nazirliyi Mənzil İstismar İdarəsinin rəisi olub. İndi yazırlar ki, guya onun rütbəsi aşağı salınıb, polkovnik leytenant olub. Faktiki isə rütbəsi polkovnikdir, aşağı salınmayıb.

Silahlı Qüvvələrin Ərzaq Xidmətinin rəisi Malik Qurbanov Səfər Əbiyevin dövründə polkovnik-leytenant rütbəsində ordu sıralarından tərxis olunub. Sonradan Zakir Həsənov ordu sıralarına qaytarıb, dərhal polkovnik rütbəsi verilib. Hazırda 2 mühüm idarənin rəisi vəzifəsini icra edir. Yəni onu irəli çəkiblər, işdən çıxarıb işsiz qoymayıblar. Zirehli Tank Xidmətinin rəisi Elxan Hüseynov cavan zabitdir. Onun xidmət yeri dəyişdirilib. Yanacaq xidmətinin rəisi Hüseyn Vəliyevin xidmət yeri dəyişdirilib. 25 zabitin vəzifəsindən azad edilməsi haqda yazılanlar da həqiqət deyil. Həmin zabitlər Silahlı Qüvvələrin Baş İnspeksiyası İdarəsindəki məlum həbslərdən sonra istintaq dövründə tutduqları vəzifələrdən müvəqqəti olaraq uzaqlaşdırılıblar. Onları geri qaytara və ya digər vəzifələrə də çəkə bilərlər.

Rasim Əliyev Kadrlar İdarəsinin rəisi vəzifəsindən azad olunaraq Mənəvi Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi vəzifəsinə təyinat alıb. O, təcrübəli zabitdir. Döyüşlərdə iştirak edib. Rövşən Əkbərovun rəhbərlik etdiyi xüsusi təyinatlı hərbi hissənin komandir müavini olub.

Rüfət Əmirov Müdafiə Nazirliyinin Mənəvi psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi vəzifəsindən azad olunub və general vəzifəsinə təyin olunub. Rüfət Əmirov çox təcrübəli zabitdir.

Mirzə Alxasov Naxçıvanski Ali Hərbi Liseyin rəisi vəzifəsindən azad olunaraq Silahlı Qüvvələrin Akademiyasına müəllim vəzifəsinə təyin olunub.

Fəxrəddin Cəbrayılovun tabeliyində olan şəxslərə nəzarəti zəif olub, ona görə tutduğu vəzifədən azad edilib və Silahlı Qüvvələrin Akademiyasına müəllim vəzifəsinə təyin olunub. Onun tabeliyindəki şəxslər rüşvətxorluq və korrupsiyaya görə istintaq altındadır. Həmin faktları Milli Təhlükəsizlik Nazirliyi Hərbi Əks Kəşfiyyat İdarəsi ilə birgə aşkarlayıb. Yəni təyinatların böyük əksəriyyəti təqdim olunduğu kimi, "vurulma" deyil".



**Ü.Cəfərov yaxın zamanlarda ordu ilə bağlı daha səs-küylü xəbərlərin olacağını da söylədi:** "Yaxınlarda çox ciddi olaylar haqda da məlumatlar ictimailəşəcək. Bəzi şəxslərlə bağlı işlər aparılır. Əgər məlumatlar öz təsdiqini tapacaqsa, bundan da səs-küylü faktlar ortaya çıxacaq".

**Ü.Cəfərov Nəcməddin Sadıqovun fövqəladə hallar nazirinə müavin aparılması haqda məlumatlara da münasibət bildirib. Deyib ki, bu məlumatlar heç bir əsası olmayan məlumatdır:** "Nəcməddin Sadıqovun nazir müavini vəzifəsindən daha yüksək vəzifəyə təyinatı gözlənilir. Mümkündür ki, onu ölkə daxilində vəzifəyə təyin etməyib xarici ölkələrdən birində məsul vəzifəyə təyin etsinlər. Bu, Ali Baş Komandandan asılı məsələdir".

**Ü.Cəfərov N.Sadıqovun təqaüdə göndəriləcəyini də real saymır:** "Düzdür, Əliağa Hüseynov kimi Nəcməddin Sadıqovu da ordudan tərxis edib sonra vəzifəyə təyin edə bilərlər. Xatırlayırsızsa, Əliağa Hüseynovu əvvəlcə icra başçısı təyin etdilər, sonradan da deputat oldu. Əliağa Hüseynov təqaüdə göndərilən general-leytenant idi, yaşı da onun tərxis olunmasına imkan verirdi. Nəcməddin Sadıqov isə general-polkovnikdir. Onu yaşa görə 60 yaşı tamam olandan sonra tərxis edə bilərlər. Bu, Ali Baş Komandanın müstəsna səlahiyyətidir, amma hazırda belə bir addımın atılacağı real görünmür".

Qeyd edək ki, Müdafiə Nazirliyi rəhbərliyinin cəbhəboyu zonadakı apardığı son yoxlamaların nəticələrinə əsasən əvvəllər edilən xəbərdarlıqdan nəticə çıxarmayan şəxslər barədə müvafiq qərarlar qəbul edilib, nöqsanlara yol verənlərin bir qismi aşağı vəzifəyə keçirilib, digərləri isə kənarlaşdırılıb. Eyni zamanda nailiyyətləri olan şəxslər vəzifədə irəli çəkilib. Bu kimi tədbirlər Silahlı Qüvvələrimizdə mütəmadi olaraq həyata keçiriləcək.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Jurnalistlər cəbhə xəttinə xüsusi icazə ilə gedəcək

## Mehman Əliyev: "Biz həmişə hərbi akkreditasiyanın tərəfdarı olmuşuq"

**Nazirlər Kabineti "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası"nı təsdiq edib. Rəsmi məlumata görə, bu qayda jurnalistlərin Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan Silahlı Qüvvələri ilə təmas xəttinə bitişik ərazilərdə (cəbhəboyu zona) akkreditasiyası, o cümlədən kütləvi informasiya vasitələri (KİV) nümayəndələrinin cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Müdafiə Nazirliyi ilə razılaşdırılması qaydasını müəyyən edib.**

KİV Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən müəyyən edilmiş akkreditə qaydasına riayət etməklə öz nümayəndələrini akkreditə edə bilər.

Akkreditasiya hər ilin dekabr ayında həyata keçirilir. KİV-in müraciətinə əsasən, akkreditə olunma ilin digər vaxtlarında da keçirilə bilər.

**"Turan" agentliyinin direktoru Mehman Əliyev** bildirdi ki, bu qaydaları təqdir edir: "Biz həmişə hərbi akkreditasiya institutunun tərəfdarı olmuşuq. Hətta 2008-ci ildə akkreditasiya məsələsi ilə bağlı təvsiyələr paketi hazırlayıb Prezident Administrasiyasına təqdim etmişdik. Təəssüflər olsun ki, o vaxt bizim təkliflər orda da qaldı. Ümumiyyətlə, bütün sahələrdə peşəkar jurnalistlərin formalaşması vacibdir, ona görə akkreditasiyanın olması vacibdir. İkincisi, ordu xüsusilə həssas sahədir, cəmiyyət də orduda gedən proseslərlə daim maraqlanır. Eyni zamanda dövlət sirrinin qorunması vacibdir. Ona görə də peşəkar jurnalistikanın olması gərəkdir. Bütövlükdə isə bu qaydalar media və ordunun əməkdaşlığını təmin edir. Düzdür, orda hər hansı problemlər ola bilər. O da ola bilər ki, tam məhdudlaşdırıcı hallar tətbiq olunsun. Amma qaydaların necə tətbiq olunmasından çox şey asılıdır".



Mehman Əliyev

**M.Əliyev deyir ki, bütün nazirliklərlə peşəkar səviyyədə hazırlanmış, işləyən jurnalistlərin akkreditə olunması lazımdır:** "Bu, xarici dövlətlərdə var. Biz bu məsələni illərlə qaldırmışıq. Bəzi qurumlarda belə təcrübə olsa da, formal xarakter daşıyır. Əsas məsələ jurnalistin işıqlandırdığı sahə haqqında biliklərinin olmasıdır. Elə bil ki, jurnalist ikinci peşə sahibi olur, ikinci təhsil qazanır. Yəni yazdığı materialda hansı terminləri işlətməlidir, nələri deyə bilər, nələri yox. Ordu elə bir sahədir ki, burada dövlət sirri, hərbi sirr, hərbi qulluq haqqında qanunlardan məlumatlı olmaq gərəkdir".



**Hərbi ekspert, "Azeri Defence" hərbi jurnalının baş redaktoru Rəşad Süleymanov "Yeni Müsavat"a bildirdi ki, əslində bu qaydaların tətbiqi çoxdan olmalıydı:** "Hələ 90-cı illərdə cəbhəyə ezam olunan həm yerli, həm də xarici jurnalistlərin bir çoxunun məsuliyyətsizliyi ordu üçün ciddi problemlər doğurdu. Son illərdə cəbhədə baş verən proseslər, ələlxüsus da ötən ilin iyul-avqust ayında yaşanan olaylar göstərdi ki, hökumət cəbhə informasiyalarına və bu ərazidə çalışan jurnalistlərə nəzarət etməlidir. Məsuliyyətsiz, ağızdan, sosial şəbəkələrdən əldə olunan, təsdiq olunmamış informasiyaların tirajlanması həm silahlı qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji durumuna mənfi təsir göstərir, həm də ictimaiyyətdə çaşqınlıq, panika yaradır. Məsələn, hansısa saytda cəbhədə 4 əsgərimizin şəhid olması xəbəri yayılmışdı və ad, soyad verilmişdi. Təsəvvür edin, qeyd olunan ərazidə neçə min əsgər xidmət edir. O ad-soyad uyğun gələn neçə ailə həmin an hansı hissləri yaşayır. Bu cür halların aradan qaldırılması üçün ciddi tədbirlərin həyata keçirilməsinə zərurət var". **R.Süleymanov deyir ki, bu, Müdafiə Nazirliyi və redaksiyaların qarşılıqlı fəaliyyəti ilə mümkündür:** "Digər tərəfdən, səfərlər dedikdə çoxlarımız hərbi hissələrə QHT-lərin komandası altında jurnalist turları ilə hər şeyi bitmiş sayır. Bu, yalnız ön xətt barədə təsəvvür yaradır. Jurnalist yenə hərb haqda dərin informasiyaya malik olmur. Gedib səngərdə özçəkim edib geri dönürlər. Hərbi jurnalistika bu gün dünyada müharibə jurnalistikası, hərbi-texniki jurnalistika, hərbi siyasi jurnalistika kimi sahələrdən ibarətdir. Hamının savaş jurnalisti olması mütləq deyil. Sual olunur: müstəqillik dövründə görək Müdafiə Nazirliyi və digər qurumlar hərbi hissələrə jurnalist turları istisna olunmaqla, jurnalistlər üçün hansı hazırlıq kursları təşkil edib? Bu gün hərbi əməliyyatlar başlasa, TV-lərimizdə çalışan, birinci Qarabağ müharibəsini lentə alan 3-4 jurnalisti çıxmaq şərti ilə kim döyüş meydanından reportaj hazırlamağa hazırdır?"

**Azərbaycanda hərbi jurnalistlərin çatışmazlığı da faktdır, bu isə müharibə şəraitində olan ölkə üçün normal hal deyil. Azərbaycanın ilk hərbi jurnalistlərindən olan polkovnik-leytenant Üzeyir Cəfərov başda olmaqla, bir sıra adlar çəkmək mümkündür. Lakin bu siyahı çox məhdud adlardan ibarətdir. R.Süleymanov da vəziyyəti qənaətbəxş saymır:** "Bu gün Azərbaycan TV-lərində Vahid Mustafayev, Mir Şahin, Rahib Qərib, Ədil Arifoğlu kimi müharibə jurnalistləri, Seyidağa Mövsümov, Etibar Şirinov kimi kameramanlar var, onların təcrübəsindən yararlanmaq olar". **Azərbaycanda hərbi jurnalistikanın inkişafına gəlincə, ekspert bildirdi ki, bu sahənin inkişaf etməməsində həm də redaksiyaların və həmkarlarımızın özlərinin günahı var:** "Adi hərbi xidmət keçməmiş redaktorlar var. Hərbi mövzuya "bu nədir" deyənlər, "baş-qulağım sakit başqa səktordan yazım" deyənlər var. Yeni qaydaların tətbiqi bu sahədə də müəyyən inkişafa təkan vermiş olacaq. Ancaq yenə deyirəm, bu sahədə praktik kurslar təşkil olunmalıdır".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 183 (6211) 21 avqust 2015

# Xədicə İsmayılın işində şok ifadələr, ilginc detallar

## Tural Mustafayevin "təzyiq və şantaj altında" istintaqa verdiyi ifadəsində nələr var?; Məşhur jurnalistin ittiham aktı "Yeni Müsavat"da…

**AzadlıqRadiosunun əməkdaşı, hazırda həbsdə olan jurnalist Xədicə İsmayılın məhkəməsi davam edir. Bugünlərdə məhkəmənin yekunlaşacağı, hökm çıxarılacağı gözlənilir. Amma prosesi izləyən jurnalistlər və geniş ictimaiyyət saxtalaşdırılmış, şantajla alındığı iddia olunan istintaq ifadələrinin işin gedişinə ciddi təsir göstərdiyinin fərqindədir. Şikayət ərizəsi ilə X.İsmayılın həbsinə səbəb olan jurnalist Tural Mustafayev də bugünlərdə "Yeni Müsavat"a verdiyi geniş müsahibəsində bildirmişdi ki, X.İsmayıl əleyhinə istintaqa ifadə verənlərin əksəriyyəti şantajla üzləşdikləri üçün belə addım atıblar.**

Belə ki, onların bəziləri ilə bağlı istintaqın əlində şantaj xarakterli özəl videogörüntülər olduğunu deyən T.Mustafayev məhkəmədəki ifadəsində də gözləniləni etdi və istintaqa verdiyi ifadəsini inkar etdi.

"Yeni Müsavat" isə X.İsmayılın cinayət işi üzrə istintaq sənədlərini əldə edib və oradakı şahid, zərərçəkən və təqsirləndirilən şəxslərin ifadələri ilə tanış olub. Bu sayımızdan etibarən sizi həmin ifadələrlə tanış edərək, tanınmış jurnalistin işində, "pərdə arxasında" baş verənləri nəzərinizə çatdıracağıq. Bu iş üzrə kim hansı ifadəni verib, nələri deməyə məcbur olub və son nəticədə... işin gedişinə necə təsir göstərib?

### Tural Mustafayevin istintaqa etirafı: "AzadlıqRadiosundan könüllü olaraq çıxmışam"

Yayımlayacağımız ilk ifadə zərər çəkmiş şəxs qismində dindirilmiş Mustafayev Tural Bulut oğluna aiddir. T.Mustafayev ifadəsində göstərib ki, Təfəkkür Universitetinin filologiya fakültəsinin jurnalistika bölməsini bitirib, 2004-cü ildə Rəsulova Şəfa Şahin qızı ilə ailə qurub, birgə nikahdan 2 uşaqları var. 2011-ci ildə ANS televiziyasında vakansiya elan olunduğunu eşidib, sənədlərini təqdim edib müsabiqədən keçərək, Şirvan bölgəsi üzrə bölgə müxbiri vəzifəsinə təyin olunub. 2012-ci ilin sentyabr ayının 1-də həmin vəzifədən çıxarıldıqdan sonra Şəki şəhərində yerləşən "Kanal S" MMC-də, "Şəki televiziyası" kimi tanınan televiziyada, yenə də Şirvan bölgəsinin müxbiri vəzifəsində işləyib. 2013-cü ilin fevral ayından noyabr ayına qədər AzadlıqRadiosu ilə əməkdaşlıq edib, radionun Şirvan bölgəsi üzrə bölgə müxbiri vəzifəsində çalışıb, işi ilə əlaqədar tez-tez radionun Bakı ofisinə gəlib gedib və gəlib-getdiyi zaman radionun əməkdaşı Xədicə İsmayılla tanış olub. T.Mustafayev ifadəsində deyib ki, X.İsmayıla ən yaxın tanışlığı 2013-cü ilin oktyabr ayının 5-də baş verib. Həmin gün Sabirabad rayonundan çəkilişdən qayıdıb Xədicə İsmayılla görüşüb söhbət etdikdən sonra sonuncu ilə birlikdə yemək yeyərək hər ikisi spirtli içki qəbul ediblər. Sonrakı müddətlərdə facebookda Xədicə İsmayılla yazışıb və bir neçə dəfə yemək yeyiblər, aralarında münasibət olub. *("Yeni Müsavat" zərərçəkənin ifadəsində yer alan özəl və intim xarakterli detalları işıqlandırmağı qeyri-etik, özəl həyata müdaxilə hesab etdiyi üçün onlar yazıda yer almayıb. Bu prinsip növbəti şahid ifadələri üçün də keçərli olacaq -S.T)* T.Mustafayev ifadəsində onu da deyib ki, X.İsmayılla birlikdə olduğu vaxt facebookda qrup yoldaşı qızla mesajlaşdığı zaman Xədicənin bundan məlumatı olub və buna qısqanclıqla yanaşaraq aralarında mübahisə yaranıb. Xanım qrup yoldaşı ilə yazışmasının Xədicə İsmayıla pis təsir etdiyini hiss edib, yaranmış mübahisəyə görə aralarındakı münasibətlər korlanıb və Xədicənin evini tərk edərək Göyçaya qayıdıb.

İfadənin ən ilginc məqamı: T.Mustafayev bildirib ki, X.İsmayılın AzadlıqRadiosunda yüksək nüfuza malik olduğunu bildiyindən, onunla münasibətləri pisləşdiyi üçün və onsuz da Xədicənin onu işdən çıxartdıracağına əmin olduğundan kiminsə onu işdən çıxarmasını istəmədiyindən qabaqlayıcı tədbir olaraq özü öz ərizəsi ilə, öz xahişi ilə işdən çıxmasını xahiş edib.

### Həyat yoldaşı və uşaqlarını Bakıya gətirib, sonra.... başqa bir qadına evlilik təklifi edib

"Zərərçəkən" daha sonra bildirib ki, 2013-cü ilin noyabr ayında Bakı şəhərinə qayıdaraq yeni iş yeri axtarmaq qərarına gəlib, lakin iş tapa bilmədiyindən və maliyyə çətinlikləri ilə üzləşdiyindən məcburiyyət qarşısında qalıb yenidən X.İsmayılla münasibətləri yaxşılaşdırmağa can ataraq onunla əlaqə yaradıb. Həmin günlərdə "Meydan TV"də vakansiya yerinin elan olunduğunu öyrənib oraya CV və çəkdiyi videolardan göndərib, bu barədə Xədicə İsmayıla da məlumat verib. Dekabr ayının 31-də ikinci dəfə televiziyanın rəhbəri Emin Milli ilə əlaqə saxlayanda sonuncu ona artıq "Meydan" televiziyasının əməkdaşı olduğunu, hər ay 800 ABŞ dolları əmək haqqı olmaq şərtilə, yanvar ayının 1-dən mart ayının 31-nə qədər müqavilə bağlanacağını bildirib. T.Mustafayev həmin TV-də işlədiyi müddətdə ailəsində olan soyuqluğu hiss etdiyindən həyat yoldaşı ilə uşaqlarını da Bakı şəhərinə gətirərək kirayə ev tutub. 2014-cü ilin mart ayının 8-də Xədicə İsmayılın öz dostları ilə "Qadınlar günü" bayramını qeyd etdiyi Bakı şəhəri, Yasamal rayonunda yerləşən "Status" kafesinə gedib, orada Rövşanə Rəhimova ilə tanış olub.

T.Mustafayev ifadəsinin bu yerində qeyd edib ki, R.Rəhimova ilə tanışlıqdan sonra X.İsmayılın cəhdi nəticəsində işsiz qalıb, maddi imkansızlığı, X.İsmayılın digər şəxslər arasında onun şərəf və ləyaqətinə toxunması, harada gəldi arxasınca danışması kimi hallarla qarşılaşıb. Xədicə ilə 9 mart 2014-cü ildən münasibətləri kəsilib, 11 mart 2014-cü ildə Rövşanə ilə "28 May" metrosunun yaxınlığında kafedə görüşüb söhbət edərək detalları ilə ona hər şeyi izah edərək ona evlənməyi təklif edib, həmin vaxtdan sonra aldığı əmək haqqının gecikdiyini hiss edib, əmək haqqının yalnız bir hissəsi verilib. "Zərərçəkən"in bildirdiyinə görə, "Meydan TV"nin rəhbəri Emin Millidən pul istədikcə ona qarşı olan münasibətin soyumağa başladığını hiss edib. Çünki 9 martda Emin Milli ilə Xədicə İsmayılın facebookda ingilis dilində yazışmalarını görüb, yazının ingilis dilində olması onu daha çox şübhələndirib, onun başa düşməyəcəyini başa düşüb onlar ingilis dilində danışıblar. Bundan sonra E.Millinin onunla münasibətləri soyuyub. O, əmək haqqını istəyəndə vermək istəməyib, uzun müddətdən sonra çox çətinliklə E.Millini Azərbaycan Respublikası məhkəməsi ilə qorxudandan sonra o, iki gün müddətində pulu verəcəyini bildirib, pulu ləngitməklə ona maddi sıxıntı yaşatdıqlarını anlayıb. T.Mustafayev sonuncu iş yerindən, yəni "Meydan TV"dən 01 aprel 2014-cü il tarixdə azad olunub, onunla olan müqavilə qəsdən uzadılmayıb. Onun bildirdiyinə görə, halbuki oradan işdən çıxandan sonra digər iki işçi işə götürülüb, onun müqaviləsi isə uzadılmayıb.

T.Mustafayev iddia edib ki, E.Milli ilə X.İsmayılın yaxın münasibətləri, yaxın dostluqları olduğu üçün Xədicə bu barədə Emin Millidən xahiş edib. Bundan başqa, həmin ərəfələr Xədicə İsmayılın sifarişi nəticəsində Tiflisdə keçirilən seminarlarda iştirak etməkdən də məhrum olub. Bu barədə onda olan məlumatları və yazışmanı Rövşanəyə göstərib. Gənc ifadəsində göstərib ki, X.İsmayıl Aynur İmranova vasitəsilə R.Rəhimovanı ələ alaraq ondan uzaqlaşdırıb, düşdüyü çıxılmaz vəziyyətin üstündən belə bir sarsıdıcı zərbə də aldığından 30 aprel 2014-cü il tarixdə intihar etmək qərarına gəlib. T.Mustafayev intiharını aşağıdakı faktorlarla əsaslandırıb: bu günə qədər olan təsirlər, X.İsmayılın sayəsində həm iş tapa bilməməsi, təlimlərdən kənarda qalması, həm də X.İsmayılın səyi nəticəsində Rövşanə ilə aralarında söz-söhbət yaranması....

### Komediyanı xatırladan intihar hekayələri - qırılan ilgək və ayranla qarışdırılmış siçan dərmanı...

T.Mustafayev 01 may 2014-cü ildə "28 May" metrosunun yaxınlığında yaşadığı evdə borulardan camaşırları bağlayıb ilgək düzəldib ilgəyin qarşısında selfi şəkil çəkib "dünyanın ən gözəl selfisi" başlığı ilə facebooka profil şəkli qoyub və özünü asıb. Ancaq istəyi alınmayıb, çünki camaşır ilgəkdən açılıb, yerə düşüb. Facebookda şəkli görən və evi tanıyan adamlar, o cümlədən Cavid Abdullayev *("Meydan TV"nin əməkdaşı, eyni zamanda T.Mustafayevlə bir müddət eyni evdə yaşayıblar)* gəlib özünü yetirib, Rövşanə də evləri yaxın olduğuna görə evə gəlib. Ona görə də 2-ci dəfə bunu təkrar edə bilməyib. İfadədə göstərilib ki, T.Mustafayev özünü öldürərkən şəkil çəkib facebooka qoymağının səbəbi kimi Xədicə İsmayılın təzyiqlərinə dözə bilməməsini göstərib. Deyib ki, bu, ona bir çağırış olub və bunu edərkən sağ qalacağını bilməyib. Evə Rövşanənin anası gələrək ona təsəlli verib. T.Mustafayev bundan sonra yenidən AzadlıqRadiosuna bölgə müxbiri kimi qayıtmaq istəsə də, müxtəlif bəhanələrlə onun işinin düzəlməsinə razılıq verilməyib. Gəncin iddiasına görə, eyni zamanda başqa yerlərə müraciət etsə də, onu heç bir yerə işə qəbul etməyiblər, münasibətinin X.İsmayılla pis olması digər şəxslərin də onu işə götürməsinə təsir edib. X.İsmayılın ona qarşı göstərdiyi təsirlər, onun ucbatından iş tapa bilməməsi, maddi imkanının ağır olması ona çox pis təsir edib.

T.Mustafayev ifadəsində deyib ki, 16 oktyabr 2014-cü il tarixdə Xədicə İsmayıla zəng edərək, baş verənləri müzakirə edib. Onunla görüşüb bunlara son qoymaq, artıq vəziyyətinin getdikcə kritikləşdiyini, ata-anasının da ondan üz döndərməsini, iş yerinin olmamasını, maddi problemlərin yaşanmasını, nişanlısı ilə münasibətlərin pis səmtə yönəlməsi və bunların getdikcə şiddətlənməsini müzakirə etmək, ona qarşı təsirlərindən əl çəkməyi ondan istəsə də, X.İsmayıl bundan imtina edib. Gəncin ifadəsinə görə, vəziyyət artıq o səviyyəyə gəlib çatıb ki, 20 oktyabr 2014-cü ildə siçan dərmanı içərək özünü öldürmək qərarına gəlib, həmin gün "28 May" metro stansiyasının yaxınlığındakı bazardan aldığı siçan zəhəri ilə özünü zəhərləyib öldürmək istəyib. Aldığı siçan dərmanını ayranla qarışdırıb "Park bulvar"ın ərazisində içib və içəndən sonra zəhərlənmə baş verib, orada huşsuz vəziyyətdə onu bulvarın işçiləri tapıb, yanında heç kim olmayıb. Oradan onu toksikologiya şöbəsinə aparıblar. Huşu özünə gələndə xəstəxanada olduğunu görüb. Dediyinə görə, dərmanı "28 May" metro stansiyası üstündəki bazardan, evindəki siçanları zəhərləmək adı ilə alıb, özünü öldürməyi ilə bağlı heç kimə heç nə deməyib. Öldükdən sonra onsuz da araşdırmalar nəticəsində intihar etməyinə, yəni bu vəziyyətə gəlib çıxmasına səbəbin Xədicə İsmayıl olduğunun məlum olacağını düşünüb, özünü öldürmək barədə ümumiyyətlə heç kimlə, o cümlədən nişanlısı ilə də söhbət etməyib. Bildirib ki, qaldığı xalasıgilin evində belə bir hadisə olmasını istəməməsi səbəbindən həmin dərmanı evdə deyil, haradasa şəhərdə qəbul etməyi düşünüb.

**"Siçan dərmanı" hekayəsinin detallarını isə T.Mustafayev belə izah edib:** 20 oktyabr 2014- cü il tarixdə saat 12 radələrində Nizami küçəsində yerləşən marketdən ayran alıb, cibindəki siçan dərmanını həmin ayrana qatıb içə-içə Milli Park istiqamətində gedib. Bulvara gəlib çatanda özünü pis hiss etdiyi üçün oradakı oturacaqda əyləşib. Sonra nə baş verdiyini xatırlamır, özünə gələndə Klinik Mərkəzdə, toksikologiya şöbəsində həkimlərin mədəsini yuduqlarını görüb. Palataya köçürülüb, sistem qoşduqda və özünə gələndə artıq dostu Samirə Ağayeva yanında olub. T.Mustafayev S.Ağayevanı təxminən 2014-cü ilin may ayından bir jurnalist kimi məhkəmələrə gedəndə görüb tanıdığını, həmin vaxtdan da onunla münasibət saxladığını bildirib.

Daha sonra Tural Mustafayev ifadəsini davam etdirərək göstərib ki, AzadlıqRadiosunun Bakı bürosunda bölgə müxbiri kimi işə qəbul olunanda, yəni 2013-cü ilin fevral ayında Xədicə İsmayılova büro rəhbəri işləməsə də onun radioda yüksək nüfuza sahib olmasını bilib. X.İsmayıl istər AzadlıqRadiosuna, istərsə də digər radio və saytlara təsir imkanlarından istifadə edərək onu özündən həmişə xidməti cəhətdən asılı vəziyyətə salıb və bu asılılığından da istifadə edərək dəfələrlə onun barəsində yalan məlumatlar yaymaqla şərəf və ləyaqətini alçaldıb. T.Mustafayevin istintaqdakı iddiasına görə, X.İsmayıl bütün mümkün variantlarda ona təsirlərini hələ 2014-.cü ilin mart ayından daha da gücləndirib, onun R.Rəhimova ilə münasibətlərinin yaxınlaşmasından sonra isə özündən tam asılı vəziyyətə salmaq üçün bütün imkanlarından istifadə edib, Xədicənin təsiri ilə onu 31 mart 2014-cü il tarixdə işlədiyi "Meydan TV"dən qərəzli olaraq çıxardıblar, eləcə də X.İsmayıl onu Rövşanənin, ailəsinin gözündə alçaltmaq üçün şərəf və ləyaqətini dəfələrlə alçaldıb. Bu səbəbdən də artıq həyatdan bezib o həddə çatıb ki, özünü öldürmək qərarına gəlib.

***Redaksiyadan:*** *"Yeni Müsavat" növbəti saylarında istintaqa ifadə verən digər şəxslərin ifadələrini də yayımlayacaq. Məqsədimiz məhkəmə hökmünə təsir edən, saxta, şantajla alındığı iddia olunan ifadələrin nələrdən ibarət olduğunu oxucuların nəzərinə çatdırmaqdan ibarətdir.*

❑ **Sevinc TELMANQIZI**

TƏSDİQ EDİRƏM

Azərbaycan Respublikası
Baş prokurorunun birinci müavini
II dərəcəli dövlət ədliyyə müşaviri
Rüstəm Usubov

09 iyul 2015-ci il.



İsmayılova Xədicə Rövşən qızının Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2., 125.-ci maddələri ilə təqsirləndirilməsinə dair 152006031 №-li cinayət işi üzrə

İTTİHAM AKTI

Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin rəisi, istintaq qrupunun rəhbəri, III dərəcəli dövlət ədliyyə müşaviri Eldar Əhmədov, İsmayılova Xədicə Rövşən qızının Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2. və 125.-ci maddələri ilə təqsirləndirilməsinə dair 152006031 №-li cinayət işi üzrə kifayət qədər sübutların toplanmasını və ibtidai istintaqın tamamlanmasını nəzərə alaraq, Azərbaycan Respublikası CPM-nin 289-cu maddəsini rəhbər tutub, 09 iyul 2015-ci il tarixdə saat 09:30-da Bakı şəhərində ittiham aktını tərtib etməyə başladım.

Həmin cinayət işi Azərbaycan Respublikasının və xarici qeyri-hökumət təşkilatlarının, filial və nümayəndəliklərinin fəaliyyətlərində aşkar edilmiş qanun pozuntuları faktları üzrə ibtidai istintaqı aparılan 142006023 №-li cinayət işindən 20 iyun 2015-ci il tarixdə İsmayılova Xədicə Rövşən qızının barəsində Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2., 125.-ci maddələri ilə ayrılaraq, icraatıma qəbul edilməklə rəhbərlik etdiyim istintaq qrupu tərəfindən ibtidai istintaqı davam etdirilmişdir.

c.1, i.v.1-9.

«Azad Avropa/Azadlıq Radiosu»nun Azərbaycan Respublikasındakı nümayəndəliyinin reportyoru vəzifəsində işləmiş Mustafayev Tural Bulut oğlunun 2[illegible] oktyabr 2014-cü il tarixdə Bakı şəhəri Dənizkənarı Milli Parkda intihara cəhd etməsi faktı üzrə Xədicə İsmayılovanın Azərbaycan Respublikası CM-nin 125-ci maddəsi ilə təqsirlənlirilməsinə dair Bakı şəhər prokurorluğunun İstintaq idarəsi tərəfindən ibtidai istintaqı aparılan 140026071 №-li cinayət işi də 19 fevral 2015-ci il tarixdə 142006023 №-li cinayət işinə birləşdirilməklə ibtidai istintaq vahid icraatda davam etdirilmişdir.

c.1 , i.v. 204-206



## Gülər Əhmədova özünü öldürmək istəyib

**"İnsanları intihar həddinə çatdıranlar günahkardır". Bunu moderator.az-a danışan keçmiş deputat Gülər Əhmədova deyib. O, gənclər arasında intihar hallarının artmasını təəssüflə izlədiyini deyib.**

Gülər Əhmədova özü də ağır zamanlarda intihar haqda düşündüyünü etiraf edib: "Hətta Nailə Mirməmmədli ilə birgə "İntihar" adlı bir mahnı da yazmışdıq. Çox təsirli alındı. Düzdü, heç kimə oxumağa vermədik".

Gülər Əhmədova daha sonra intihar edən gənclərin ailələrinə və onları bu dərəcəyə çatdıran insanlara fikirlərini çatdırıb: "Birincisi, üç uşaq anası olan gənc qadını intihar həddinə çatdıran borc verənlərə, kredit borcu üzündən özünü öldürən daha bir gəncin intiharına səbəb olanlara, habelə ailə münaqişəsi ucbatından özünü asan, yandıran gənc qadınların ətrafında olanlara yalnız bir şey demək istəyirəm: istənilən halda intihar edənlər Allah qarşısında günahkardırlar. Amma bunu da bilin ki, bu insanları bu həddə çatdıranlar da günahkardırlar. Mən məsələnin hüquqi tərəfi barədə danışmıram. Dediklərim yalnız məsələnin insani və bəşəri tərəfləridir".

Sabiq deputat yaxın vaxtlarda Youtube-da bir videoblogger-psixoloq kimi fəaliyyətə başlayacağını da bildirib.

## Ukraynada daha bir azərbaycanlı iş adamı itkin düşdü

**Ukraynanın Xerson vilayətində azərbaycanlı iş adamı, diaspor fəalı itkin düşüb. Xerson vilayəti Azərbaycanlılar Konqresinin sədri Əlimardan Kərimov APA-ya bildirib ki, itkin düşən şəxs bir müddət öncə ölkənin şərqində gedən müharibə səbəbindən Luqanskdan Xersona köçmüş, biznesini və diaspor fəaliyyətini burada bərpa etmək istəyən 1986-cı il təvəllüdlü, əslən Masallı rayonundan olan Ələkbərov Təbriz Cəsur oğludur.**

Onunla sonuncu dəfə iyulun 13-də Xerson vilayətinin Skadovsk rayonunda əlaqə qurulub və T. Ələkbərov telefonda həyat yoldaşına izlənildiyini, hansısa problemləri olduğunu deyib. Bundan sonra o, yoxa çıxıb.

Yaxınlarının müraciəti əsasında Xerson polis idarəsi onun axtarışına başlayıb. Qeyd edək ki, son bir ayda Xersonda 2 azərbaycanlı iş adamı qətlə yetirilib.



# Cahangir Hacıyevin "Yeddi təpə"si də batır

## Menecerin sözlərinə görə, "7 Hills" layihəsi çərçivəsində yığılmış ödənişlərin bir qismi bankdakı hesabda dondurulub

**"7 Hills" ("7 təpə") layihəsinin marketinq meneceri Nərmin Quliyeva bu yaşayış kompleksinin aqibətinə dair bəzi məqamları aydınlaşdırıb. Virtualaz.org saytının redaksiyası ilə əlaqə saxlayan N.Quliyeva deyib ki, Mədət Rüstəmovun hazırda "7 Hills" layihəsinə heç bir aidiyyəti yoxdur.**



"Layihə başlayanda o, özünün menecment komandası ilə birlikdə layihənin idarəedicisi kimi gəlmişdi. Lakin Beynəlxalq Bankla bağlı problemlər yaranandan və tikinti ləngiyəndən sonra Mədət Rüstəmov layihədən uzaqlaşdı. Hazırda onun "7 Hills" layihəsinə heç bir bağlılığı yoxdur"- deyə menecer bildirdi.

N.Quliyeva onu da bildirdi ki, M.Rüstəmov "Yeni Həyat" şirkətlər qrupunun Direktorlar Şurasının sədri yox, üzvü olub. Və "7 Hills" şirkətinə hazırda Nicat Kərimov başçılıq edir. Şirkətin təsisçiləri haqda isə məlumat açıqlanmır.

"İstəsəniz bu haqda Vergilər Nazirliyinə sorğu ilə müraciət edə bilərsiniz"- menecer deyib.

**Layihənin taleyinə gəldikdə isə N.Quliyeva bildirdi ki, "7 Hills" layihəsi Azərbaycan Beynəlxalq Bankı ilə birbaşa əməkdaşlıq çərçivəsində həyata keçirilən layihədir:** ""7 Hills" mənzil-tikinti kooperativi (MTK) ilə "Azərbaycan Beynəlxalq Bankı" ASC arasında birgə fəaliyyət haqqında 22 dekabr, 2014-cü ildə bağlanmış müqaviləyə əsasən layihənin satışı üçün müştərilərin ipoteka krediti vasitəsilə maliyyələşdirilməsi və ümumiyyətlə, layihənin tikintisinin maliyyələşdirilməsi barəsində bankla razılığa gəlinib. Lakin bankda baş verən struktur dəyişiklikləri nəticəsində bu proses dayandırılıb".

**Menecerin sözlərinə görə, "7 Hills" layihəsi çərçivəsində yığılmış ödənişlərin bir qismi bankdakı hesabda dondurulub:** "Bununla əlaqədar olaraq tikintinin həyata keçirilməsində 3 aylıq ləngimə əmələ gəlib. Buna baxmayaraq, sahibkarların hesabına tikintidə bəzi işlər aparılıb və layihənin sənədləşdirilməsi işləri qismən başa çatdırılıb. Hazırda layihənin dayandırılması barədə MTK-nın təsisçiləri tərəfindən hər hansı bir qərar verilməyib. Eyni zamanda layihənin maliyyələşdirilməsi ilə bağlı bankla danışıqlar davam etdirilir. Layihədə ləngimə olsa belə, müştərilər tərəfindən ödənilmiş vəsaitlərdə problemdən söhbət belə gedə bilməz.

MTK-nın təsisçiləri tərəfindən verilmiş qərara əsasən, alınmış mənzilləri geri qaytarmaq istəyən müştərilərin müraciətlərinə baxılaraq ödənişlərin hissə-hissə geri qaytarılması nəzərdə tutulub.

Bunun üçün hazırda müraciətlərə baxılır, analiz edilərək ödəmə qrafiki tərtib olunur. Bu əməliyyat hazırda təsisçilərin vəsaiti hesabına həyata keçirilir. Bankda dondurulmuş vəsaitdən istifadə edilməsi barədə hələ razılığa gəlinməyib".

N.Quliyeva virtualaz.org saytına onu da bildirib ki, "7 Hills" layihəsinin gələcək taleyi, tikinti işlərinin nə vaxt başlayacağı ilə bağlı rəsmi açıqlama sentyabr ayında veriləcək. Onun sözlərinə görə, layihə üzrə tərəfdaş Beynəlxalq Bank olaraq qalır və "Bank Technique" ilə əməkdaşlıq müvəqqəti xarakter daşımaqla ancaq müştərilərdən ödənişləri qəbul etmək üçün idi.

# Hacı İbrahim hamı kimi yaşayırmış

## "Heç bir bahalı yaxtam, təyyarəm yoxdur, hamı kimi sadə həyat tərzi sürürəm"

**"Avesta Koncern"in rəhbəri, tanınmış iş adamı Hacı İbrahim Nehrəmli Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin yeni sədri Elmar Məmmədovla görüşmək istəyir.**

Bu barədə publika.az-a hacı İbrahim Nehrəmli özü bildirib.

Yeni rəhbəri bu vəzifəsinə görə təbrik etdiyini vurğulayan Hacı İbrahim görüş zamanı bankdan götürdüyü kreditlə bağlı söhbət etmək niyyətindədir. İş adamı Azərbaycan Beynəlxalq Bankının yeni rəhbərinin atasını yaxşı tanıdığını da söyləyib: "Mən təzə rəhbərin atası Mamed kişini yaxşı tanıyıram, o çox hörmətli adamdır, mənim də ona böyük hörmətim var. İnanıram ki, o da atası kimi yüksək peşəkarlığa malik olan adamdır. Əminəm ki, o, yeni vəzifəsinin öhdəsindən çox uğurla gələcək. Digər tərəfdən isə onu deyim ki, hər kəs banklardan götürdüyü kreditləri vaxtında qaytarmaqda məsuliyyətli olmalıdır. Banklar isə pulları qaytarması üçün öz müştərilərinə kömək etməlidir, qapıları müştərilərin üzünə bağlamamalıdırlar. Bu cür qarşılıqlı əməkdaşlıqdan həm bank qazanır, həm də müştəri öz biznesini inkişaf etdirə bilir".

**Hacı İbrahim hazırda heç bir bahalı yaxta və ya təyyarəyə malik olmadığını da söyləyib:** "Hazırda mənim heç bir bahalı yaxtam və ya təyyarəm yoxdur, hamı kimi mən də sadə həyat tərzi sürürəm. İnşallah, dövlətə olan borcumu qaytarandan sonra özümə yaxşı təyyarə, avtomobil və yaxta alacam. Əsas dövlətə olan borcları qaytarmaqdır".



**İş adamı əlavə edib ki, hazırda yalnız Azərbaycan Beynəlxalq Bankına borcu qalıb:** "Digər banklardan götürdüyüm kreditləri artıq bağlamışam, inşallah, Beynəlxalq Bankdan götürdüyüm kreditləri də bağlayacam".

# Aynar Məmmədov jurnalisti döydürmək məsələsi barədə nə danışdı?



Samir SARI

**Ölkəmizdə fəaliyyət göstərən saytlardan biri nəqliyyat nazirinin qardaşı oğlu, millət vəkili Elton Məmmədovun oğlu Aynar Məmmədovdan müsahibə götürüb. Reklam olsun deyə o saytın adını da yazıram: "Baku.ws".**

Maraqlı müsahibədir, müsahibə götürən müsahibə verənə yaxşı suallar ünvanlayıb.

Əslində Aynar Məmmədovu oxucularımıza geniş təqdim etməyə ehtiyac yoxdur. Oxucularımızın 99 faizi onu tanıyır. Yerdə qalan bir faiz isə qəzet, sayt oxumağa bu il başlayanlardır. Yəqin ki, onlar Aynar Məmmədovu yaxşı tanımırlar. Çünki bu il qəzetlər ondan az yazır, amma keçən il çox yazırdılar. Adam qalmaqallı olayları ilə ölkənin ictimai-siyasi gündəminə oturmuşdu.

Baku.ws. saytının müxbiri Aynar Məmmədova elə bir suallar verib ki, onun keçənilki məşhurluğu məhz həmin sualların altındakı mətləblərdəydi.

Məsələn, həmkarımız soruşub: "Jurnalist Rasim Əliyevin qətlə yetirilməsinə münasibətiniz necədir?"

Aynar Məmmədov belə cavab verib:

"Bu hadisəni kəskin qınayıram. Bir insanın həyatına son qoymaq nə dərəcədə doğrudur? Bu işdə əli olanlar, günahkarlar cəzasız qalmazlar. Bəzi jurnalistlərə isə xüsusi hörmətim var. Onlardan da özümə qarşı hörmət görürəm".

Müsahibəni oxuyan bəzi dostların versiyasına görə, əslində jurnalist A.Məmmədova bu sualı ona görə verib ki, keçən il onun da adı jurnalist döydürməkdə hallanırdı və bu iş ən yüksək səviyyədə qalmaqala səbəb olmuşdu.

Ona görə də güman olunur ki, Aynar Məmmədovun suala daha səmimi cavabı belə ola bilərdi:

"Bu hadisəni kəskin şəkildə qınayıram. Bir insanın həyatına son qoymaq heç doğru deyil. Başqa yollar var. Əgər kimisə yazdığı sözə, paylaşdığı şəklə görə cəzalandırmaq istəyirsənsə, vacib deyil ki, onu öldürtdürəsən. Adamın üstünə 5 idmançı göndərməmək də olar. Şəxsi təcrübəmdən çıxış edib deyə bilərəm ki, bundan ötrü iki idmançı da bəsdir. Rusların bir atalar sözü var, deyirlər ki, dvoe voyska odnomu. Yəni iki adam bir adam üçün qoşun deməkdir. Hətta o iki idmançının biri kənarda durub söhbətə qarışmaya da bilər. Ona görə ki, yarımçıq da olsa peşəkar idmançı istənilən jurnalistdən güclüdür, çevikdir, üstəlik, əlbəyaxa döyüş fəndləri bilir. Təvazökarlıqdan kənar olsa da, deməliyəm ki, bu işlərdə əsas məsələ idmançının fiziki hazırlığı, əsəbiliyi deyil, əsas məsələ sifarişi verənin nə dərəcədə qanunpərəst, vicdanlı olmasıdır. Adama əvvəlcədən xəbərdarlıq etmək lazımdır, bax ha, elə vur ki, sınığı, çıxığı olmasın, elə yerindən vur ki, ölüb-eləməsin, şikəst olmasın, xəstəxanaya düşməsin və sair. Bu xəbərdarlıqlar mütləq edilməlidir. Çünki bəzi idmançılar hır-zır qanmırlar. Ağılları özlərinə, öz məşq yoldaşlarına gedir, qabaqlarına çıxanı götürüb çaxırlar yerə. İdmançılar buna vərdiş ediblər, dözürlər, amma zəif adamlarda, o cümlədən jurnalistlərdə müqavimət əmsalı aşağı olur, bir də görürsən, əzilirlər, yaxud heç istənilmədiyi halda ölürlər. Yadımdadır, keçən il belə bir əhvalat olmuşdu, bizim idmançı dostlardan biri evinin qapısının ağzında məşhur jurnalistlərdən birini (reklam olmasın deyə ad çəkməyək) cəzalandırmaq istəmişdi, adamı götürüb yerə çırpmış, 3-4 dənə də təpik vurmuşdu. O kadrları tapın baxın, idmançının centlmenliyini görəcəksiniz. Fikir verəcəksiniz ki, idmançı jurnalistin başına təpik vurmaq imkanına sahib ola-ola bunu etmir. Niyə? Çünki ona jurnalistin döyülməsini sifariş verən oğlan tapşırıb ki, çox və bərk döymə, eləcə, bir-iki şillə vur getsin, ağlı başına gəlsin. Ona görə də mən jurnalistlərlə problemi olan dostlara, tanışlara tövsiyə edirəm ki, sifariş verdikləri adamı, türkün sözü, titizliklə seçsinlər və normal, korrekt sifariş versinlər. Bir neçə şillə-təpiklə həll olan işdə aşırı güc istifadə edərək ölkədəki ictimai-siyasi sabitliyə xələl gətirəcək addımlar atmasınlar. Birinci halda, pul-para ilə qurtarmaq olur, ikinci halda isə, nə bilmək olar, bir də gördün, iş xüsusi nəzarətə götürüldü. Ondan sonra çətin ola bilər".

Bax, belə. Səmimi cavab belə olar. Yoxsa nə "jurnalistlərə hörmətim var"-zad...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





# Qarabağ iki prinsipin və ikili standartın girovluğunda

## Konfliktin ərazi bütövlüyümüz çərçivəsində həllini tezləşdirmək üçün etnik təmizləmə və Xocalı soyqırımı məsələsini Haaqa Tribunalının gündəliyinə gətirməyin zamanı çatıb; **Beynəlxalq ekspert:** "Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmə hüququ yoxdur..."

**Dağlıq Qarabağ probleminin dinc yola həlli üçün vasitəçilər artıq bir neçə ildir ki, beynəlxalq hüququn ərazi bütövlüyü prinsipi ilə öz müqəddəratını təyinetmə prinsipini yanaşı qoyurlar. Ancaq gecə-gündüz kimi bir-birini inkar edən bu iki prinsipin praktikada necə reallaşacağının yolunu göstərmirlər. Eyni yanaşma tərəflərə təqdim edilmiş sonuncu təklifdə "Madrid prinsipləri"ndə də əksini tapıb.**

Bu üzdən də danışıqlarda faktiki olaraq pat vəziyyəti yaranıb, çünki Azərbaycan ümid edir ki, münaqişə, nəhayət, onun ərazi bütövlüyü çərçivəsində həllini tapacaq, erməni tərəfi isə sevinir ki, gec-tez Dağlıq Qarabağ erməniləri öz müqəddəratını təyinetmə hüququndan yaralanmaq üçün ya tam müstəqil olacaqlar, ya da Ermənistana birləşəcəklər. Yəni enində-sonunda "miatsum" baş tutacaq.

Onlar bunun məhz belə olacağına həm də Kosovo nümunəsini əsas götürməklə inanırlar. Eyni zamanda Şotlandiya timsalındakı kimi nə vaxtsa rəsmi Bakının buna razı olacağını güman edirlər. Ancaq Dağlıq Qarabağ nə Kosovodur, nə də Şotlandiya.

***

"Dağlıq Qarabağda indi yaşayan əhali öz müqəddəratını təyin edə biləcək xalq statusuna malik deyil. Beynəlxalq aləmdə də "Dağlıq Qarabağ xalqı" adlı məfhum yoxdur". Bunu "Malvina/Folklend adaları ətrafında mübahisə və beynəlxalq hüquq" mövzusunda Bakıda keçirilən tədbir zamanı argentinalı hüquqşünas, Beynəlxalq Hüquq İnstitutunun (Institut de Droit International) üzvü, eləcə də Cenevrədə yerləşən Beynəlxalq və İnkişaf üzrə Tədqiqatlar İnstitutunun (Graduate Institute of International and Development Studies, Geneva) professoru Marselo Kohen bildirib ("Trend").

**Hüquqşünas ardınca deyib:** "Əlbəttə ki, burada müxtəlif aspektlər, etnik təmizləmə və s. məsələlər də nəzərə alınmalıdır. Lakin mövcud vəziyyəti nəzərə alsaq, görünən odur ki, etnik əhali müəyyən ərazidə yaşayır və onlar ölkənin digər tərəfindəki etnik tərkibdən fərqlidir. Tutaq ki, lap onlar orada etnik cəhətdən çoxluq təşkil edirlər, lakin bu, onlara öz müqəddəratını təyin etmək hüququ vermir. Heç bir əhali deyə bilməz ki, bu bizim ərazidir və biz öz müqəddəratımızı təyin edirik. Dağlıq Qarabağda hazırda yaşayan ermənilər etnik azlıqdır, lakin onların öz müqəddəratını təyin etmək hüququ yoxdur. Onlar öz dilini, mədəniyyətini qorumağı tələb edə bilərlər, lakin suverenliyi tələb edə bilməzlər".

O, məruzəsində əsasən suverenliklə bağlı mübahisə doğuran iddialar və bu baxımdan dekolonizasiya kontekstində tətbiq edilən müvafiq qaydalara, o cümlədən ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi prinsiplərinə, beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsində dövlətlərin üzərinə düşən öhdəliklər məsələsinə toxunub. Kohen qeyd edib ki, hazırda bir çox hallarda dünyada gücün beynəlxalq hüquqdan daha üstün olduğunu göstərir: "Beynəlxalq hüquq isə selektiv olaraq yox, bütün hallarda tətbiq olunmalıdır. Əks halda, bu, manipulyasiyadır", - deyə o vurğulayıb.




***

Dağlıq Qarabağ məsələsində də beynəlxalq hüquq həqiqətən də sanki arxa plana sürüşdürülüb. Hər halda, Gürcüstanın ərazi bütövlüyünə göstərilən saygı-diqqəti biz Azərbaycana münasibətdə görmürük. Situasiyanı dəyişmək isə ilk növbədə Azərbaycanın boynuna düşür.

Bundan ötrü iqtisadi-hərbi qüdrətimizi durmadan artırmaqla yanaşı, bu gün qlobal siyasətdə əsas söz sahibi olan demokratik dünyada dost-müttəfiqlərimizin sayını çoxaltmalı, Azərbaycanın demokratik ölkə imicinə nail olmalı, məkrli dairələrin daxili duruma görə ölkəmizi tənqid hədəf etməsinə bəhanə verməməli, eyni zamanda xaricdə, xüsusilə də erməni lobbisinin güclü olduğu dövlətlərdə *(Fransa, ABŞ, Rusiya)* türk diasporu ilə birgə diaspor fəaliyyətini və informasiya-təliğat işlərini keyfiyyətcə yeni bir mərhələyə qaldırmalıyıq.

Yeri gəlmişkən, argentinalı professor bir sıra dövlətlərə ərazi və dəniz hüququ üzrə mübahisələrlə əlaqədar Beynəlxalq Ədalət Məhkəməsi və bir çox tribunallardan əvvəl vəkil kimi xidmət göstərib. O, həmçinin beynəlxalq arbitrdir və Argentina tərəfindən onun namizədliyi BMT-nin Beynəlxalq Hüquq Komissiyasına təklif edilib. Kəsəsi, beynəlxalq hüquq sahəsində kifayət qədər təcrübəyə malik şəxsdir. O zaman maliyyə imkanlarımız yetərli ola-ola niyə də ondan və onun kimi digər hüquqşünaslardan Qarabağ məsələsini dünyaya daha yaxşı tanıdılması, danışıqlar masası arxasında daha güclü mövqeyə sahiblənməmiz üçün istifadə eləməyək?

Məsələn, Xocalı soyqırımının Beynəlxalq Məhkəmədə *(Haaqa Tribunalında)* Serebrenitsa soyqırımı kimi ədalətli hüquqi qiymətini alması, Serj Sərksiyan və Robert Köçəryan başda olmaqla, Xocalı hərbi canilərinin istintaqa cəlb edilməsinə nail olunması, habelə Dağlıq Qarabağda və ətraf rayonlarda ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə aparması faktının hüquqi sənəd halına salınması sözsüz ki, ermənilərin öz müqəddəratını təyin etmə iddialarına öldürücü zərbə vurar, ixtilafın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyinə dünya birliyini əmin etmiş olardı, sülh danışıqlarında mövqeyimizi birə-üç gücləndirərdi.

Bütün bu işləri görmək və sənəd halına salmaq üçün isə konfliktoloq Elxan Mehdiyevə görə, cəmi bir neçə milyon dollar vəsait yetər. Üstəlik, bundan ötrü audio-video sübutlar da daxil, faktlar kifayət qədərdir, canlı şahidlərin, şikəst edilən, işgəncələrə məruz qalan insanların çoxu sağdır. Nəhayət, bildiyimiz qədər Xocalı soyqırımı ilə bağlı Azərbaycanda illər öncə cinayət işi açılıb, zərərçəkənlərin çoxsaylı ifadələri alınıb. Ayrı sözlə, sıfırdan başlamağa lüzum da yox.

**Ən azından bu yolla biz işğalçı Ermənistanı, Dağlıq Qarabağdakı separatçı-kriminal rejimi uzun müddət neqativ planda dünyanın diqqətində saxlaya bilərik. Az işdimi?**



# Sərkisyan rejiminə son xəbərdarlıq: "İrəvanı qan gölünə çevirəcəyik..."

**İrəvanda "Ayağa qalx, Ermənistan" təşəbbüs qrupu müxalifətdə olan partiyalara müraciət edərək, onları hakimiyyətin dəyişdirilməsi yolunda birgə mübarizəyə çağırıb (anspress). Müraciətdə deyilir:**

"Əgər siz hesab edirsinizsə ki, hakimiyyət dəyişməsi üçün vaxt yetişib, o zaman biz avqustun 21-də bütün respublika ərazisində kütləvi aksiyalara, mitinq keçirməyə başlamağa və hökumətin istefasını tələb etməyə hazırıq. Nə qədər ki, ictimai rezonans dalğası bütün ölkə ərazisinə yayılmayıb, biz meydanlarda sonadək qalacağıq. Lazım gəlsə, İrəvanı qan gölünə çevirəcəyik".

Müxalifət partiyalarına çağırışda əminlik ifadə olunur ki, ölkəni siyasi uçurumdan, iqtisadi böhrandan çıxarmağın yeganə yolu saxta yollarla deyil, əhaliyə divan tutan, insanlara qarşı güc tətbiq edən yox, məhz xalqın etibarını qazanan, insanların konstitusiyada təsbit edilmiş hüquqlarını qoruyan, demokratik dəyərlərə üstünlük verən hökumətin hakimiyyətə gəlişidir.

Müxalifət partiyalarının "Ayağa qalx, Ermənistan" təşəbbüs qrupunun müraciətini hələlik cavabsız qoyması ölkə mətbuatında birmənalı qarşılanmayıb. Erməni Milli Konqresindən olan deputat Lyudmila Sarkisyan bu müraciətə şübhəli yanaşıb və bildirib ki, hədəflər və perspektivlər dumanlı olduğu üçün partiyaların bu çağırışa qoşulacağı inandırıcı deyil...


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

**Bu günlərdə müğənni Röya Ayxan mətbuat konfransında aylıq gəliri barədə məlumat verib. Onun öz gəliri haqda açıqlaması kifayət qədər diqqət çəkib. Müğənninin "deyirlər ki, ay ərzində 1 milyon, 700-800 min qazanıram. Onun 100 mini gedir mənim ailəmə, qalan məbləğ klipə, studiyaya, aranjemana sərf olunur" deməsi müğənnilərin vergi ödəyib ödəmədiklərini yenidən gündəmə gətirib. Görəsən, bu qədər gəliri olan müğənni dövlətə nə qədər vergi ödəyir və ya ödəməlidir?**

# Vergidən yayınan məşhur müğənnilər

## Vergilər Nazirliyi gəlirini gizlədib dövlət büdcəsinə ödənişdən yayınan şou-biznes nümayəndələrinin siyahısını hazırlayır

İnkişaf etmiş ölkələrdə müğənnilər dövlət büdcəsinə xeyli vergi ödəyir. Lakin xaricdə də vergidən yayınan müğənnilər, aktyorlar var. Məsələn, Hollivud ulduzlarının vergidən yayınmaq üçün gəlirlərini az göstərdikləri, bu səbəbdən də böyük məbləğlərdə cərimə edildikləri barədə məlumatlar eşidirk.

Elə qonşu Türkiyədə baş verənləri götürək. Ötən il Türkiyə mətbuatında yayılan məlumata görə, məşhur müğənnilər gəlirlərini o qədər az göstərmişdilər ki, vergi orqanları 11 müğənnidən cəmi 55 min türk lirəsi (20 min manat) vergi toplaya bilmişdi.

### Bəs Azərbaycanda vəziyyət necədir?

Araşdırmalarımızdan belə məlum oldu ki, qanuna görə, əgər müğənninin gəlirləri il ərzində 120 min manatdan çox deyilsə, bu zaman VÖEN almaqla dövlətə sadələşdirilmiş formada 4 faiz vergi ödəməlidir. Lakin gəlir artıq qeyd edilən rəqəmi keçərsə, bu halda 18 faiz əlavə dəyər vergisi də gəlir vergisinə cəlb olunmalıdır. Hər hansı bir vasitə ilə müğənninin vergidən yayındığı aşkarlanarsa, nəzərdə tutulan cərimələrlə yanaşı, həmin şəxsin 3 aydan 6 aya qədər el şənliklərində, konsertlərdəki çıxışı qadağan oluna bilər. Məbləğin miqdarından asılı olaraq bu qadağa 1 il müddətinə qədər uzadıla bilər.

**Aparılan araşdırmalar onu da göstərir ki, ölkəmizdə ən məşhur, yüksək gəlir əldə edən, o cümlədən təkcə ailəsi üçün ayda 100 min xərclədiyini deyən Röya Ayxanın özü adi formada 4 faiz vergi verməklə kifayətlənir. Bu barədə müğənninin prodüseri Kənan Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirib:**

"Doğrudur, Röya xanım mətbuat konfransında öz gəlirləri barədə danışıb. Bildirim ki, sənətçi uzun illərdir ki, vergi ödəyicisidir. Sizcə, elə bir şey ola bilərmi ki, Röya öndə gedən müğənni olsun, amma vergi ödəməsin. Biz istəsək də, istəməsək də vergi ödəməliyik, çünki bu ölkədə yaşayıb gəlir əldə edirik. Röya Ayxan vergi orqanları ilə birgə razılaşdırılımış məbləği hər üç aydan bir ödəyir".

**Keçirilən sorğulardan o da məlum olub ki, ölkədə toy biznesindən ən çox gəlir əldə edən də məhz Röya Ayxandır. Əldə etdiyimiz məlumata görə, müğənni bir toyda yarım saat çıxış üçün 6 min manat tələb edir. Bəs görəsən, hər toy gəliri üçün müğənni vergi ödəyirmi?**

**Prodüser Kənan Babayev verdiyimiz sualdan bir az təəccübləndi:**

"Adətən toy məsələsi ilə bağlı şadlıq evlərinin 99 faizinin administratoru ilə müqavilə imzalayırıq. Lakin bir çox hallarda toy sahibi ilə öz aramızda anlaşmamız olur, buna görə də müqavilə bağlamırıq. Röya xanım hər toy üçün niyə vergi ödəməlidir ki?! Ümumiyyətlə, sizin vergi sistemi haqqında anlayışınız var?!



Qeyd etdiyim kimi, Röya Ayxan 3 aydan bir "kvartalnıy" vergisini vaxtlı-vaxtında ödəyir, Dövlət Sosial Müdafiə Fonduna pul köçürür".

**İqtisadçı Rəşad Həsənov prodüserin bu yanaşmasının qanunsuz olduğunu, müğənnilərin hər bir gəlir əldə etdiyi xidmət üçün vergi ödəməli olduğunu deyib:**

"Qanuna əsasən şou-biznes zümrəsinə məxsus olan şəxslər hər bir xidmətləri üçün müqavilə imzalamalı, əldə etdiyi ödəniş barədə vergi orqanlarına dəqiq məlumat bildirməlidir. Müqavilədə gəlirlər birmənalı şəkildə əks olunmalıdır. Sonrakı mərhələdə isə ödəniş gəlirləri vergi tutma agentinə çevrilməlidir.

Artıq 10 ildən çoxdur ki, dünyada və eləcə də ölkəmizdə partnyorluq müqaviləsi imzalanır ki, şou-biznes nümayəndələri əsasən bu yolla vergi ödəməyə üstünlük verir. Bu müqaviləni imzalayan şəxslər bir sıra öhdəlik götürərək qarşılıqlı əməkdaşlıq mühitində işləyirlər. Müqaviləyə əsasən burda bütün maliyyə əməliyyatları rəsmiləşdirilməli, əldə edilən gəlirlər göstərilməlidir. Razılaşmaya görə vergi orqanları ilə vergi ödəyicisi arasında növbəti dövr üçün gəlir proqnozu olur. Vergi ödəyicisi öhdəlik götürüb gəliri barədə və gələcək gəlirinin göstərilən məbləğdən az olmayacağını bildirib müəyyən məbləğ proqnozlaşdırır.

Vergini ödəyənlər birbaşa Pensiya Fonduna da ödəniş etmiş olur. Vətəndaşlar müqavilə ilə çalışaraq, əldə etdiyi gəlirləri tam şəkildə göstərməklə gələcəkdə özü üçün yaxşı pensiya müavinəti qazanmış olur".

**Ekspert müğənnilərin qanunsuz olaraq vergidən yayınması sayəsində ölkə büdcəsinə külli miqdarda ziyan dəydiyini deyib:**

"Bu, ciddi məsələdir. Məlumdur ki, son vaxtlar çoxlu sayda müğənni toylardan, el şənliklərindən kifayət qədər gəlir əldə edir. Lakin onlar gəlirlərini gizlədib vergidən yayına bilirlər. Bu, geniş yayılıb və ənənəvi forma alıb. Bunun qarşısını almaq isə çox çətin prosesdir. Əgər bütün məsələlər qanuni şəkildə aparılsa, ölkə iqtisadiyatının da vəziyyəti xeyli yaxşılaşar. Bunun üçün isə bir sıra layihələr həyata keçirilməli, xüsusi proqramlar hazırlanmalıdır, vergidən yayınan müğənnilərə qarşı sərt sanksiyalar tətbiq edilməlidir.

Müğənnilər unutmamalıdır ki, onlar xalqın dəstəyi ilə qazanc əldə edirlər. Onların yayındığı vergi ödənişləri hansısa sosial problemi olan insanlara kömək edə bilər. Onlar dövlət və xalq qarşısında məsuliyyət daşıdıqlarını bilməlidirlər".

### Hansı müğənnilərin vergidən yayınması məlum olub?

Ötən illərdə vergidən yayınan müğənnilər barəsində məlumatlar yayılmışdı. Onların arasında xalq artisti Nazpəri Dostəliyeva, müğənni Vasif Məhərrəmli, rəqqasə Fatma Abdullayevanın adları hallanırdı.

Hazırda bu siyahıda hansı müğənnilərin yer alması barədə Vergilər Nazrilyinin mətbuat xidmətinin rəhbəri Şahin Məmmədova müraciət ünvanladıq. Nazirlik rəsmisi bugünlərdə həmin müğənnilərin adını açıqlayacaqlarını qeyd etdi.

### Əməkdar artist nə qədər vergi ödədiyi barədə məlumatsızdır...

Bir neçə tanınmış müğənni arasında kiçik sorğu keçirib dövlətə nə qədər vergi ödədikləri ilə maraqlandıq.

**Əməkdar artist Elza Seyidcahan** nə qədər vergi ödədiyi barədə məlumatsız olduğunu bildirdi. Müğənni iştirak etdiyi toylar üçün müqavilə imzalamadığını da etiraf etdi.

Toylardan daha çox gəlir əldə edən müğənnilər sırasında olan **Nadir Qafarzadənin** prodüseri Zaur (özünü belə təqdim etdi) da bildirdi ki, müğənni iştirak etdiyi toylar üçün müqavilə imzalamır.

**Müğənni İzzət Bağırov isə hər bir çıxışı üçün vergi ödədiyini dedi:**

"Təkcə mənim deyil, ansamblımın bütün üzvlərinin VÖEN-ni var. İştirak etdiyimiz şadlıq evləri bizim çıxışları qeydə alır. Vergi orqanları da şadlıq evləri ilə əlaqə saxlayıb orda keçirilən toyların sayı, çıxış edən müğənnilər, onların gəliri barədə məlumat əldə edir".

**Müğənni-bəstəkar Cabbar Musayev** də 2004-cü ildən bəri vergi ödəyicisi olduğunu, hər fəaliyyəti ilə əlaqədar olaraq qarşılıqlı müqavilə bağladığını bildirib.

**Əməkdar artist Nüşabə Ələsgərli** də proqnozlaşdırılmış müqavilə əsasında vergi ödədiyini deyib.

❑ Xalidə GƏRAY

# Susmağı niyyət edənlər...



**Hüseynbala SƏLİMOV**

İndi Azərbaycanda hamı, xüsusən də hakimiyyətdə olanlar özlərini elə aparırlar ki, sanki bütün böyük zirvələr artıq fəth olunub, qalan vaxtı isə sadəcə, yaşamaq lazımdır. Bəzi telekanallar hətta Avropa Oyunlarından təkrar kadrlar göstərməklə məşğuldurlar...

Hətta heç kim bir məsələnin fərqinə varmır ki, Avropa Oyunlarındakı möhtəşəm qələbəyə rəğmən idmançılarımız bu yaxınlarda Gürcüstanda gənc idmançılar arasında keçirilən analoji oyunlarda elə də fərqlənə bilmədilər...

Düzdür, bu, idmandır və burada hər şey mümkündür - qələbə də olur, məğlubiyyət də. Hər ikisi ilə hesablaşmaq və hər ikisi ilə barışmaq lazımdır. Gəl, ölkənin həyatı təkcə idmandan ibarət deyil...

Bu yaxınlarda avtobusla gedərkən bir qoca qadının deyinməsinin, vəziyyətdən necə şikayət etməsinin şahidi olduq. Qadın deyirdi ki, oynadıq, atlıb-düşdük, indi isə ölkənin problemlərilə məşğul olmağın vaxtıdır...

Ölkənin problemləri haqda eşitmək üçün isə hər dəfə hökumətin iclaslarına diqqət kəsilmək lazımdır. Demirik ki, hakimiyyət bu problemlərə tamamilə biganədir. Yox, biganə deyillər, amma bu problemlərin köklərini araşdırmağa da cəhd etmirlər...

Bu da aydındır - avtoritar siyasi sistemin imkanları həmişə məhdud olur. Baxıb görürsən ki, Azərbaycanda da avtoritar siyasi sistemi nə qədər effektiv etmək mümkündürsə, buna nail olublar. Bundan artığına isə siyasi sistemi dəyişmədən və onu tamamilə demokratik sistemlə əvəz etmədən nail olmaq və effektiv idarəçilik məsələsində ciddi sıçrayış əldə etmək mümkün deyil...

Bəzən hətta bu problemlər də dilə gətirilir. Məsələn, Binəqədidəki yaşayış evində çox güclü yanğın baş verəndə hakimiyyət birdən-birə ictimai nəzarətin vacibliyindən danışmağa başladı. Amma əfsus ki, bu problem də digərləri tək azacıq keçəndən sonra unuduldu...

Məsələ bundadır ki, ictimai rəyə ehtiyac duyan hakimiyyət qeyri-hökumət təşkilatları ilə, siyasi partiyalarla və media ilə tamam başqa münasibət qurmalı və onlarla ciddi əməkdaşlıq etməlidir...

Amma hakimiyyət bunu can atmır. Ona elə gəlir ki, həmin strukturlara ehtiyac duymadan da o, öz səhvlərini görə bilir. Elə yanlışlıq da bundadır - hamı öz səhvlərini görə bilsəydi, bu dünyada heç kim səhv etməzdi...

Budur, ölkə növbəti parlament seçkisi ərəfəsindədir. Ümid etmək olardı ki, bu seçkilərə hələki marağın çox az olması qızmar yay günlərilə və bir də vaxtın tamam yetişməməsilə bağlıdır. Amma bu qızmar günlər də sovuşacaq və vaxt da yetişəcək, fəqət, yenə də görəcəyik ki, seçkilərə maraq o qədər də böyük deyil.

Marağın olmamasında isə cəmiyyətin də, partiyaların da və ən başlıcası isə hakimiyyətin də günahı yetərincədir...

Amma nə etmək olar? Siyasi partiyalar artıq bununla barışmış kimi görünür və onlar ictimai suallara cavab vermək bir tərəfə, hətta özləri də sual qoymaq vərdişlərini itiriblər...

Xristian dinində əvvəllər belə ayin vardı. Rahiblər danışmamağı niyyət edirdilər. Bu ayini Andrey Tarkovskinin "Andrey Rublyov" filmində görmək mümkündür...

İndi Azərbaycanın bir vaxt dil-dil ötən müxalifətçiləri də danışmır, susurlar, sanki onlar da susmağı niyyət ediblər ki, görsünlər, hökumət susmağın müqabilində onlara nəsə verəcəkmi?..

Nə etmək olar? Bunu da sınamaq olar. Ən əsası isə bunun üçün çox gözləmək lazım gəlməyəcək, payızın sonlarında artıq hər şey bəlli olacaq...

Amma ən gülünc vəziyyət onda olacaq ki, hətta susmaq da xilas etməyəcək və hakimiyyət hədiyyə kisəsinin ağzını açmayacaq...

Əslində hakimiyyətin təsəvvür etdiyi və bir neçə çağırış qurmuş olduğu parlamentə də can atmağa dəyməz. Belə parlamentdə də müxalifətçilik etmək artıq sınaqdan keçirilib - elə bir mənası yoxdur, mikrofonu söndürürlər və sən də iclas zalında özün üçün atılıb-düşürsən...

Ən ağrılısı isə budur ki, bundan sonra düz üç il heç bir seçki olmayacaq. Hərçənd ki, olanda da maraqlı bir şey baş vermir. Amma yenə də seçki ilində simvolik də olsa, azacıq da olsa, ötəri də olsa, daxili siyasətə maraq yaranır - aldadılacaqlarını bilsələr də siyasi partiyalar, müstəqil insanlar nəyəsə özlərini inandırmağa, nəyisə sınaqdan çıxarmağa cəhd edirlər...

İndilik sezilən isə budur ki, müxalifətin builki taktikası susmaq olacaq, çünki danışmaq üçün çox məqamlar vardı, amma susdular. Olsun. Görək, bundan nə alınır?..

YENİ MÜSAVAT
N 183 (6211) 21 avqust 2015




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Ən çox işlənən əxlaqi ibarələrdən biri - İlahi razılıq, Allah razılığı ibarəsidir. Bu bəhsimizdə çalışacağıq ki, bu mühüm mövzu üzərində danışaq. Allahın razılığını əldə etməyin şərtləri nədir və nədən bilmək olar ki, bizlər İlahi razılığı əldə etmişik, ya yox? Bu, çox mühüm mövzudur. Bəzən elə gündəlik həyatımızda da bu sualla qarşılaşırıq. Biz Allah razılığı üçün çalışdığımızı düşünürük. Bəs Allah razılığı üçün çalışmağın şərtləri nədir? Nə bilək Allah razılığını əldə edə bilmişik, ya yox?**

# İlahi razılığı əldə etməyin 2 zəruri şərti



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Kimin razılığı?

Dünyada yaşayan kifayət qədər böyük sayda insan üçün bu mövzunun ümumiyyətlə heç bir əhəmiyyəti yoxdur. Kimin razılığı, nəyin razılığı onu maraqlandırmır. Onu ancaq maraqlandıran - öz nəfsinin razılığıdır. Başını aşağı salıb, nəfsi hara aparırsa, oraya da gedir. Bu da ayrı bir müsibətdir. İnsan qəflətdədir, özünü hələ tanımayıb. Bu mövzular onun üçün önəmli də deyil. Bu kimi mövzularda düşünməyi səmərəsiz, mənasız vaxt itkisi hesab edir. Bu günlə, dünya ilə yaşamağın daha münasib olduğunu düşünür. Bu kimi mövzuları əhəmiyyətsiz bilir, nəfsinin istədiklərini əsas prioritet sayır. Belə insanlar zahirən yaxşı işlər görəndə də, nəfsi istədiyi üçün edir. Birinə bir köməklik edəndə, nəfsinin tələbatını ödəmək üçün edir, bundan ləzzət alır. Bu, elə bir yaşayışdır ki, burada ancaq nəfsani hisslər var, pak həyat tərzi yoxdur.

## Allah razılığı üçün zəruri olan 2 şərt

Bəzi insanlar da var ki, iman gətiriblər, etiqad əldə ediblər. Onlar düzəlmək istəyir, islah olmaq istəyirlər. Belə insan təbii olaraq düşünür ki, əməl və davranışlarında nə etsin, necə etsin ki, Allahın razılığını qazana bilsin? Nədən bilsin ki, Allahın razılığını əldə edə bildi, yoxsa yox? Əxlaq mütəxəssisləri Allahın razılığını əldə etmək üçün bir əməlin zəruri iki şərtinin birlikdə olmasını vacib sayır. Terminoloji dillə desək, bildirirlər ki, iki hüsn baş tutmalıdır - hüsnü-feli və hüsnü-faili. Bir feldə hüsn, gözəllik olmalıdır, əməlin dürüstlüyü, doğruluğu, səhihliyi baş verməlidir. Bir də əməli edənin, failin niyyəti, ruhiyyəsi hüsn, gözəl olmalıdır.

Bəli, İlahi razılıq üçün iki şərt var. Birincisi budur ki, əməl özü gözəl olmalıdır. Biz fellərdə hüsndən danışsaq, deyə bilərik ki, əməl özü düz olmalıdır, düz həyata keçirilməlidir. Yəni, əməl səhih, doğru tərzdə həyata keçirilməlidir. Edilən əməl şəriətə uyğun olmalıdır, insanı Allaha yaxınlaşdırmaq tutumuna malik olmalıdır. Bu, birinci şərtdir. Şəriət baxımından, din baxımından, İslam baxımından batil əməl hər nə qədər Allaha yaxınlaşmaq niyyəti ilə həyata keçirilsə belə, insanı Allaha tərəf yaxınlaşdırmaz və insanı Allaha tərəf aparmaz. Biri deyə bilər ki, mən pis iş görürəm, amma Allaha yaxınlaşmaq niyyəti ilə edirəm. Kimsə cahilliyindən belə düşünə bilər. Dinimiz belə bir şeyi qəbul etmir. Dinimiz bəyan edir ki, İslamın nəzərində bir əməlin Allah razılığına səbəb olması üçün əməl şəri, İslam baxımından səhih, mötəbər, Allah dərgahında şəri baxımından normal əməl olmalıdır. Şəriət baxımından, din baxımından qəbul olunmayan bir əməl və davranış, hər hansı niyyətlə edilməsindən asılı olmayaraq, heç cür İlahi razılığa apara bilməz. Yəni diqqət etməliyik ki, əməlin özü şəri baxımından Allahın nəzərində normal bir əməl olmalıdır. Deməli, Allah razılığına səbəb olmaq üçün ilk növbədə əməlin özü dini standartlara cavab verməlidir. Bir adam haram musiqiyə, ğinaya qulaq asıb Allah razılığını qazanmaq barədə düşünə bilməz. Yaxud rüşvət alıb, haqq basıb, Allahın razılığı iddiasında buluna bilməz. Dinimizin nəzərində belə bir şey yoxdur. Allahın bəyənmədiyi bir şeylə Allahın razılığına çatmaq kimi məsələ yoxdur.

İkinci şərt budur ki, əməlin həyata keçirilmə niyyəti gözəl olmalıdır. Əməl iman və İlahi motivasiya ilə, qürbət qəsdi ilə həyata keçirilməlidir. Allaha yaxınlaşmaq niyyəti ilə həyata keçirilməlidir. Bu iki şərt birlikdə olsa, o əməl Allahın razılığını qazanmaq üçün artıq demək olar ki, hazır vəziyyətə gəlib çatar. Birincisi əməlin özü dürüst olmalıdır, ikincisi əməl gözəl niyyətlə həyata keçirilməlidir.

## Allahın razılığı müqabilində insanın mükafatı

Allah Təala Qurani-Kərimin "Nəhl" surəsinin 97-ci ayəsində açıq-aydın şəkildə bu məsələyə vurğu edir. Ayədə buyurulur: **"Hər kim - kişi yaxud qadın - imanı olan halda yaxşı iş görsə, onu şübhəsiz, (dünyada) pak bir həyatla yaşadacaq və (axirətdə) mükafatlarını çox gözəl olan əməllərinin müqabilində verəcəyik".** Ayədən göründüyü kimi, əgər bir insan imanla, doğru niyyətlə yaxşı bir iş görərsə, Allah Təbarək və Təala ondan razı olar və ona bəyəndiyi, pak bir həyat nəsib edər. Bu razılığın müqabilində Allah ona axirətdə də gözəl mükafatlar nəsib edər. Yetər ki, insan bütün əməllərini təqvalı şəkildə, imanlı halda, qürbət (Allaha yaxınlaşmaq) qəsdi ilə etsin. Allah həmin kəsdən razı olar, insana xüsusi bir pak həyatı bəxş edər. Əsas budur ki, insan iki şərti eyni zamanda yerinə yetirsin.

## Allahın razılığının nişanələri

İnsan hansısa yaxşı əməli edir və o əməldən ruhlanır, enerji alır. Ruhlandığı üçün, motivlənir və daha çox əməl yerinə yetirmək, daha çox yaxşı işlər görmək istəyir, pozitiv impuls alır. Əməl səbəb olur ki, daha çox, daha gözəl əməllər etməyə tofiqat yaransın. Tofiqat odur ki, Allah əməlin yerinə yetirilməsi üçün insana yol açır, əməlin mümkünlük potensialını reallığa doğru yönləndirir. Bu, Allahın insandan razılığının göstəricilərindəndir, insan tərəfindən Allahın razılığını qazanmağın nişanələrindəndir. Bir var ki, insan bir yaxşı əməl edir, daha heç nə etmək istəmir, ikinci dəfə o yaxşı işi görməyə həvəsi olmur. Allah razılığını qazanmağın nişanələrindən biri budur ki, insan gözəl, yaxşı bir əməli etdikdən sonra daha da çox gözəl əməl etmək üçün ruhlansın. Bu əməli etdikdən sonra, daha gözəl əməllər etmək üçün tofiqatı meydana gəlir. Allahın razılığının bir əlaməti budur.

İkinci cəhəti budur ki, insan gözəl əməl edir, ardınca mütəali, yüksək ruhiyyə əldə edir və həmin ruhiyyə onu bəndəlik müstəvisində, Allaha bəndə olmaq müstəvisində daha da çox hərəkətə gətirir. O əməl nəticəsində insan daha da gözəl əməllərə, işlərə, bəndəliyə ruhlanır. Ali bir ruhiyyə qazanır. Bu da Allahın razılığını qazanmağın əlamətlərindən, nişanələrindən biridir. İnsan yaşadığı həyatında əgər ayıq, diqqətli olsa, görər ki, vəziyyəti necədir. Allah ondan razıdır, ya yox? Əslində əgər bütün ibadətlərimiz Allahın razılığına səbəb olmuşdusa, gərək bizim ibadətlərimiz daha da böyük ruhiyyə ilə həyata keçirilsin. Misal üçün, əgər bizim mübarək Ramazan ayında etdiyimiz ibadətlərin Allah razılığına nə qədər səbəb olduğunu bilmək istəyiriksə, gərək öz durumumuza nəzər salaq. Mübarək ayda əldə etdiyimiz ali ruhiyyəni qoruyub saxlaya bilirikmi?

## Ali ruhiyyəyə necə çataq?

Həzrət İmam Səccad (ə) duasında buyurur: **"Ey Allahım! Qane olmayan nəfsdən, doymaq bilməyən qarından, yumşaq və huşu halında olmayan qəlbdən Sənə pənah gətirirəm".** Biz arxayın olmamalıyıq ki, nəfsimiz özü qaydaya düşəcək, biz ali ruhiyyəyə yiyələnə biləcəyik.

İnsanın mövcudiyyəti dövründə nəfsin istəkləri yekunlaşmır. Nəfs qane olmur. Təmin olunur, daha da çox istəyir. Nəfsin istəkləri bitmir. İstənilən təzahürü, istənilən forması bu cürdür. İnsan elə bir ruhiyyədə olmalıdır ki, qane olmayan nəfsdən Allaha pənah aparsın. Gərək insan bu ruhiyyədə olsun ki, Allaha pənah apara bilsin. Pənah aparmaq budur ki, insan öz aciz durumunu dərk və etiraf edir, Rəbbindən yardımlarını istəyir. Nəfsin ciddi təzahürlərindən biri - doymayan qarındır. Doymaq bilməyən qarından Allaha pənah aparmaq lazımdır.

Ali ruhiyyəyə yiyələnmək üçün ən mühüm rolu qəlb oynayır. Mütəali ruhiyyə qəlbin vəziyyətini göstərir. Qəlbimiz nə durumdadır? Bərk qəlbə, qəsavətli qəlbə malik olan adam özü üçün yaşayır, heç nəyi vecinə almır, davranışları, hərəkətləri, addımları onun üçün xüsusi əhəmiyyət kəsb etmir. Hərəkətlərinin, davranışlarının necə olması belə insanı narahat etmir. Amma qəlb Allah bəndəliyi, təvazökarlıq ruhiyyəsi ilə dolu olsa, insan öz davranışlarına, hərəkətlərinə diqqət edər. İnsan özündə hiss etsə ki, yumşaq və huşu halında qəlbə malik deyil, deməli səmərəsiz vəziyyətdədir.

## Qəlbin Allah razılığını qazanmaqda rolu

Allahın buyuruşlarını rahat şəkildə qəbul etmək və əməl etmək, bununla da Allah razılığını əldə etmək üçün gərək qəlbimizin halı həssas olsun. Həzrət İmam Sadiq (ə) buyurur: "Ürəyin (qəlbin) bədəndəki mövqeyi, imam və rəhbərin camaat arasında mövqeyi kimidir". Bu məsələyə iki aspektdən yanaşmaq olar. Birincisi, aydın olur ki, toplumda imam və rəhbər olmasa, məsum insanın mənəvi rəhbərliyi olmasa, toplum azğınlaşar. Vilayət nuruna bağlantı olmasa, toplum azğınlığa düçar olar. Ayrı-ayrı epizodlarda uğurlar müşahidə olunsa da, irəliləyiş kimi görsənsə də, bəşəriyyətin halı düzəlməz. Bəşəriyyətin halı o zaman düzələr ki, İmamın mənəvi rəhbərliyi qəbul olunsun. Bu olmayanda, cəmiyyətin halı çox pis olar.

O cümlədən də, bizim daxilimizdə vəziyyət bu cürdür. Qəlbimiz sağlam olmasa, qəlbimiz bədənimizi ali ruhiyyə ilə idarə etməsə, bizi istiqamətləndirməsə, ayrı-ayrılıqda əzalarımızın fəaliyyəti zahirdə yaxşı görsənsə də belə, heç bir bərəkəti olmaz, insanı düzəltməz. Qəlbdə bəndəlik ruhiyyəsi olmasa, insanın fiziki mövcudiyyəti Allaha tərəf aparmaz.

## Sağlam qəlb - dünya sevgisindən paklanmış qəlbdir

Həzrət İmam Sadiq (ə) buyurur: **"Sağlam qəlb odur ki, sağlamlığını dünya sevgisindən qorusun".** İnsanın dünyanı, dünya olaraq sevməsi onu məhvə, Allah razılığından uzaqlaşmağa doğru aparır. Dünya, dünya olaraq sevilsə, burada insan özünü artıq nəfsani istəklərə bağlamış olur. İnsanın mövcudiyyətini ən ciddi şəkildə zədələyən məsələ budur ki, insan dünyanı dünya olaraq sevsin. Bir var ki, insan dünyanı tanıyır, dünyadan o qədər bəhrə götürür ki, bu bəhrənin onun aqibətinə xeyri olsun. Elə ki, insan dünyadan dünyanın özü olaraq ləzzət almağa başlayır, artıq özünü Allah razılığından uzaqlaşmağa başlayır. Və əksinə. Bir var ki, insan təhsil alır ki, Allaha yaxınlaşsın. Bu işin özü də salehdir, niyyəti də salehdir və Allah razılığını qazanmaq üçün artıq bu əməl hazır duruma gələr. Bir də var ki, insan təhsilini dünya üçün, karyera üçün almaq istəyir. Bu zaman onun digər varlıqlardan çox az fərqi olacaq.

Dünya sevgisi - hansısa mücərrəd məsələləri sevmək demək deyil. Dünya sevgisi insanın bu həyatda bütün fəaliyyətini Allaha yaxınlaşmaq niyyətindən kənar həyata keçirməsidir. Bu dünya sevgisi insanın olan-qalan Allah sevgisini, Allaha itaətini, Allaha bəndəçiliyini də aradan aparar. Əgər işə ruzi qazanmaq niyyəti ilə yanaşırdısa, iş artıq onun üçün daha çox qazanmaq vasitəsinə çevrilər, onu dini vacibatlarını yerinə yetirməkdən belə, uzaqlaşdırar. Ona görə də, sağlam qəlb gərək özünü dünya sevgisindən qorusun.

Nə zaman ki, insan bir xəstəliyə tutulur, tez bir zamanda özünü müayinə etdirir. Nə lazımdırsa edilir ki, əvvəlki sağlamlığı geri qayıtsın. Amma bəzən insan öz mənəvi, qəlbi sağlamlığının müayinəsini etmir, o ki qala. Beləliklə də xəstəlikləri artır və bir gün artıq sağalmaz duruma gəlir. Necə ki, insan fiziki qida almasa ölər, eləcə əgər ruhu mənəvi qidalar almasa, bir gün öləcək. Qəlb sağlam olsa, bədən də sağlam olacaq, durum da sağlam olacaq. Qəlbin təvazökar halı, bədənin təvazösünə səbəb olar. Qəlbin huşu halında olması, bədənin huşu halına olmasına gətirib çıxardar.

**Allahım, bizlərə Sənin razılığına uyğun işlər, əməllər etməyi nəsib et!**

**Allahım, bizləri Sənin razılığından kənar bütün işlərdən çəkindir!**

**Allahım, bizlərə Sənin razılığının nişanəsi olan ali ruhiyyə nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 183 (6211) 21 avqust 2015

# Vətəndaşlarımız zibillə niyə davrana bilmir?

## Ölkə zibil içində boğulur...

**Avqustun əvvəlində Göygöl qoruğuna əhalinin və turistlərin girişinə icazə verildi. Minlərlə insan bura gəldi, ətraf mühitin gözəlliyini seyr etdir. Lakin 10 gün ərzində insanlar ərazini zibillədilər. Gəzintiyə gələnlər əllərindəki zibilləri zibil qutularına deyil, hara gəldi atdiblar.**



Qeyd edək ki, Göygölün uzun illər insanların üzünə qapalı olmasının səbəbi ekologiyanın qorunması ilə bağlı olub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Bioloji müxtəlifliyin qorunması və xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı departamentinin direktor müavini Hikmət Əlizadə bir neçə gün öncə qəzetimizə verdiyi açıqlamasında bu illər ərzində Göygöl ərazisindən 700 maşından artıq zibil daşınıldığını bildirmiş və insanları ətraf mühiti çirkləndirməməyə çağırmışdı. Ancaq görünür, bu çağırışlara məhəl qoyan olmayıb.

Ümumiyyətlə, Azərbaycanda insanlar zibili müvafiq qutularına deyil, yerə atmağı bir növ vərdiş halına gətiriblər. Binaların, küçələrin arxasında zibilxanalar, zibil qabları olsa da, adamlar əllərindəki əşyaları, zibili hara gəldi atırlar. Kimisi siqaret kötüyünü, kimisi su şüşəsini, kimisi də yediyi qidanın qabını, qalığını küçələrə atır. Hətta çoxmərtəbəli binadan zibili, istifadə edilmiş pampersi yerə atanlar da var.

Bu cür insanlara irad bildirəndə isə elə davranırlar ki, sanki bu belə də olmalıdır. və onlar düz edirlər. Yaxud da zibil qutularının az olmasını səbəb kimi göstərirlər. Bu cür davranışlar da şəhərin küçələrində qalaq-qalaq zibillərin toplanmasına səbəb olur.

İnsanlarımız başa düşmək istəmir ki, zibili, tullantıları müvafiq yerlərə qoymaq, ətrafı təmiz saxlamaq bir mədəniyyətdir. Bu mədəniyyət uzun illər öncədən xarici ölkələrdə ciddi şəkildə formalaşıb...

Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov küçəyə, parklara, yaşıllıq ərazilərə zibil atan insanların yüksək məbləğdə cərimələnməsinin tərəfdarı olduğunu bildirdi: "Sovet dövründə hər məhəllədə dəmir parçası, metallar, kağız, qəzet qəbul edən məntəqələr var idi. Əlvan metalların, dəmirin, kağızın qiyməti bir-birindən fərqli idi. Kağıza pul vermirdilər. Ancaq talon verirdilər. Bu talonla istədiyin kitabı gedib ala bilərdin. O zaman camaat maraqlı idi. Heç kim kağızları zibilliyə atmırdı. Zibil qutularında ancaq yeyinti məhsulları idi. O dövrdə Balaxanı zibil yandırma zavodunun yerinə başqa zibil yandırma zavodu var idi. Zibil qutuları da azdır. Həm də vaxtı-vaxtında zibil qablarını boşaltmırlar. Əgər kimsə 9-cu mərtəbədən zibili atırsa, onları yüksək məbləğdə cərimələmək lazımdır ki, bir də o işi etməsinlər. Bəzən də görürük ki, kimsə maşınla gedəndə evindən götürdüyü zibili zibil qabına atmaq əvəzinə maşının pəncərəsindən yolun kənarına atır. Bu cür insanları yüksək məbləğdə cərimələmək lazımdır. Çünki başqa əlacımız yoxdur. Küçələri zibilləyənlər anlamalıdır ki, bura onların öz vətəni, öz torpağıdır. Əgər evini çirkləndirmirsənsə, niyə küçəni çirkləndirirsən?! Axı sənin övladların orada gəzir, oynayır".

Psixoloq Dəyanət Rzayev bildirdi ki, ictimai qınaqla zibilliklərin qarşısını almaq mümkün deyil: "Xarici ölkələrdə zibil qutuları zibilin növlərinə görə bölünür. Azərbaycanda isə zibil qutuları ümumiyyətlə azdır. Bəzən deyilir ki, bizdən mədəni xalq yoxdur. Amma zibillə davranmağın özü də mədəniyyətdən xəbər verir. Telekanallarda bunu təbliğ etmək və insanlara daimi xatırlatmaq lazımdır ki, şəhəri, küçələri zibilləmək olmaz. Birdə zibil qutularının sayını çoxaltsalar mənə elə gəlir ki, hər şey düzələcək. Bu kimi neqativ halların qarşısını almaq üçün təbliğat aparmaq, cəza və cərimə üsulları tətbiq etmək lazımdır. Bəzən görürük ki, kimsə yol gedə-gedə siqareti çəkib yola atır. Siz Almaniyada yolda siqaret çəkən adam ümumiyyətlə görə bilməzsiniz. İctimai qınaqla bunun qarşısını almaq mümkün deyil. Balkondan zibil atan adama kim ictimai qınaq edəcək? Bütün bunların qarşısını almaq üçün ciddi qanunlar və cərimə üsulu tətbiq etmək lazımdır".

**Günel MANAFLI**











**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 183 (6211) 21 avqust 2015

# Vətəndaşlarımız zibillə niyə davrana bilmir?

## Ölkə zibil içində boğulur...

**Avqustun əvvəlində Göygöl qoruğuna əhalinin və turistlərin girişinə icazə verildi. Minlərlə insan bura gəldi, ətraf mühitin gözəlliyini seyr etdi. Lakin 10 gün ərzində insanlar ərazini zibillədilər. Gəzintiyə gələnlər əllərindəki zibilləri zibil qutularına deyil, hara gəldi atdılar.**



Qeyd edək ki, Göygölün uzun illər insanların üzünə qapalı olmasının səbəbi ekologiyanın qorunması ilə bağlı olub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Bioloji müxtəlifliyin qorunması və xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı departamentinin direktor müavini Hikmət Əlizadə bir neçə gün öncə qəzetimizə verdiyi açıqlamasında bu illər ərzində Göygöl ərazisindən 700 maşından artıq zibil daşınıldığını bildirmiş və insanları ətraf mühiti çirkləndirməməyə çağırmışdı. Ancaq görünür, bu çağırışlara məhəl qoyan olmayıb.

Ümumiyyətlə, Azərbaycanda insanlar zibili müvafiq qutulara deyil, yerə atmağı bir növ vərdiş halına gətiriblər. Binaların, küçələrin arxasında zibilxanalar, zibil qabları olsa da, adamlar əllərindəki əşyaları, zibili hara gəldi atırlar. Kimisi siqaret kötüyünü, kimisi su şüşəsini, kimisi də yediyi qidanın qabını, qalığını küçələrə atır. Hətta çoxmərtəbəli binadan zibili, istifadə edilmiş pampersi yerə atanlar da var.

Bu cür insanlara irad bildirəndə isə elə davranırlar ki, sanki bu belə də olmalıdır. Onlar düz edirlər. Yaxud da zibil qutularının az olmasını səbəb kimi göstərirlər. Bu cür davranışlar da şəhərin küçələrində qalaq-qalaq zibillərin toplanmasına səbəb olur.

İnsanlarımız başa düşmək istəmir ki, zibili, tullantıları müvafiq yerlərə qoymaq, ətrafı təmiz saxlamaq bir mədəniyyətdir. Bu mədəniyyət uzun illər öncədən xarici ölkələrdə ciddi şəkildə formalaşıb...

**Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov küçəyə, parklara, yaşıllıq ərazilərə zibil atan insanların yüksək məbləğdə cərimələnməsinin tərəfdarı olduğunu bildirdi:** "Sovet dövründə hər məhəllədə dəmir parçası, metallar, kağız, qəzet qəbul edən məntəqələr var idi. Əlvan metalların, dəmirin, kağızın qiyməti bir-birindən fərqli idi. Kağıza pul vermirdilər. Ancaq talon verirdilər. Bu talonla istədiyin kitabı gedib ala bilərdin. O zaman camaat maraqlı idi. Heç kim kağızları zibilliyə atmırdı. Zibil qutularında ancaq yeyinti məhsulları idi. O dövrdə Balaxanı zibilyandırma zavodunun yerinə başqa zibilyandırma zavodu var idi. Zibil qutuları da azdır. Həm də vaxtı-vaxtında zibil qablarını boşaltmırlar. Əgər kimsə 9-cu mərtəbədən zibili atırsa, onları yüksək məbləğdə cərimələmək lazımdır ki, bir də o işi etməsinlər. Bəzən də görürük ki, kimsə maşınla gedəndə evindən götürdüyü zibili zibil qabına atmaq əvəzinə maşının pəncərəsindən yolun kənarına atır. Bu cür insanları yüksək məbləğdə cərimələmək lazımdır. Çünki başqa əlacımız yoxdur. Küçələri zibilləyənlər anlamalıdır ki, bura onların öz vətəni, öz torpağıdır. Əgər evini çirkləndirmirsənsə, niyə küçəni çirkləndirirsən?! Axı sənin övladların orada gəzir, oynayır".

Psixoloq Dəyanət Rzayev bildirdi ki, ictimai qınaqla zibilliklərin qarşısını almaq mümkün deyil: "Xarici ölkələrdə zibil qutuları zibilin növlərinə görə bölünür. Azərbaycanda isə zibil qutuları ümumiyyətlə azdır. Bəzən deyilir ki, bizdən mədəni xalq yoxdur. Amma zibillə davranmağın özü də mədəniyyətdən xəbər verir. Telekanallarda bunu təbliğ etmək və insanlara daimi xatırlatmaq lazımdır ki, şəhəri, küçələri zibilləmək olmaz. Bir də zibil qutularının sayını çoxaltsalar mənə elə gəlir ki, hər şey düzələcək. Bu kimi neqativ halların qarşısını almaq üçün təbliğat aparmaq, cəza və cərimə üsulları tətbiq etmək lazımdır. Bəzən görürük ki, kimsə yol gedə-gedə siqareti çəkib yola atır. Siz Almaniyada yolda siqaret çəkən adam ümumiyyətlə görə bilməzsiniz. İctimai qınaqla bunun qarşısını almaq mümkün deyil. Balkondan zibil atan adama kim ictimai qınaq edəcək? Bütün bunların qarşısını almaq üçün ciddi qanunlar və cərimə üsulu tətbiq etmək lazımdır".

❑ **Günel MANAFLI**











**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclərın dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

N 183 (6211) 21 avqust 2015

# 5 milyon dəyərində qızıl tapılıb

ABŞ-da 300 il əvvəl batan ispan gəmisindən 4.5 milyon dollar dəyərində qızıl tapılıb. Gəmi Atlantik okeanının Florida ştatı sahillərində aşkar edilib. Batmış gəmini ABŞ-a məxsus "1715 Fleet" şirkəti tapıb. Şirkət 2010-cu ildən Florida sahillərində axtarışlar aparırdı. İçərisində qızıl, gümüş və qab-qacaqlar olan gəmi 300 il əvvəl Floridadan İspaniyaya getmək üçün yola çıxsa da, mənzil başına çata bilməyib. Gəmi batan zaman 1000 nəfərdən çox insan həyatını itirib. Qızıl məmulatlar 3 əsr boyunca suyun altında qalsa da, öz keyfiyyətini itirməyib. Tapılmış qızıl ekspertlər tərəfindən 4,5 milyon dollar məbləğində dəyərləndirilir. Gəmi ispan ticarətçilərinə məxsus olub. Həmin ərazidə daha 11 gəmi batıb.





## Tutuquşu söydüyü üçün həbs edildi

Hindistanın Maharaştra əyalətində bir tutuquşu yaşlı bir qadına söyüş söydüyü üçün nəzarətə götürülüb. Hindistan mediasından yayılan xəbərlərə görə, Çandrapur şəhərində yaşayan Sureş Sakarkar adlı kişi Hariyal adlı tutuquşuna söyüşlər öyrədib və bu sözləri ögey anasına deməsi üçün onu iki il əhliləşdirib. Bundan sonra quş hər dəfə sahibinə təhqir dolu sözlər deməyə başlayıb. Quşun təhqirlərindən təngə gələn 85 yaşlı Canabai Sakarkar adlı qadın polisə müraciət edib. Bundan sonra yaşlı qadın, ögey oğlu və tutuquşu polis şöbəsinə aparılıb. Yaşlı qadın "iki ildir məni təhqir edir. Məni gördüyü zaman ədəbsiz sözlər danışır. İki ildə 3 dəfə bu quşdan şikayət etmişəm. Quş bizdən alınmalıdır" deyib.

Polislər yaşlı qadınla oğlu arasında ərazi və mülki anlaşmazlığı olduğunu bildirib. Polislərdən biri isə saatlarla şöbədə qalan quşun ağzından bir dəfə pis söz çıxmadığını deyib. Buna baxmayaraq, tutuquşu yaşlı qadının psixologiyasını pozduğu üçün sahibindən alınıb.

# Baş nazir "ekonom klass"da

İngiltərə baş naziri Devid Kemeronun Portuqaliya səyahəti sosial medianın ən önəmli mövzularından birinə çevrilib. İş səyahətləri xaricində "ekonom klass"la (təyyarədə ucuz qiymətə satılan yerlər) gedib-gəldiyi hər kəsə məlum olan Kemeronun bu dəfə ən ucuz hava yolu şirkəti olan "EasyJet"lə səyahət etməsi hər kəsi təəccübləndirib.

Baş nazir Portuqaliyada tətildə olan ailəsinin yanına getmək üçün belə bir addım atıb. 16 yaşlı Ashleigh adlı qız arxa planda Kemeronun yer aldığı rəsmi çəkib və tvitter sosial şəbəkəsindəki profilinə yerləşdirib. Şəkildə baş nazirin cipsi yediyi görünür. Gənc qız "baş nazir 3 kreslo o tərəfdə cipsi yeyir, kömək edin" deyə yazaraq şəkil paylaşıb. Kemeronla eyni təyyarədə səyahət edən başqa bir sərnişin "Kemeron ekonom klassda səyahət edir, İngiltərənin vəziyyəti çətin olmalıdır" deyə yazıb.





## Seriala görə həbs edildi

İngiltərənin Leeds şəhərində bir kimya müəllimi xərçəng xəstəsi olduğunu öyrəndikdən sonra narkotik ticarətinə girməsindən bəhs edən serialı izləyən bir tələbə özünü ona bənzətmək istəyib. Adının Reynolds olduğu deyilən tələbə 9 dostu ilə birlikdə laboratoriyada narkotik maddələr hazırlayaraq internetdə satırmış. Narkotik ticarətinin iso dostlardan birinin evində həyata keçirildiyi deyilir. 10 nəfər narkotik satışına görə nəzarətə götürülüb. Həbs cəzası alan gənclərin evindən üzərində serialın baş rol oyunçusu Walter Whitenin rəsmi olan köynək tapılıb. Tələbələrin mesajlarında da serial haqqında yazdıqları məlum olub.




**QOÇ** - Ayın ən uğurlu günlərindən birini yaşayacaqsınız. Bir tərəfdən maraqlı görüşlər, digər tərəfdənsə perspektivli sövdələşmələr sizi sevindirəcək. Büdcənizdə artım da mümkündür.

**BUĞA** - Bu təqvimdə uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağa çalışın. Əgər başqa vaxta saxlasanız, səmərəli olmayacaq. Bağ-bağatda işləmək üçün bu təqvimin böyük əhəmiyyəti var.

**ƏKİZLƏR** - Astroloji göstəricilər sizin zodiaka məsləhət görür ki, əsas üstünlüyü sevgiyə yönəldəsiniz. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə tam ümidlə baxın.

**XƏRÇƏNG** - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Səhhətinizə qayğı göstərin.

**ŞİR** - Bürcünüzün ən uğurlu məqamlarını yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Qərarlarınızda qətiyyətli olun.

**QIZ** - Qonaq getmək üçün günün ikinci yarısı münasibdir. Amma hər hansı fiziki işlərə başlamaq, yeni müqavilələr bağlamaq yolverilməzdir. Ailə münasibətlərində obyektiv addım atın.

**TƏRƏZİ** - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

**ƏQRƏB** - Tay-tuşlarınızla müəyyən mübahisələriniz gözlənilir. Özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 13-dən 17-yə qədər şəxsi işlərinizdə əsaslı dönüş yarana bilər.

**OXATAN** - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

**OĞLAQ** - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhətdir. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Axşama doğru qazanmaq ehtimalınız var.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

**BALIQLAR** - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki həftə boyu bu istiqamətdə uğurlarınız artacaq. İndi yalnız görəcəyiniz işləri konkretləşdirməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Uşağı kassaya gizlədib qaçdılar



Kanadada bir cütlüyün öz övladlarını tərk etməsini əks etdirən şəkli görənləri şoka salıb. Amerika-Kanada sərhədindəki Nigeriya şəlalələrini görməyə gələn, adı açıqlanmayan cütlük bir neçə aylıq övladlarını qoyub qaçıblar. Onlar uşağı qaldıqları hotelini kassasında gizlədərək aradan çıxıblar. Müştərilərin çıxmasından sonra otağa girən xadimə ağlayan uşaq səsi eşidib. Qısa müddət ərzində kassadan çıxarılan uşağın səhhətinin yaxşı olduğu deyilir. Polisin sözlərinə görə, körpənin valideynləri bu müddətdə ölkəni tərk də bilməyiblər. Onlar polislər tərəfindən axtarılır.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.